**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ QIRX BİRİNCİ KİTAB

## NOYABR 2024 - DEKABR 2024

AZƏRNƏŞR
BAKI - 2025

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR * NİTQLƏR

BƏYANATLAR * MÜSAHİBƏLƏR

MƏKTUBLAR * MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2025

Buraxılışına məsul
baş redaktor

**ƏLÖVSƏT AĞALAROV**

**ƏLİYEV İLHAM**
**İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2025, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının ölkəmizdə keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının Liderlər Sammitinin açılışı mərasimində iştirakına, tədbir çərçivəsində müxtəlif və çoxsaylı dövlət və hökumət rəhbərləri, o cümlədən Avropa Şurasının baş katibi, İslam İnkişaf Bankının prezidenti, ISESCO-nun baş direktoru, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə görüşlərinə dair materiallar toplanmışdır.

Kitabda, həmçinin dövlət başçısının Türk Dövlətləri Təşkilatı dövlət başçılarının 11-ci Zirvə görüşündə iştirakına, Qırğız Respublikasına səfərinə aid materiallar, Bakıda Zəfər parkının açılışı mərasimində Zəfər Günü münasibəti ilə Azərbaycan xalqına müraciəti və «Rossiya-1» televiziya kanalına geniş məzmunlu müsahibəsi verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

© Azərnəşr, 2025

## BAKI DƏMİRYOL VAĞZALININ VƏ METRONUN «28 MAY» STANSİYASININ QARŞISINDAKI ƏRAZİDƏ APARILMIŞ ABADLIQ VƏ YENİDƏN QURULMA İŞLƏRİNDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun «28 May» stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidən qurulma işlərindən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına paytaxtımızda Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində – Bakı Dəmiryol Vağzalı və metronun «28 May» stansiyasının qarşısındakı ərazidə görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən*

*çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.*

*Son illərdə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, o cümlədən paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb.*

*Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və «yaşıl artım» ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunmuş «Yaşıl dünya naminə həmrəylik ili» çərçivəsində görülən abadlıq və yenidən qurulma işləri də ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.*

# SOMALİ FEDERATİV RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FATHUDİN ALİ MƏHƏMMƏD İLƏ GÖRÜŞ

*1 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Fathudin Ali Məhəmmədin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran Fathudin Ali Məhəmməd Somali Prezidentinin bu tədbirdə iştirak edəcəyini bildirərək vurğuladı ki, COP çərçivəsində Azərbaycan və Somali dövlət başçılarının keçiriləcək görüşü münasibətlərimizin inkişafına əlavə təkan verəcək.*

*Səfir əməkdaşlığımızın gündən-günə möhkəmləndiyini qeyd edərək, elm və təhsil sahələrində əməkdaşlığa toxundu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin Azərbaycanda təhsil aldığını və bu ənənələrin davam etdirilməsində maraqlı olduqlarını vurğuladı.*

*Prezident İlham Əliyev ticarət, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı müxtəlif səviyyələrdə təmasların önəminə toxunuldu, beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.*

## İSPANİYA KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KRİSTİNA LATORE SANÇO İLƏ GÖRÜŞ

*1 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kristina Latore Sançonun etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı bir daha başsağlığı verdi və bununla əlaqədar İspaniya hökumətinin Sədri Pedro Sançezə məktub göndərdiyini qeyd etdi.*

*Səfir başsağlığına və məktuba görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*O, Azərbaycanın COP29-a ev sahibliyi etməsinin və sədrliyinin, həmçinin ölkəmizin iqlim dəyişmələri prosesindəki mübarizəyə töhfə vermək əzminin yüksək qiymətləndirildiyini vurğuladı, bu tədbirin Azərbaycanda uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Kristina Latore Sanço bildirdi ki, İspaniya hökumətinin Sədri COP-un təşkilində Azərbaycan Prezidentinin şəxsi təşəbbüsünü yüksək qiymətləndirir.*

*Səfir iqlim dəyişmələri ilə bağlı mübarizə işində dövlətimizin başçısının fəaliyyətini qeyd edərək, ümumilikdə COP29 kimi mühüm tədbirin təşkilinə görə Azərbaycan tərəfinə və şəxsən dövlətimizin başçısına İspaniya hökuməti adından minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev COP29-un keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az vaxtın olmasına baxmayaraq bütün işlərin yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan tərəfinin böyük səy göstərdiyini dedi.*

*Dövlətimizin başçısı İspaniya hökumətinin Sədrinin COP29-da iştirakından məmnunluğunu bildirərək qeyd etdi ki, bu, İspaniya tərəfindən hökumət sədri səviyyəsində ölkəmizə ilk səfər olacaq.*

*Səfər çərçivəsində keçiriləcək görüşlərin ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəyinə ümidvarlıq ifadə olundu.*

*Azərbaycanın füsunkar ölkə və Bakının çox gözəl şəhər olduğunu deyən səfir ölkəmizdən xoş təəssürat aldığını bildirdi.*

*Görüşdə Azərbaycanla İspaniya arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi, bu xüsusda aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupunun yaradılması məsələsi qeyd olundu. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, turizm, energetika və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu vurğulandı. «Orta Dəhliz»in İspaniya şirkətlərinin region ölkələri ilə əlaqələrinin inkişafı üçün əlverişli perspektivlər açdığı qeyd edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDELMACİD TEBBUNA

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı – İnqilab Gününün 70-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

1954-cü ilin 1 noyabr günü qardaş Əlcəzair xalqının tarixinə qəhrəmanlıq səhifəsi kimi əbədi olaraq həkk olunmuş, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilmişdir. Bir əsrdən artıq davam edən amansız müstəmləkəçilik siyasətinə, misli görünməmiş zorakılığa, insanlıq əleyhinə və müharibə cinayətlərinə məruz qalmasına baxmayaraq, xalqınız heç bir zaman müstəqillik əzmini itirməmiş, böyük fədakarlığı, cəsarəti ilə vətən uğrunda canlarını fəda edən milyonlarla şəhidinin canı və qanı bahasına azadlığını əldə etmişdir.

Hazırda Azərbaycan–Əlcəzair münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Biz bu əlaqələrin daha da genişlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsinə xüsusi önəm veririk.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 noyabr 2024-cü il*

## BAKI OLİMPİYA STADİONUNUN ƏRAZİSİNDƏ COP29-la BAĞLI YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*4 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılmış şəraitlə tanış olmuşlar.*

*Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və xanımına burada yaradılmış şərait barədə ətraflı məruzə etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva COP29-un keçiriləcəyi tarixlərdə tədbir məkanı ərazisində istifadə ediləcək yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün nəzərdə tutulan elektrikli minimobillər, sammit zamanı yüksək səviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün istifadə olunacaq qolf-mobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələrinə baxdılar.*

*Dövlətimizin başçısı və xanımı COP29-un rəsmi Mavi zonasında açılışı mərasimində milli bəyanatların səsləndiriləcəyi «Nizami» plenar iclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanmış məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilmiş çoxfunksiyalı müxtəlif görüş*

*otaqları ilə tanış oldular. Qeyd edildi ki, burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər vardır. Bildirildi ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına yaxın günlərdə təhvil veriləcək Mavi zonada hazırda COP29 çərçivəsində pre-sessiya görüşləri keçirilir.*

*Dövlət başçısı və xanımı akkreditasiya və qeydiyyat prosesləri ilə tanış oldular. Bu günədək konfransda qeydiyyatdan keçmiş nümayəndə heyətləri ilə bağlı ətraflı məlumat verildi, tədbirə böyük marağın olduğu bildirildi.*

*Digər ölkə və tərəflərin pavilyonlarının yerləşdiyi zonaya baxan Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada Azərbaycan və digər ölkə pavilyonlarının tikinti prosesləri ilə tanış oldular, müxtəlif maraqlı tərəflərin iştirakı ilə geniş iştirakçı auditoriyası, eləcə də ictimaiyyət üçün açıq platforma rolunu oynayacaq Yaşıl zonada oldular, Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə pavilyonu olan Həmrəylik Mərkəzi, həmçinin digər tərəfdaşların və ölkələrin sərgi stendlərinə baxdılar. Yaşıl zonanın ümumi konsepti, bu zonada keçiriləcək yüksəksəviyyəli konfrans və tədbirlər barədə ətraflı məlumat verildi.*

## BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR KONFRANSININ 29-cu SESSİYASI (COP29) ÇƏRÇİVƏSİNDƏ «DÜNYA DİNLƏRİ YAŞIL PLANET UĞRUNDA» ŞÜARI ALTINDA KEÇİRİLMİŞ DİNİ LİDERLƏRİN QLOBAL SAMMİTİNİN İŞTİRAKÇILARINA

Hörmətli sammit iştirakçıları!

Sizi «Dünya dinləri yaşıl planet uğrunda» şüarı altında keçirilən Dini Liderlərin Qlobal Sammitinin açılışı münasibətilə Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Bu gün dünyamızın üzləşdiyi iqlim dəyişmələri, atmosferin və ətraf mühitin çirklənməsi, quraqlıq və səhralaşma, biomüxtəlifliyin itirilməsi, su qıtlığı, ərzaq çatışmazlığı və bu kimi digər qlobal ekoloji problemlər bəşəriyyətin mövcudluğu və gələcəyi üçün ciddi təhdidlər yaratmaqdadır. İqlim böhranı və ekoloji təhlükəsizlik məsələləri dünya dövlətlərinin birgə əməkdaşlığını, beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərinin birləşdirilməsini zəruri edir. COP tədbirlərində inklüzivlik prinsiplərinə uyğun olaraq, nüfuzlu dini liderlərin bir araya gəlməsini, planetimizin taleyi naminə onların narahatlığını və ümumi işə töhfə vermək əzmini yüksək qiymətləndirirəm.

Müxtəlif etiqad və inancların zəngin mənəvi potensialı iqlim dəyişmələrinin yaratdığı ekzistensial problemlərin həllinə təkan vermək imkanına ma-

likdir. Dünya din xadimləri bu çağırışlarla mübarizədə böyük rol oynaya bilərlər.

COP29-un Azərbaycanda keçirilməsinə yekdilliklə qərar verilməsi ölkəmizin beynəlxalq nüfuzuna yüksək etimadın göstəricisidir və bu heç də təsadüfi deyildir. Azərbaycan ekoloji problemlərlə bağlı bir çox konvensiya və sazişlərə qoşulmuş, müxtəlif ölkələrlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmış, bu sahədə çoxşaxəli fəaliyyət proqramları qəbul etmişdir. Ölkəmizdə ətraf mühitin qorunmasını nəzərdə tutan zəruri qanunvericilik sistemi formalaşdırılaraq, səmərəli institusional mexanizmlər və investisiya mühiti yaradılmışdır. Hazırda «yaşıl enerji» layihələrinin həyata keçirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, ətraf mühitə mənfi təsirlərin qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində mühüm addımlar atılmaqdadır. Azərbaycanda 2024-cü il «Yaşıl dünya naminə həmrəylik ili» elan olunmuşdur.

İqlim dəyişmələri və ekoloji problemlər ilə hamılıqla mübarizə aparmaq üçün dünyada beynəlxalq təhlükəsizliyin, sülh və əmin-amanlığın təmin edilməsi vacib amillərdən biridir. Ölkəmiz yaxın tarixi keçmişində əsassız ərazi iddialarına məruz qalaraq, ədalətsiz müharibəyə cəlb edilmiş, bu qanlı savaşın ağır fəsadlarını yaşamalı olmuşdur. Siz Azərbaycanın əzəli torpağı olan Qarabağa səfəriniz zamanı Ermənistan tərəfindən 30 illik işğal dövründə törədilmiş ekosid, kultursid və urbisid kimi cinayətkar əməllərin acı nəticələrini əyani şəkildə görmək imkanı qazanacaq, ölkəmizin bölgədə ekoloji tarazlığı bərpa etmək istiqamətində «yaşıl iqtisadiyyat»a, bərpa

olunan enerjiyə əsaslanan genişmiqyaslı yenidən qurulma işləri ilə bilavasitə tanış ola biləcəksiniz. Bəşəri problemlərin müzakirə olunduğu Dini Liderlərin Qlobal Sammiti kimi nüfuzlu tədbirlərin Azərbaycanda keçirilməsi artıq ənənə halını almışdır. İnanıram ki, bu sammit səmərəli fəaliyyəti ilə ölkəmizin sivilizasiyalararası dialoq məkanı statusunu daha da möhkəmləndirəcək, mədəniyyətlərarası əməkdaşlığa dair «Bakı prosesi»nə sanballı töhfə verəcək, «yaşıl dünya» naminə həmrəyliyiniz, müdrik təklif və tövsiyələriniz ümumi hədəflərə çatmağımıza dəstək olacaqdır.

Hörmətli dini liderlər!

Əminəm ki, taleyüklü problemlərə həsr olunmuş sammit konstruktiv fikir mübadilələri şəraitində keçəcək, COP çərçivəsində dinlərarası əməkdaşlıq platformasının təsisatlandırılması imkanı müzakirə ediləcəkdir. Bunun üçün tolerantlıq və multikulturalizm diyarı Azərbaycan ən uyğun məkandır.

Bir daha sizə ən xoş arzularımı yetirir, bəşəriyyətin gələcəyi naminə xeyirxah fəaliyyətinizdə hər birinizə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 noyabr 2024-cü il*

## QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*5 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfər etmişdir.*

*Bişkek şəhərinin «Manas-2» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin Sədri – Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşıladılar.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ «ÇİNGİZ AYTMATOV» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Bişkek*

*5 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 5-də «Çingiz Aytmatov» ordeni təqdim edilmişdir.*

*Dövlətimizin başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun ev-muzeyinə gəldi.*

*Prezident İlham Əliyev əvvəlcə ev-muzeyi ilə tanış oldu.*

*Məlumat verildi ki, muzey Bişkek yaxınlığındakı «Ala-Arça» dövlət iqamətgahında – 1986-cı ildən yazıçının ömrünün son 20 ilini yaşadığı evdə yerləşir. Qırğız xalqının böyük oğlunun vəfatından sonra həyat yoldaşı Mariya Aytmatova və oğlu Eldar ailəsi ilə burada yaşayıblar.*

*Ev-muzeyi Çingiz Aytmatovun həyat yoldaşı Mariya Urmatovna, övladları Eldar və Şirinin təşəbbüsü ilə 2014-cü il dekabrın 12-də açılıb.*

*Çingiz Aytmatovun kiçik oğlu Eldar yazıçının hələ sağlığında evdə hökm sürən bütün ab-havanı və*

*şəraiti ən xırda detala qədər qoruyub saxlamağa çalışmışdır. Ev-muzeyində yazıçının şəxsi əşyaları, əlyazmaları və çoxsaylı mükafatları qorunub saxlanılır. İkinci mərtəbədə onun kabineti, yataq otağı və kitabxana yerləşir.*

*Evin ikinci hissəsində Eldar Aytmatov və ailəsi yaşayır. Mədəni-maarif fəaliyyəti ilə məşğul olan Çingiz Aytmatov Beynəlxalq Fondu da burada yerləşir. Fond 2000-ci ildə yazıçının özü tərəfindən təsis edilib, indi onun övladları tərəfindən idarə olunur.*

*Dövlətimizin başçısı ev-muzeyinin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Dünya şöhrətli yazıçının zəngin bədii irsinə Azərbaycanda da hər zaman böyük maraq olub. Ulu öndər Heydər Əliyev Çingiz Aytmatovu «Türk Dünyasının fəxri» adlandırıb. Prezident İlham Əliyev 2008-ci ildə 1 nömrəli «Dostluq» ordenini Çingiz Aytmatova təqdim edib. Azərbaycan və Qırğız prezidentlərinin iştirakı ilə bu il aprelin 24-də Bakı şəhərində Çingiz Aytmatovun abidəsi ucaldılıbdır.*

*Sonra Prezident İlham Əliyevə «Çingiz Aytmatov» ordeninin təqdim edilməsi mərasimi oldu.*

**Eldar Aytmatov** (*Çingiz Aytmatov Fondunun prezidenti*): Hörmətli cənab Prezident, hörmətli qonaqlar!

Bu gün mən «Çingiz Aytmatov» ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim etmək şərəfinə nail oluram. Bu mükafat dərin hörmətin və yüksək nüfuzun rəmzidir. Bu, humanist dəyərlərin möhkəmləndi-

rilməsinə, mədəni dialoqun dəstəklənməsinə və böyük yazıçımızın yaradıcı irsinin qorunub saxlanılmasına Sizin verdiyiniz müstəsna töhfəyə görə minnətdarlıq əlamətidir.

Çingiz Aytmatov yalnız yazıçı deyil, həm də xalqlar arasında sülh, qarşılıqlı anlaşma və birlik ideyalarını təbliğ edən əsl körpü olub. Cənab Prezident, bu gün biz bu prinsiplərin Sizin fəaliyyətinizdə necə təcəssüm etdiyini görürük. Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətlərarası mübadilənin və əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir, digər ölkələrlə dinc və yaradıcı münasibətləri təşviq edir.

İcazə verin, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsində və Çingiz Torekuloviçin həyatını həsr etdiyi dəyərlərin təbliğində yorulmaz səylərinizə görə Çingiz Aytmatov Beynəlxalq Fondu adından Sizə dərin təşəkkürümü bildirim. İnanırıq ki, Sizin səyləriniz sayəsində Aytmatovun adı bundan sonra da xalqları birləşdirəcək, mədəni tərəqqi və humanizm rəmzi olacaqdır.

Dərin hörmət və qürur hissi ilə Sizə müasir dünyada və ümumi mədəni irsimizin qorunub saxlanılmasında oynadığınız rola verilən yüksək qiymətin əlaməti olan «Çingiz Aytmatov» ordenini təqdim edirəm.

**İlham Əliyev:** Sağ olun.

*Dövlətimizin başçısına «Çingiz Aytmatov» ordeni təqdim edildi.*

**Eldar Aytmatov:** Qeyd etmək istəyirəm ki, bu 1 nömrəli orden Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim olunur və həmçinin ilk dəfə

Azərbaycanın 1 nömrəli «Dostluq» ordeni Azərbaycan Prezidenti tərəfindən Çingiz Aytmatova təqdim edilmişdi. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Bu yüksək mükafata görə çox sağ olun. Fəaliyyətimə verilən bu qiymətə görə Çingiz Aytmatov Fonduna, həmçinin onun ailə üzvlərinə və yaxınlarına minnətdarlığımı bildirmək istəyirəm. Həm də bu ordeni onun yaşadığı, işlədiyi, yazıb-yaratdığı, ruhunun indi də dolaşdığı evdə almaq mənim üçün böyük şərəfdir. Mən buraya gələrkən təbii ki, Çingiz Torekuloviçin evinin necə olması barədə fikirləşirdim və burada məhz rahat, isti, yaxşı, yaxınlarının, əzizlərinin əhatəsində olduğu, yaşadığı, işlədiyi və böyük sənət yaratdığı evi gördüm. Onun yaradıcılığı bütün dünyaya məxsusdur. Qeyd etdiyiniz kimi, onun kitabları 185 dilə, demək olar ki, bütün dillərə tərcümə olunub. Bu gün sizdən öyrəndim ki, onun kitablarının yenidən, xüsusən yeni tərcümədə nəşrinə tələbatın olması onu göstərir ki, Çingiz Aytmatovun həyata, insanlara, təbiətə, öz xalqına münasibətdə sözünə, fikirlərinə ehtiyac vardır. Sözsüz ki, onun yaradıcılığı bütün mümkün sədləri ötüb keçib və əbədi olaraq oxucuları sevindirəcək, düşünməyə, yəqin ki, bir çox məsələləri yenidən başa düşməyə sövq edəcəkdir. Çünki onun yaradıcılığını çox sevən və bir çox əsərlərini oxuyan insan kimi, deyə bilərəm ki, məhz onlar səni düşünməyə, hətta cəmiyyətə, dünyaya, təbiətə, öz fəaliyyətinə yenidən nəzər salmağa vadar edir. Atam Heydər Əliyevin dediyi kimi, Çingiz Aytmatov təkcə qırğız xalqının deyil, həm də bütün Türk Dünyasının fəxridir. Artıq dediyim kimi, o, dünya şöhrətli yazıçı, icti-

mai xadim idi və onun əsərləri müxtəlif mədəniyyətlərə məxsus, müxtəlif qitələrdən olan insanlar tərəfindən başa düşülürdü. Amma eyni zamanda, onun əsərlərini oxuduqda görürsən ki, Çingiz Aytmatov məhz öz ölkəsinin, öz xalqının problemlərinə dərindən nüfuz edir, Qırğızıstanı gözəl tanıyır, öz xalqını sevir və öz xalqının nümayəndələrini təsvir edirdi. O, sırf milli yazıçı idi, eyni zamanda, bütün dünya tərəfindən başa düşülürdü. Zənnimcə, onun mütəfəkkir kimi nadirliyinin sirri də bundadır.

Çingiz Aytmatova Azərbaycanda olan münasibətə gəldikdə, düşünürəm ki, bu barədə danışmağıma ehtiyac yoxdur. Onu bir insan kimi sevirdilər, onun çoxlu dostu var idi, bir sıra fotoşəkillər onun Azərbaycanın mədəniyyət xadimləri ilə görüşlərini əks etdirir. Həmçinin Heydər Əliyev və Çingiz Aytmatov bir-birinə böyük hörmətlə yanaşırdılar, onların çoxlu görüşləri olmuşdur və mənim atamdan gətirdiyim sitat məhz onun Çingiz Torekuloviçə bəslədiyi hisslərin təzahürüdür.

Bizim görüşümüzü xatırlayıram, yeri gəlmişkən, 2008-ci ildə görüşümüzü əks etdirən fotoşəkil digərləri ilə birlikdə burada nümayiş etdirilir. Siz də qeyd etdiniz ki, ilk «Dostluq» ordeni Çingiz Aytmatova təqdim olunmuşdur. Həmin vaxt bu orden mənim tərəfimdən, mənim təşəbbüsümlə yenicə təsis olunmuşdu. Açığını desək, düşünürdüm ki, hər halda, rəqəmlərdə bir rəmzilik var, fikirləşirdim ki, bu 1 nömrəli ordeni kimə təqdim edək. Sözsüz ki, ilk ağlıma gələn o oldu ki, onu Türk Dünyasının hər hansı bir nümayəndəsinə verək. Sonradan sanki fikirlər ard-arda gəldi və qə-

rar verildi. Bəlkə də bədahətən oldu, amma digər tərəfdən, bədahətən verilən bütün qərarlar sənin tərəfindən əvvəlki dövrdə dərindən düşünülmüş olur. Ona görə də bu tamamilə şüurlu, yeganə düzgün qərar idi. O da bizim üçün xüsusi qürur mənbəyidir ki, 1 nömrəli «Dostluq» ordeni Çingiz Torekuloviçə təqdim edilib. Mən bu il Bakıda onun abidəsinin açılışı mərasimində çıxış etdim. Çingiz Aytmatovun heykəli mərkəzi küçələrdən birində ucaldılıb. Mən dedim ki, onun tezliklə aramızda olmayacağını güman etmirdik. Çünki o, Bakıya yaxşı əhvali-ruhiyyədə gəlmişdi, biz onunla çoxlu söhbət etdik, o, gələcək planlarından danışırdı, çox yaxşı görünürdü, mən buna ürəkdən sevindim. Amma bir neçə aydan sonra o, vəfat etdi. Bu, kədər hissi doğurur, çünki o hələ yaşaya, öz yaxınlarını sevindirə, onları qayğısı və şəfqəti ilə əhatə edə, həmçinin məhz bu gün aktual olan xeyli sayda əsər yarada bilərdi. Çünki onun bu dünyadan köçdüyü vaxtdan bəri həm bizim regionumuzda, həm də dünyada çoxlu hadisələr baş verib, zənnimcə, onun sözü çox mühüm olardı, təkcə bizim regionumuz üçün deyil, həm də ümumilikdə dünya siyasəti üçün. Çünki o, yaradıcılıq fəaliyyəti ilə yanaşı, həmçinin çox nüfuzlu ictimai xadim idi.

Məni Çingiz Torekuloviçin ocağına dəvət etdiyiniz, bu mükafata layiq gördüyünüz üçün sizə bir daha təşəkkür etmək istəyirəm. Sizi yaxın vaxtlarda Bakıya dəvət etmək, ailənizlə, Çingiz Torekuloviçin balaca davamçıları ilə birlikdə qonağımız olmağınızı istəyirəm. Onun abidəsini ziyarət etsinlər və onu tanıyanlarla, sevənlərlə ünsiyyətdə olsunlar. Bir daha təşəkkür edirəm.

**Eldar Aytmatov:** Çox sağ olun.

*Daha sonra Prezident İlham Əliyev və Çingiz Aytmatovun ailə üzvləri birgə çay süfrəsi arxasında söhbət etdilər.*

*Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olundu.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*Bişkek*

*5 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak etmişdir.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Bişkek*

*6 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 6-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.*

*Görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olundu.*

*Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşünün türk dövlətləri arasında əməkdaşlığın güclənməsi işinə xidmət etdiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti bir daha qeyd edildi.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI DÖVLƏT BAŞÇILARININ 11-ci ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Bişkek*

*6 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmişdir.*

*Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Daha sonra Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının iclası keçirildi.*

*Qırğız Respublikasının Prezidenti Sadır Japarov Zirvə görüşünün işinə uğurlar arzuladı və yaxın günlərdə Azərbaycanda keçiriləcək COP29 konfransına diqqət çəkərək bildirdi ki, tezliklə Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a Azərbaycan Prezidenti ev sahibliyi edəcək. O, Azərbaycan hökumətinə bu mövzu ilə bağlı hər cür dəstək göstərməyə hazır olduqlarını diqqətə çatdırdı.*

*Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatının türk xalqlarını daha da yaxınlaşdırdığını bildirdi. Kasım-Jomart Tokayev ortaq türk əlifbasının yaradılması, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini vurğuladı.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Sadır Nurqojoyeviç!

Hörmətli dövlət və hökumət başçıları!

İlk növbədə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür edirəm.

Bu mənim son 2 ildə Qırğız Respublikasına 3-cü səfərimdir. Hər səfərimdə Sadır Nurqojoyeviçin rəhbərliyi ilə ölkədə inkişafın şahidi oluram. Əldə edilmiş bütün uğurlar münasibətilə qardaş Qırğızıstanı təbrik edirəm.

Həmçinin Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyinə görə Qazaxıstanı təbrik edirəm.

Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir.

Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyil. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Hazırda dünyada artan təhlükələri nəzərə alaraq, müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib.

Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir.

Son dövrlər Şərq–Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar–sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

Hazırda «Orta Dəhliz»in rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəli-

liyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.

Ötən ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ermənistan 30 il davam edən işğal dövründə bu ərazilərdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunmuş ərazilərdə indi genişmiqyaslı yenidən qurulma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük Qayıdış Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər.

Fürsətdən istifadə edərək, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür. Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

*Qırğız dövlətinin başçısı Sadır Japarov çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

* * *

*Çıxış edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda yaranmış sabit-*

*liyin pozulmaması üçün Ermənistanla Azərbaycan arasında sülh razılaşması istiqamətində danışıqların davam etdirilməsinin vacibliyinə toxundu. Türkiyə Prezidenti vurğuladı ki, Cənubi Qafqazda mövcud olmuş 30 illik münaqişə və qeyri-sabitlikdən sonra sülh və əmin-amanlığa gedən yolun qapıları açılmışdır. O, Azərbaycanın Vətən müharibəsində döyüş meydanında şəhidlər verərək əldə etdiyi tarixi uğurların ən yaxın zamanda sülh müqaviləsinin imzalanması ilə masada da əksini tapmasını ümid və arzu etdiyini bildirdi.*

*Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxışında Bakıda keçiriləcək COP29-la bağlı təbriklərini çatdıraraq, COP29 konfransının başlanması münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi bir daha səmimi-qəlbdən təbrik etdi, ona böyük uğurlar arzuladı.*

*Macarıstanın Baş Naziri Viktor Orban çıxışında Azərbaycanın və Türkiyənin ölkəsinin enerji təhlükəsizliyinə töhfə verdiklərini vurğulayaraq, bu ölkələrin rəhbərliyinə təşəkkürünü bildirdi.*

*Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətində görülən işlərdən danışdı və TDT qarşısında duran yeni hədəflərə diqqət çəkdi. Qeyd etdi ki, hazırda təşkilata üzv ölkələr arasında həyata keçirilən layihələrdə müasir texnologiyalardan istifadə, süni intellektin tətbiqi, təhlükəsizlik məsələləri, elektron ticarətin təşkili və reallaşdırılması prioritet istiqamətlərdir.*

*Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar dili və kökü bir olan türk xalqlarının daha da*

*yaxınlaşması, ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, tarixi İpək yolunun yenidən canlanması, təhsil sahəsində yeni əməkdaşlıqların yaradılması, strateji layihələrin həyata keçirilməsi istiqamətində Türk Dövlətləri Təşkilatının rolunu xüsusi vurğuladı.*

*Sonda sənədlər imzalandı.*

## MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBANIN TÜRK DÜNYASININ ALİ ORDENİ İLƏ TƏLTİF OLUNMASI MƏRASİMİNDƏ İŞTİRAK

*Bişkek*

*6 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Macarıstanın Baş Naziri Viktor Orbanın Türk Dünyasının Ali Ordeni ilə təltif olunması mərasimində iştirak etmişdir.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri noyabrın 6-da başa çatdı.*

*Bişkek şəhərinin «Manas-2» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin Sədri – Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər yola saldılar.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

Hörmətli cənab Tramp!

Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə qazandığınız inamlı qələbə dost Amerika xalqının şəxsən Sizə, yürütdüyünüz siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir.

Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.

Siz birinci prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız. Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim. Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliy-

yətimizin böyük potensialından yararlanaraq, ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, «yaşıl» və rəqəmsal keçid, eləcə də digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır.

Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

Əminəm ki, Azərbaycan–ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bir daha Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Amerika xalqının rifahı naminə qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2024-cü il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LIONQ KIONQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Xoş ənənələrə əsaslanan Azərbaycan–Vyetnam əlaqələri uğurla inkişaf etməkdədir. Dövlətlərarası münasibətlərimizin və əməkdaşlığımızın bugünkü səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli qaydada möhkəmlənməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2024-cü il*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ XANIM MAYA SANDUYA

Hörmətli xanım Prezident!

Moldova Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Moldova münasibətlərinin və əməkdaşlığının bugünkü inkişaf dinamikası məmnunluq doğurur. Biz qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

Əminəm ki, xalqlarımızın rifahı naminə Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq münasibətlərinin daha da genişləndirilməsi, bir sıra sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın konstruktivlik zəminində bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Moldova xalqının firavanlığı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2024-cü il*

## BÖYÜKŞOR–PİRŞAĞI YENİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*7 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Böyükşor–Pirşağı yeni avtomobil yolunun açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Böyükşor–Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə, Digah və Məmmədli qəsəbələrindən keçərək, Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.*

*Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq bu yol 1b texniki dərəcəyə uyğun olaraq, ən müasir tələblər səviyyəsində inşa edilib və 6 hərəkət zolağından ibarətdir.*

*Layihəyə əsasən, yolboyu 6 yol ötürücüsü və bir avtomobil keçidi inşa edilib. Bundan başqa, yolboyu 3 yerdə «U» tipli geri dönüş keçidi yaradılıb.*

*Həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Yeni avtomobil yolunun hər iki istiqaməti üzrə velosiped zolaqları salınıb, yolboyu müasir işıqlandırma sistemi quraşdırılıb. Layihəyə uy-*

*ğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb. Bundan başqa, müasir tələblər nəzərə alınaraq, yolun 3-cü kilometrində elektrik avtomobilləri üçün enerjidoldurma qurğuları quraşdırılıb.*

*Azərbaycan Prezidentinin sərəncamına əsasən, Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla, Böyükşor–Pirşağı avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunub.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial yönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son illərdə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.*

## BAKIDA MƏRKƏZİ PARKIN ÜÇÜNCÜ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*7 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Bakıda Mərkəzi parkın üçüncü hissəsinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına paytaxtın Yasamal rayonu ərazisində yerləşən parkda görülmüş işlər barədə məlumat verildi.*

*Mərkəzi parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Parkın ikinci hissəsinin açılışı isə 2022-ci il dekabrın 30-da Prezident İlham Əliyevin iştirakı ilə edilib.*

*Bildirildi ki, növbəti mərhələdə Mərkəzi parkın üçüncü hissəsinin 9 hektar ərazisi tam abadlaşdırılıb, burada ən müasir tələblərə uyğun yeni istirahət zonası yaradılıb. Parkın yeni hissəsinin ümumi ərazisi illərdir yığılıb qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib və müvafiq aqrotexniki tədbirlər görülübdür.*

*Ümumilikdə parkın bu hissəsinin 7,4 hektarında 19 növdə 3500 ağac, 25 mindən çox gül və kol bitkiləri əkilib. Burada yaşıllaşdırmanın daha səmərəli olması üçün əraziyə 60 min kubmetrə yaxın münbit torpaq tökülüb, müasir suvarma sistemi qurulubdur.*

*Mərkəzi parkın yaşıllaşdırma konsepsiyasının əsas xüsusiyyəti bu istirahət məkanının ilin fəsillərini özündə*

*əks etdirməsidir. Layihənin ən mühüm xüsusiyyətlərindən biri piyadaların Abdulla Şaiq küçəsinin hərəkət hissəsindən keçmədən maneəsiz gediş-gəlişi üçün yeraltı tunelin inşa edilməsidir. Onun inşası ilə Mərkəzi parkın 1-ci, 2-ci və 3-cü hissələri arasında tam bağlantı yaradılıb. Ərazidə 3 fəvvarə kompleksi inşa edilib, idman qurğuları quraşdırılıb, uşaq əyləncə, həmçinin futbol və basketbol meydançaları, yaşlı insanların asudə vaxtlarının səmərəli təşkili üçün şahmat və stolüstü oyun meydançaları salınıb. Burada, həmçinin süni göl və ətrafında söhbətgahlar yaradılıb ki, bu da şəhərimizin qonaqlarının və sakinlərin istirahətlərini daha maraqlı etmək üçün mühüm rol oynayır.*

*İstirahət parkında müasir işıqlandırma sistemi də qurulub. Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu–XX əsrin əvvəllərində inşa edilmiş və yerli sakinlər arasında «Təndir hamamı» kimi tanınan tarixi-memarlıq abidəsi bərpa edilərək əvvəlki simasına qaytarılıb. Parkın ətrafındakı tarixi və digər yaşayış binaları əsaslı təmir olunub, Süleyman Tağızadə və Nabat Aşurbəyova küçələrinə yeni asfalt örtüyü döşənib, piyada səkiləri və parklanma yerləri yaradılıb, işıq dirəkləri quraşdırılıb və digər işlər görülübdür.*

*Ümumilikdə Mərkəzi parkın üçüncü mərhələsinin tikintisi yekunlaşdıqdan, ərazidə yeni yaşıllaşdırma və abadlıq işləri görüldükdən sonra Təzəpir məscidi kompleksinin və Süleyman Tağızadə küçəsində yerləşən İmam Hüseyn məscidinin mənzərəsi tam olaraq açılıbdır.*

*Beləliklə, Mərkəzi parkın üçüncü hissəsinin istifadəyə verilməsi ilə keçmiş «Sovetski» adlanan ərazidə salınmış parkın ümumi sahəsi 35,4 hektara çatdırılıb və*

*bura paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilibdir.*

*Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi son illərdə daha da artıb. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən abadlıq-quruculuq işlərinin davamlı xarakter aldığını nümayiş etdirir. Mərkəzi parkın yeni istifadəyə verilən üçüncü hissəsi paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*7 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.*

*Fotonun üzərində:* «8 Noyabr – Zəfər Günü» *sözləri yazılıb.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*8 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şuşanın Ermənistan işğalından azad edilməsinin 4-cü ildönümü ilə bağlı paylaşım edib.*

*Paylaşımda:* «Zəfər tariximiz – Şuşanın Ermənistan işğalından azad edilməsindən 4 il ötür» *sözləri yazılıb.*

## BAKIDA ZƏFƏR PARKININ AÇILIŞI MƏRASİMİNDƏN AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*8 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev noyabrın 8-də Bakıda Zəfər parkının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Dövlət bayrağını ucaltdı.*

*Sonra parkdakı Zəfər abidəsinin önünə əklil və gül dəstələri qoyuldu.*

*Daha sonra dövlətimizin başçısı Azərbaycan xalqına müraciət etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin müraciəti

Əziz həmvətənlər!

Bu gün Azərbaycan Zəfər bayramını qeyd edir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm.

Hər birimiz üçün əziz bir gündə Vətən uğrunda öz canlarından keçmiş qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Biz şəhidlərimizin qisasını, qanını döyüş meydanında aldıq. 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, parlaq Qələbəmizdir. Biz həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin, eləcə də antiterror əməliyyatı şəhidlərinin qanını döyüş meydanında aldıq, öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdik.

44 gün ərzində Azərbaycan Silahlı Qüvvələri ancaq və ancaq irəli gedirdi. Hər gün, hər saat irəli gedərək döyüş meydanında 300-dən çox şəhər və kəndimizi işğalçılardan azad etdik və düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. 44 gün ərzində şəhərlərimizin, kəndlərimizin azad edilməsi ordumuzun gücünü, hərbçilərimizin peşəkarlığını, fədakarlığını, xalqımızın əzmini bütün dünyaya nümayiş etdirdi. Torpaqlarımız 30 il ərzində işğal altında olsa da, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi bu işğalla heç vaxt barışmırdı. Baxmayaraq ki, Ermənistanın arxasında duran bir çox dövlətlər bizim bu işğalla barışmağımız üçün müxtəlif üsullardan istifadə edirdi. Azərbaycan xalqı yaxşı xatırlayır, böyük dövlətlər, bu məsələni – Ermənistan–Azərbaycan münaqişəsini guya həll etməyə çalışan vasitəçilər dəfələrlə bəyan edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Nəyi demək istəyirdilər Azərbaycan xalqına? Onu demək istəyirdilər ki, biz bu işğalla barışaq. Çünki onların planlarında məhz bu idi. Onların planlarında məsələni həll etmək yox, işğala son qoymaq yox, Azərbaycan torpaqlarını erməni işğalının altında əbədi saxlamaq idi. Biz bunu görürdük, bilirdik. İllər keçdikcə, hər bir danışıqlar dövrü uğursuzluqla ba-

şa çatdıqca həm Azərbaycan rəhbərliyi, həm Azərbaycan xalqı bunu əyani şəkildə görürdü. Biz isə bu vəziyyətlə barışa bilməzdik. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa olsun biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi danışıqlar mövzusu olmayacaq və həyat bunu göstərdi.

Biz hazırlaşırdıq, güclü ordu yaradırdıq, iqtisadi inkişafı təmin edirdik, çünki Ermənistandan fərqli olaraq, heç bir kənar yerdən yardım almırdıq, ancaq öz gücümüzə güvənirdik. İqtisadi inkişaf, siyasi çəkimizin böyük olması, sözümüzü beynəlxalq tribunalarda qətiyyətlə deməyimiz, xalq–iqtidar birliyi, gənc nəslin yetişdirilməsi, cəmiyyətdə vətənpərvərlik ruhunun bərqərar olması – bu amillər bizi Qələbəyə doğru aparırdı. Bütün bu amillərin cəmləşməsi bu Qələbəni mümkün etmişdir. Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərdi. Biz düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Həmin düşmən hələ 2019-cu ildə Xankəndidə «Qarabağ Ermənistandır və nöqtə» demişdi. Biz onu məcbur etdik ki, bu gün «Qarabağ Azərbaycandır» deyir və bundan sonra da deyəcək, öz xoşu ilə yox. İndi Ermənistanın bəzi Qərb havadarları Ermənistandan «sülh göyərçini» düzəltmək istəyirlər. Sanki bu 30 illik işğal olmayıb,

dağıntılar olmayıb, vəhşilik olmayıb, Xocalı soyqırımı olmayıb. Məscidlərimizin, qəbirlərimizin dağıdılması, bütün Qarabağın, Şərqi Zəngəzurun viran edilməsi sanki olmayıb. Bunu dünya ictimaiyyətinə unutdurmaq istəyirlər. Amma biz heç vaxt bunu unutmayacağıq və Azərbaycan xalqı heç vaxt bunu unutmamalıdır, bizdən sonra gələn nəsillər bu tarixi bilməlidirlər və heç vaxt unutmamalıdırlar. Necə ki, biz Qarabağı 30 il ərzində unutmamışdıq, necə ki, 30 il ərzində xalqımız bir nöqtəyə vuraraq bu Qələbəni yaxınlaşdırırdı. Bundan sonra da bu tarixi yaddaş heç vaxt yadımızdan çıxmamalıdır.

Müharibə dövründə Ermənistan hərbi cinayətlər törətmişdir, dinc şəhərlərimizi bombalayırdı, «İsgəndər M», «Toçka U», «Elbrus» və digər dağıdıcı silahlarla hər gün şəhər və kəndlərimiz artilleriya atəşi altında idi. Amma bu, Azərbaycan xalqının iradəsinə bir zərrə də təsir etmədi. Əksinə, dağıntılardan öz yaxınlarının meyitlərini çıxaran bizim soydaşlarımız bir amalla yaşayırdılar ki, təki müharibə dayanmasın. Biz müharibəni vaxtında dayandırdıq və mən müharibənin ilk günündə demişdim ki, düşmən torpaqlarımızdan çıxmaq cədvəlini bizə verməlidir – nə vaxt hansı bölgədən çıxır, ondan sonra biz müharibəni dayandıracağıq. Ancaq bəzi insanlar – bu təbiidir – hesab edirdilər ki, Azərbaycan rəhbərliyi bu beynəlxalq ermənipərəst qüvvələrin təzyiqinə davam gətirməyə bilər və xalqımız narahat idi ki, işimiz yarımçıq qalar. Bu təbiidir, çünki Azərbaycan o qədər də böyük dövlət deyil. Minsk qrupunun bütün həmsədrləri 30 il ərzində Ermənistanın arxasında dayanmışdılar, biri pul-

suz silah verirdi, biri pul verirdi, biri həm silah, həm pul verirdi, siyasi dəstək verirdi, bir məqsədlə ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlasınlar. Ona görə, təbii olaraq, Azərbaycan vətəndaşlarının bəziləri narahat idilər ki, müharibə yarımçıq qalacaq, biz öz istədiyimizə nail ola bilməyəcəyik, bizi kimsə dayandıracaq. Amma mən dedim, yox, heç kim bizi dayandıra bilməz, öldü var, döndü yoxdur. Sona qədər vuruşacağıq, ədaləti bərpa edəcəyik, beynəlxalq hüququ bərpa edəcəyik və Ermənistana onun yerini göstərəcəyik.

2020-ci il noyabrın 8-də tarixi Şuşa əməliyyatı, demək olar ki, düşmənin belini qırmışdır. Ondan sonra cəmi bir gün keçdi və noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu və biz müharibəni dayandırdıq.

Bugünkü reallıq, bugünkü uğurlarımız onu göstərir ki, o, yeganə düzgün addım idi. Biz bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etdik. Ondan sonra aparılan məqsədyönlü və düşünülmüş siyasət, qətiyyətli addımlar nəticəsində biz həm siyasi, həm strateji və hərbi-strateji mövqelərimizi xeyli gücləndirdik, vacib olan yüksəkliklərə nəzarətimiz təmin olundu. Daha sonra bir qrup separatçının, Qarabağda və Ermənistanda onların arxasında duranların aqibəti bəlli idi – ya Azərbaycan qanunlarına tabe olacaqlar, ya təslim olacaqlar, ya da məhv olacaqlar. Biz onlara seçim verdik, amma yenə də düzgün qərar qəbul etmədilər. Yenə də hesab edirdilər ki, kimsə onlara kömək edəcək, kimsə Azərbaycanı öz haqq işindən çəkindirəcək. 2023-cü ilin sentyabrında keçirilmiş

cəmi bir neçə saat davam edən antiterror əməliyyatı onlara növbəti bir dərs oldu və bununla da separatçılığın kökü kəsildi, kitabı bağlandı. İndi Qarabağ torpağında separatçıların izi-tozu da qalmayıb.

Bütün bu şanlı tarixi Azərbaycan xalqı öz qanı ilə, öz gücü ilə yazmışdır. Biz həm Vətən müharibəsi dövründə, həm ondan sonrakı dövr ərzində, antiterror əməliyyatı zamanı və ondan sonra düşməni məcbur etdik ki, Qazax rayonunun keçən əsrin 90-cı illərinin əvvəllərində işğal etdiyi 4 kəndini bizə qaytarsın, bu öz xoşu ilə olmayıb. Bəli, heç bir güc tətbiq edilməmişdir, ancaq ona ehtiyac da qalmamışdı. İkinci Qarabağ müharibəsinin, antiterror əməliyyatının nəticələri, hesab edirəm ki, Ermənistanın bu günə qədər düzgün addımlar atması üçün kifayətdir. Ancaq bir məsələ var – biz unutmamalıyıq ki, bu gün bu vəziyyətlə barışmaq istəməyən antiazərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər və mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlanma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır, mən dəfələrlə bunu demişəm və onlar bilirlər ki, mənim sözümə diqqət yetirmək lazımdır.

Hələ ki, gec deyil, bundan əl çəksinlər, onlar heç vaxt bizimlə rəqabət aparmaq gücündə olmayacaqlar. Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq, ərazi bütövlüyümüzü təmin etdik, dövlət suverenliyimizi təmin etdik. Bütün sərhədlərdə ərazi bütövlüyü təmin edilir və keçmiş məcburi köçkünlər, qaçqınlar öz dədə-baba torpaqlarına qayıdırlar.

Biz indi quruculuq işləri ilə məşğuluq. Bizim üçün əsas məsələ budur. Amma görəndə ki, Ermənistan və onun arxasında duran, Azərbaycana düşmən gözü ilə baxan, bizə soyuq müharibə elan edən qüvvələr Ermənistanı silahlandırır, Ermənistan silahlanır, biz adekvat addım atmağa məcburuq. Otuzillik işğal tarixi bizim yaddaşımızdan silinmir və bayaq dediyim kimi, heç vaxt silinməməlidir. Biz hər an yeni təxribata hazır olmalıyıq və hazırıq. Azərbaycan Silahlı Qüvvələri hər an təxribatı dəf etmək üçün hazır vəziyyətdədir. Əgər kimsə yenidən bizim gücümüzü sınamaq istəyirsə, yenidən məğlub olacaq, yenidən biabır olacaq. Çünki 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı, bizim Zəfərimiz təkcə Ermənistanın məğlubiyyəti deyil, onların arxasında duranların acı və alçaldıcı məğlubiyyətidir. Onu bizə bağışlaya bilmirlər. Ona görə Qərbdə Azərbaycana qarşı geniş, çirkin kampaniya aparılır. Ölkəmizi gözdən salmaq, olmazın iftiralar uydurmaq, öz əlinin altındakı saxta xəbər mənbəyi olan media resurslarından, qeyri-hökumət təşkilatlarından istifadə edərək, Azərbaycanı qaralamaq, şantaj etmək, ləkələmək, təhqir etmək, bax, o özünü alçaldılmış sayan Qərb dövlətlərinin və uğursuz Qərb liderlərinin məqsədidir və onların çirkin üsuludur. Azərbaycan

xalqı bunu bilir və Ermənistan xalqı da bunu bilməlidir: kimdir onların əsas düşməni? Biz deyilik. Biz onlara heç bir pislik etməmişdik. Biz onlara çörək vermişdik. Onlar bizim torpağımızda yaşayıb, özləri üçün həyat qurmuşdular. Baxmayaraq ki, ancaq XIX əsrdə onlar buraya göndərilmişdilər. Biz nə pislik etmişdik? Onlar bizə qarşı soyqırımı törətdilər – Xocalı soyqırımı. 30 il ərzində bütün şəhər və kəndlərimizi dağıtdılar, məscidlərimizi təhqir etdilər, sökdülər. Bütün o bölgəni minalayıblar. 300-dən çox insan artıq minaların qurbanı olub Azərbaycanda. Biz onların düşməni deyilik, onların düşməni onların arxasında duran, sonra isə onların arxasından dovşan kimi, siçan kimi qaçan siyasətçilərdir. Mənim sözlərimə yaxşı qulaq assınlar.

Biz isə bundan sonra da güclənəcəyik. Heç bir təzyiq, heç bir hədə-qorxu bizə bu günə qədər təsir etməyib. Bundan sonra da təsir etməyəcək. Xalq–iqtidar birliyi gücümüzün əsas mənbəyidir. İnkişafda olan Azərbaycan qürur mənbəyimizdir, şanlı Qələbəmiz isə bizim tarixi nailiyyətimizdir, tarixi zəfərimizdir.

Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər Muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər Muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq Zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb. Şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı yerləşir. Həm müasir üslubda inşa edilib, həm çox əzəmətlidir. Hündürlüyü də 44 metrdir, sütunlarının da sayı 44-dür. Bu parkda

və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər vardır. Bu rəmzlər bizimlə əbədi olacaq. Bu Qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

* * *

*Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.*

*Ötən il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva inşası davam etdirilən Zəfər parkında görülən işlərlə tanış olmuşdular. Bu il iyulun 24-də isə dövlət başçısı yenidən Zəfər parkında olmuş və burada aparılan tikinti işlərinin gedişi ilə yaxından maraqlanmışdı.*

*Paytaxtın 8 Noyabr prospektində inşa olunmuş Zəfər parkının ərazisi 10 hektara yaxındır. Parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi, hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.*

*Parka keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılıb. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirir. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınıb. Torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə parkın ərazisində Zəfər Muzeyi də yaradılır. Qurulmaqda olan Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Muzeydə Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini nümayiş etdirəcək.*

*Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılıb. Yaddaş bağçasının ətrafında istirahət guşələri salınıb. Parkın sonunda Azadlıq Bayrağı Meydanı inşa olunubdur.*

## DÖVLƏT BAYRAĞI MEYDANINDA ÜÇRƏNGLİ BAYRAĞIN UCALDILMASI MƏRASİMİ

*8 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev noyabrın 8-də Bakıda Dövlət Bayrağı Meydanında olmuşlar.*

*Dövlətimizin başçısı meydanda Azərbaycanın üçrəngli bayrağını ucaltdı.*

*Sonra Prezident İlham Əliyev meydanda və Dövlət Bayrağı Muzeyində yaradılmış şəraitlə tanış oldu.*

*Dövlət Bayrağı Muzeyi Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən 2010-cu il noyabrın 9-da açılıb. Muzey fəaliyyəti dövründə Azərbaycanın Dövlət bayrağı ilə yanaşı, ölkəmizdə müxtəlif dövrlərdə mövcud olan xanlıqların, dövlətlərin bayraqları əyani nümayiş etdirilib və gələn qonaqlara ətraflı məlumatlar verilib. Bundan başqa, muzeydə Azərbaycanın qədim və zəngin dövlətçilik tarixini əks etdirən 400 eksponat sərgilənib. Muzeyə gələn qonaqlara hər bir tarixi nümunə haqqında təfsilatlı məlumatlar verilib.*

*2017-ci ildə Dövlət Bayrağı Meydanında aparılan yenidən qurulma və bərpa işləri ilə əlaqədar Dövlət Bayrağı Muzeyi də təmirə bağlanıb. Təmir-bərpa işlə-*

*rinin aparıldığı illər ərzində muzeyin əməkdaşları eksponatların qorunması, saxlanılması, daha da zənginləşdirilməsi istiqamətində işlər görüb, eksponat sayını 431-ə çatdırıblar.*

*Təmir-bərpa işlərindən sonra yeni görkəmdə və tərtibatda fəaliyyətə başlayan Dövlət Bayrağı Muzeyində 44 günlük Vətən müharibəsinə həsr olunmuş «Zəfər qalereyası» adlı ekspozisiya nümayiş olunur. Qalereyada Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Dövlət bayrağının ucaldılması və Xankəndi şəhərində Vətən müharibəsindəki Qələbənin 3-cü ildönümü ilə bağlı hərbi paradın fotoları sərgilənir.*

*Muzey 6 sərgi salonundan ibarətdir.*

*A sərgi salonunda ölkəmizin qədim və orta əsrlər dövrünə aid bayraqlar, bayraq ucluqları, hakimiyyət rəmzləri, sikkələr, silahlar və XIX əsr Azərbaycan şəhərlərinin gerbləri nümayiş olunur.*

*B sərgi salonu Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünü əhatə edir. Burada Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində 1918-ci il dekabrın 7-də asılan Dövlət bayrağı, həmin dövrə aid fotoşəkillər, pul əsginasları, poçt markaları, eləcə də keçmiş Azərbaycan SSR-in bayraqları, gerbləri, müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, pul əsginasları və poçt markaları təqdim edilir.*

*C sərgi salonundakı eksponatlar isə müstəqillik dövrünü əhatə edir. Burada ümummilli lider Heydər Əliyevə həsr edilmiş xatirə medalları və poçt markaları, Azərbaycan Prezidentinin ştandartı, dövlətimizin orden və medalları, Azərbaycan Konstitusiyası,*

*eləcə də Vətən müharibəsinə həsr edilmiş orden və medallar, dünyanın ən hündür zirvələrinə sancılmış Dövlət bayrağı nümayiş etdirilir. Salonda Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında» 2007-ci il 17 noyabr tarixli və «Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında» 2009-cu il 17 noyabr tarixli sərəncamlar, ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli Qərarından ibarət stend yerləşdirilibdir.*

*Azərbaycan Silahlı Qüvvələrinin bayraqları, medalları, emblem və şevronları isə muzeyin D salonunda sərgilənir.*

*E və F salonlarında Azərbaycanın hərbi qulluqçularının mərasim geyim formaları nümayiş olunur.*

*Bundan əlavə, Dövlət Bayrağı Muzeyindəki monitorlarda ölkəmizin qədim və orta əsrlər, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrünə, ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki xidmətlərinə, Prezident İlham Əliyevin ordu quruculuğuna və Ali Baş Komandanlığı ilə Vətən müharibəsindəki tarixi Qələbəyə həsr edilmiş videolar nümayiş olunur.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANDAN

*8 noyabr 2024-cü il*

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!

Cənab Prezident, əziz qardaşım!

Qədim Azərbaycan torpaqlarının işğalına son qoyan Zəfər Gününün 4-cü ildönümü münasibətilə xalqım adından və şəxsən öz adımdan zati-aliniz başda olmaqla, bütün azərbaycanlı qardaş və bacılarıma ən səmimi təbriklərimi çatdırıram.

Ali Baş Komandanlığınızla qazanılmış bu Zəfər Azərbaycanla birlikdə bütün Türk Dünyası üçün qürur və ilham mənbəyi olmuşdur. Ötən il Qarabağda uğurla həyata keçirdiyiniz antiterror əməliyyatı ilə tam nəzarəti təmin etdiyiniz bu qədim torpaqlarda 30 ildən sonra ilk dəfə bu il parlament seçkilərinin keçirilməsi də bizi sevindirmişdir.

Şuşa Bəyannaməsi ilə taclanan, «Bir millət – iki dövlət» şüarı ilə təcəssüm olunan sarsılmaz dostluq və qardaşlıq tellərimizdən aldığımız güclə işğaldan azad edilmiş bölgələrin bərpa və yenidən qurulma işlərinə hər cür dəstəyi verməyə hazır olduğumuzu ifadə etmək istəyirəm. Regionumuzda davamlı sülhün, əmin-amanlığın və sabitliyin təmin edilməsi üçün iki-

tərəfli səviyyədə və beynəlxalq platformalarda sıx əməkdaşlığı, həmrəyliyi və koordinasiyamızı davam etdirəcəyimizə ürəkdən inanıram.

Azadlıq uğrunda şəhid olan qardaşlarıma uca Allahdan rəhmət diləyir, əziz xatirələrini ehtiramla yad edirəm. Qazilərimizə də minnətdarlığımı ifadə edirəm.

Əziz qardaşım, fürsətdən istifadə edərək, zati-alinizin cansağlığı və xoşbəxtliyi ilə can Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı bir daha bildirirəm.

Zəfəriniz mübarək və əbədi olsun!

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVDƏN

*8 noyabr 2024-cü il*

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!

Cənab Prezident, əziz qardaşım!

Sizi və Sizin vasitənizlə qardaş Azərbaycan xalqını şanlı bayramınız – Zəfər Günü münasibətilə ürəkdən təbrik etməkdən böyük məmnunluq duyuram.

4 il əvvəl öz xalqının Sizin kimi sadiq oğlu, dahi, vətənpərvər, mahir siyasi xadim və görkəmli şəxsiyyətin rəhbərliyi ilə ölkənizin ərazi bütövlüyü tamamilə bərpa edildi və ədalət bərqərar oldu.

Azərbaycanın azad edilmiş şəhər və kəndlərində bu gün genişmiqyaslı bərpa işləri aparılır, müasir infrastruktur obyektləri və mədəni irs məkanları yenidən qurulur, keçmiş məcburi köçkün vətəndaşlar doğma yurdlarına qayıdırlar, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yönəlmiş yeni proqramlar və iqtisadi-sosial layihələr müvəffəqiyyətlə həyata keçirilir. Bu böyük dəyişikliklərə bir neçə dəfə şahid olmaqdan qürur duydum və rəsmi səfərlərim zamanı Sizinlə bu nailiyyətləri paylaşdım. Şübhəsiz ki, biz ortaq dil, tarix, adət-ənənələr və ümumi məqsədlərimizə sadiq qalaraq, birgə işləyirik və strateji tərəfdaş kimi, qardaş Azərbaycan dövlətinin bu böyük uğurlarına sonsuz sevinirik.

Hörmətli İlham Heydər oğlu, ölkənizin beynəlxalq arenada nüfuzunu və mövqeyini gücləndirmək istiqamətində göstərdiyiniz qətiyyətli siyasi iradə və sistemli səyləriniz xüsusi tərifə layiqdir.

Gələn həftə gözəl Bakı şəhərində baş tutacaq və dünyanın bütün dövlətlərini və ən nüfuzlu beynəlxalq təşkilatları bir araya gətirən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının iştirakçılarının 29-cu konfransı Sizin xarici siyasət sahəsində böyük tarixi zəfərinizdir desəm, əsla mübaliğə olmaz.

Əminəm ki, bu nüfuzlu tədbirdə iqlim dəyişmələrinə qarşı mübarizə və onların nəticələrinin azaldılması, qlobal çağırışlara cavab verən həll yollarının və gücləndirici strategiyaların təsdiqlənməsi, dünya xalqlarının «yaşıl iqtisadiyyat»a keçidi ilə bağlı təşəbbüslərinin artması istiqamətində böyük nailiyyətlər əldə ediləcək. Tədbir zamanı keçiriləcək yüksək səviyyəli görüşlərdə məhsuldar danışıqlarımızı, çoxtərəfli əməkdaşlıq üzrə yeni razılaşmalarımızı səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək, Sizi Zəfər Günü münasibətilə bir daha ürəkdən təbrik edir, Allahdan Sizə və bütün yaxınlarınıza möhkəm cansağlığı, vətəninizin rifahı yolunda gördüyünüz işlərdə uğurlar arzulayıram, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, rifah və daimi inkişaf diləyirəm.

## TÜRKİYƏNİN CÜMHURİYYƏT XALQ PARTİYASININ SƏDRİ ÖZGÜR ÖZƏL AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*8 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 8-də Türkiyənin Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Özgür Özəl telefonla zəng etmişdir.*

*Özgür Özəl Azərbaycanın ərazi bütövlüyünün bərpası, 44 günlük Vətən müharibəsində Qələbənin 4-cü ildönümü münasibətilə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təbriklərini çatdırdı, Vətən uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərə Allahdan rəhmət dilədi.*

*«Qarabağın azad olunmasına öz torpaqlarımızın azad olunması qədər sevindik» deyən partiya sədri Atatürkün «Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir» ifadəsini xatırlatdı.*

*Özgür Özəl Cümhuriyyət Xalq Partiyasının Avropa Şurası Parlament Assambleyasında və Sosialist İnternasionalında Azərbaycanı müdafiə etdiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı telefon zənginə və təbriklərə görə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, əvvəllər müəyyən yanlışlıqlar olub, amma bunlar keçmişdə qalıb. Dövlətimizin başçısı Yeni Azərbaycan Partiyası ilə CHP arasında əməkdaşlığın müsbət istiqamətdə cərəyan etdiyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*9 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.*

## KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Kamboca arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Kamboca xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 noyabr 2024-cü il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ OLAF ŞOLTZ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*9 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 9-da Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltz telefonla zəng edib.*

*Telefon danışığı əsnasında Kansler Olaf Şoltz Almaniyada yaranmış siyasi vəziyyətə görə Azərbaycanın ev sahibliyi etdiyi COP29 konfransının liderlər sammitində iştirak edə bilməyəcəyini təəssüflə qeyd etdi. Kansler Olaf Şoltz COP29 iqlim konfransının uğurla keçməsinin əhəmiyyətinə toxunaraq, Almaniyanın yeni maliyyə hədəfinin əldə edilməsi üçün lazımi dəstək göstərəcəyini bildirib.*

*Dövlətimizin başçısı COP29-un ev sahibi və sədr ölkə kimi Azərbaycanın məqsədlərini qeyd edərək, tərəflər arasında körpülər qurmağa çalışdığını və nəticə yönümlü müzakirələrin aparılması üçün əlverişli platforma təmin etdiyini vurğulayıb.*

*Kansler Olaf Şoltz Almaniyanın Azərbaycan ilə Ermənistan arasında sülhün və mehriban qonşuluq münasibətlərinin qurulmasını dəstəklədiyini qeyd etdi və bu*

*xüsusda, ölkəsinin tərəfləri cəsarətli addımlar atmağa çağırdığını deyib.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi və onun əsasını təşkil edən prinsiplərin təşəbbüskarının Azərbaycan olduğunu diqqətə çatdıraraq, Ermənistanın konstitusional əsasda ölkəmizə qarşı ərazi iddialarının hələ də qalmaqda olduğunu bildirdi. Dövlətimizin başçısı Ermənistanın sənədin mətni üzrə təkliflərini xeyli gecikdirməsinin prosesə mənfi təsir etdiyini xatırlatdı, amma buna baxmayaraq, tərəflərin sənədin mətni üzrə yekun razılaşma əldə etməyə yaxın olduğunu və COP başa çatdıqdan sonra danışıqların davam etdiriləcəyini vurğulayıb.*

## SURİNAM RESPUBLİKASININ PREZİDENTİ ÇANDRİKAPERSAD SANTOXİ İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Surinam Respublikasının Prezidenti Çandrikapersad Santoxi ilə görüşmüşdür.*

*Surinam Prezidenti ilə görüşdən məmnunluğunu bildirən dövlətimizin başçısı Çandrikapersad Santoxinin dəvəti qəbul edib, COP29 tədbirində iştirak etdiyinə görə minnətdarlığını bildirdi və vurğuladı ki, bu, ikitərəfli münasibətlərimizdə yüksək səviyyədə ilk rəsmi səfərdir. Azərbaycan Prezidenti bu səfərin əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını qeyd edərək, onun səmərəli nəticələr verəcəyinə ümidvarlığını bildirdi.*

*Xoş sözlərə görə minnətdarlığını ifadə edən Surinam Prezidenti dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduğunu vurğuladı. Qonaq Prezident İlham Əliyevin COP29 prosesində liderliyinin təqdir olunduğunu qeyd etdi və belə mötəbər tədbirin təşkilinə görə minnətdarlığını bildirdi. O, COP-a sədrliyin asan olmadığını dedi, ancaq bununla belə, Azərbaycanın bu məsələdə liderlik göstərdiyini vurğuladı.*

*Söhbət zamanı xalqlarımız arasında dostluq münasibətlərinin olduğu bildirildi, beynəlxalq təşkilatlar,*

*o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ölkələrimizin yaxından əməkdaşlıq etdiyi qeyd edildi.*

*Kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Qonaq Surinamdan olan tələbələrə Azərbaycanın ali təhsil müəssisələrində təqaüd verilməsi və universitetlərimiz arasında əməkdaşlığın yaradılması məsələsini diqqətə çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə dair məsələlərin irəliyə aparılması üçün nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili ilə bağlı razılıq əldə olundu.*

*Söhbət zamanı COP-un gündəliyində duran məsələlər və ölkələrimizin COP çərçivəsində, həmçinin bərpa olunan enerji sahəsində əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparıldı.*

## SAN-TOME VƏ PRİNSİPİ DEMOKRATİK RESPUBLİKASININ BAŞ NAZİRİ PATRİS EMERİ TROVOADA İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da San-Tome və Prinsipi Demokratik Respublikasının Baş Naziri Patris Emeri Trovoada ilə görüşmüşdür.*

*San-Tome və Prinsipi Demokratik Respublikasının Baş Nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərdə ilk səfər olduğunu deyən dövlətimizin başçısı onun əhəmiyyətinə toxundu.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Patris Emeri Trovoada Bakının gözəlliyinin onlarda xoş təəssürat yaratdığını dedi.*

*O, Zəfər bayramı münasibətilə təbriklərini çatdırdı, sülhün və sabitliyin təmin olunmasının önəmini qeyd etdi. Patris Emeri Trovoada ölkəmizə səfərinin əlaqələrimizin perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğuladı.*

*Qonaq COP29-un uğurlu keçməsini arzulayaraq qeyd etdi ki, bu tədbir dünyanın üzləşdiyi iqlim dəyişmələri ilə bağlı problemlərin həllinə töhfə verəcəkdir.*

*San-Tome və Prinsipi Demokratik Respublikasının Baş Naziri COP-da kiçik ada dövlətlərinin prob-*

*lemlərinə xüsusi qayğı və diqqət göstərilməsinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi, Azərbaycanın bu məsələdə də liderlik rolu nümayiş etdirdiyini vurğuladı.*

*COP29-un səmərəli nəticələr verəcəyinə ümidvarlığını bildirən dövlətimizin başçısı qeyd etdi ki, kiçik ada dövlətləri ilə əlaqədar ayrıca Zirvə toplantısı keçiriləcək. Azərbaycanın «Commonwealth» təşkilatı vasitəsilə kiçik ada dövlətlərinə maliyyə dəstəyi verdiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, iqlim dəyişmələrinin kiçik ada dövlətlərinə təsirinə dair məlumatın «Azərkosmos» vasitəsilə toplanması və təhlil edilməsi ilə bağlı bu ölkələrə ayrıca dəstək göstəriləcək.*

*Söhbət zamanı ölkələrimiz arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi.*

*Qonaq Azərbaycanın bu sahədə yaxşı təcrübəsinin olduğunu deyərək, həmin təcrübənin ölkəsi üçün də maraqlı olacağını diqqətə çatdırdı. Bu xüsusda, Azərbaycan nümayəndə heyətinin tezliklə həmin ölkəyə səfərinin və birgə layihələrin yerində müzakirə olunmasının önəmi vurğulandı.*

## ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ EMMERSON DAMBUDZO MNANQAQVA İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Zimbabve Respublikasının Prezidenti Emmerson Dambudzo Mnanqaqva ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Zimbabve Respublikasının Prezidentinə COP29-da iştirakına görə minnətdarlığını bildirdi.*

*İkitərəfli münasibətlərdə bu səviyyədə səfərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev Azərbaycan ilə Zimbabve arasında güclü əməkdaşlığın qurulması üçün yaxşı imkanların olduğunu dedi.*

*Dövlətimizin başçısı Zimbabve Prezidentinin Azərbaycana səfərinin ikitərəfli gündəliyimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd etdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Emmerson Dambudzo Mnanqaqva dövlətimizin başçısı ilə görüşdən məmnunluğunu ifadə etdi.*

*O, İlham Əliyevə Prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı və bu qələbəni xal-*

*qın dövlətimizin başçısına göstərdiyi etimad kimi dəyərləndirdi.*

*Görüşdə ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin olduğu bildirildi, siyasi məsləhətləşmələr mexanizminin gücləndirilməsinin vacibliyi vurğulandı, iqtisadi aspektin də əməkdaşlığın inkişafında oynaya biləcəyi rolu qeyd edildi. BMT, «Qoşulmama Hərəkatı» və digər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi diqqətə çatdırıldı.*

*İnkişaf etməkdə olan ölkələrin iqlim dəyişmələrinin təsirinə məruz qaldıqları qeyd olundu və bu sahədə, həmçinin bərpa olunan enerji sahəsində əməkdaşlığa toxunuldu.*

*Söhbət zamanı kənd təsərrüfatı, təhsil və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupunun yaradılmasının və nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkilinin önəmi vurğulandı.*

## QVİNEYA-BİSAU RESPUBLİKASININ PREZİDENTİ UMARU SİSOKU EMBALO İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə görüşmüşdür.*

*Qvineya-Bisau Prezidenti COP29-un yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi, bu tədbirin uğurla keçəcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə ölkələrimiz arasında ilk növbədə, təhsil sahəsində əməkdaşlıq məsələsinə toxunuldu, Qvineya-Bisaudan olan müxtəlif sahələrə aid mühəndislərin, tibb sahəsi üzrə mütəxəssislərin hazırlanmasına dəstək və təqaüdlərin verilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan «Qoşulmama Hərəkatı»na və İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrə qrantlar ayıraraq, bu sahədə öz dəstəyini göstərir. Bu xüsusda, Qvinea-Bisaudan olan tələbələrə də qrantların verilməsi məsələsi müzakirə olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və bununla bağlı nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili, həmçinin Xarici İşlər nazirləri vasitəsilə siyasi məsləhətləşmələrin aparılması məsələlərinə toxunuldu.*

## MONQOLUSTAN PREZİDENTİ UXNAAQİYN XURELSUX İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Monqolustan Prezidenti Uxnaaqiyn Xurelsux ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Monqolustan Prezidentini Bakıda görməkdən məmnunluğunu ifadə edərək, dəvəti qəbul edib COP29-da iştirak etdiyinə görə ona minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bu görüşün Uxnaaqiyn Xurelsux ilə ilk görüş olduğunu deyərək, bunun ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını vurğuladı.*

*Dövlətimizin başçısı bundan əvvəl beynəlxalq tədbirlər çərçivəsində Uxnaaqiyn Xurelsux ilə təmaslarını məmnunluqla xatırladaraq, Monqolustan Prezidenti vəzifəsində Azərbaycana ilk səfəri tarixi hadisə kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif səviyyələrdə təmasların bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Siyasi əlaqələrimizin çox yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı iqtisadi sahədə də əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyini vurğuladı.*

*Xoş sözlərə və COP29-da iştiraka dəvətə görə minnətdarlığını bildirən Monqolustan Prezidenti dövlətimizin başçısının dəvətini qəbul edərək, Azərbaycana səfərindən böyük məmnunluğunu ifadə etdi.*

*Monqolustan Prezidenti qeyd etdi ki, bu görüşü ikitərəfli əlaqələr üçün tarixi görüş hesab edir.*

*Qonaq ölkəmizin COP29-a ev sahibliyi və sədrlik etməsi münasibətilə təbriklərini çatdırdı.*

*Uxnaaqiyn Xurelsux da öz növbəsində, Prezident İlham Əliyev ilə bundan əvvəl beynəlxalq səviyyəli tədbirlərdə təmaslarını məmnunluqla xatırlatdı.*

*Ölkələrimiz arasında 32 ildir diplomatik əlaqələrin qurulduğunu deyən qonaq Azərbaycan Prezidentini Monqolustana səfərə dəvət etdi.*

*Monqolustan Prezidenti dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə gedən böyük inkişaf proseslərinin ona dərin təəssürat bağışladığını bildirdi. Uxnaaqiyn Xurelsux ölkələrimiz arasında tarixi yaxınlığın olduğunu da vurğuladı. O, ölkələrimiz arasında ikitərəfli hüquq-müqavilə bazasının inkişaf etdirilməsinin önəminə toxundu.*

*Prezident İlham Əliyev Monqolustana səfərə dəvətə və COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərə görə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti də öz növbəsində, Monqolustan Prezidentinin rəhbərliyi ilə bu ölkənin inkişaf etdiyini vurğuladı.*

*Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olundu, Xarici İşlər nazirləri və digər aidiyyəti qurumlar səviyyəsində səfərlərin təşkili ilə bağlı təlimatlar verildi.*

*Monqolustanda investisiya imkanları barədə fikir mübadiləsi aparıldı.*

*Görüşdə hökumətlərarası birgə Komissiyanın yaradılması, turizm, təhsil, kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ DENİS BEÇİROVİÇ VƏ ÜZVÜ JELKA TSVİYANOVİÇ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Denis Beçiroviç və üzvü Jelka Tsviyanoviç ilə görüşmüşdür.*

*COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Denis Beçiroviç bu tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və onun uğurlu olacağına əminliyini bildirdi.*

*Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcudluğunu qeyd edən Denis Beçiroviç Azərbaycan Prezidentinin Sarayevoya rəsmi səfərini məmnunluqla xatırlatdı, Bosniya və Herseqovinanın Azərbaycan ilə qarşılıqlı səmərəli əməkdaşlığı bundan sonra da davam etdirmək əzmində olduğunu dedi.*

*Qonaq qeyd etdi ki, son dövrlərdə nümayəndə heyətlərinin səfərləri intensivləşib.*

*Denis Beçiroviç Azərbaycana parlamentin sədri qismində səfərini xatırlatdı və vurğuladı ki, həm o vaxt, həm də bu dəfə şahidi olduğu kimi, ümumiyyətlə, ölkəmiz böyük inkişaf yolu keçib.*

*O, spiker olduğu dövrdə Bosniya və Herseqovina parlamenti tərəfindən Azərbaycanın ərazi bütövlüyü*

*və suverenliyi ilə bağlı qətnamənin qəbul edildiyini xatırlatdı, bunun ölkələrimiz arasında dostluğun nümayişi olduğunu dedi.*

*Hazırkı dövrdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini qeyd edən Denis Beçiroviç dedi ki, özü və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç bu səfər zamanı ölkəsinin Azərbaycan ilə ikitərəfli münasibətlərin inkişafı və dostluq əlaqələrini möhkəmləndirmək istəyi ilə bağlı mesajlarını bir daha çatdırırlar. O, ölkəsinin iqtisadiyyatının müxtəlif sahələrinə Azərbaycan investisiyalarını cəlb etmək marağında olduqlarını bildirdi. Bu baxımdan, Bosniya və Herseqovinanın infrastruktur və digər sahələrdə Azərbaycan ilə əməkdaşlıqla bağlı təkliflərinin olduğunu dedi. İqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğunu qeyd edən Denis Beçiroviç ölkəmizə səfərinin ikitərəfli hüquq-müqavilə bazasının möhkəmləndirilməsi işinə də töhfə verəcəyinə ümidvarlığını bildirdi.*

*Prezident İlham Əliyev dəvəti qəbul edib COP29-da iştirak etdiklərinə görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Denis Beçiroviç və üzvü Jelka Tsviyanoviçə minnətdarlığını ifadə etdi.*

*Bosniya və Herseqovinanın bizim üçün yaxın dost və tərəfdaş olduğunu, tarixi əlaqələrin mövcudluğunu vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan ilə Bosniya və Herseqovina arasında həmrəylik, qarşılıqlı hörmət prinsipləri əsasında tərəfdaşlıq inkişaf edir.*

*Bosniya və Herseqovinaya səfərini və Denis Beçiroviç ilə görüşünü məmnunluqla xatırladan Prezident İlham Əliyev həmin səfər zamanı keçirilən görüşlərin əlaqələrimizin uğurlu inkişafının davam etdirilməsi işinə xidmət etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı torpaqlarımızın işğal altında olduğu zaman Bosniya və Herseqovina tərəfindən Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsi məsələsinə görə bir daha minnətdarlığını bildirdi, Bosniya və Herseqovina parlamentinin bununla bağlı qəbul etdiyi qətnaməni dostluq əlaqələrimizin nümayişi kimi qiymətləndirdi.*

*Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin fəal əməkdaşlıq etdiyini deyərək, siyasi əlaqələrimizin də yaxşı səviyyədə olduğunu vurğuladı. Hələ sovetlər dövründə Bakı ilə Sarayevonun qardaşlaşmış şəhərlər olduğunu qeyd edən dövlətimizin başçısı, o zaman Sarayevodan çoxlu sayda nümayəndə heyətlərinin ölkəmizə gəldiyini, sərginin də təşkil edildiyini məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı Cənubi Qafqaz və Balkan regionları arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı, bərpa olunan enerji, sərmayə və infrastruktur sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.*

## İRAQ RESPUBLİKASININ PREZİDENTİ ƏBDÜLLƏTİF CAMAL RƏŞİD İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşmüşdür.*

*İqlim dəyişmələri və ətraf mühit məsələlərinə xüsusi önəm verdiklərini deyən İraq Prezidenti iqlim dəyişmələri mövzusunda əldə olunmuş razılaşmanın icrasının vacibliyinə toxundu. Qonaq müharibələrin və hərbi münaqişələrin ətraf mühitə ən böyük təhlükə yaratdığını dedi. Əbdüllətif Camal Rəşid ölkəsinin COP29-da geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunduğunu vurğuladı. İraq Prezidenti ikitərəfli əlaqələrimizin uğurla inkişaf etməsindən məmnunluğunu bildirdi.*

*Azərbaycanın nəticə yönümlü danışıqlara üstünlük verdiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz qlobal iqlim dəyişmələri üzrə dövlətlər arasında həmrəylik yaratmağa və körpülər qurmağa çalışır. COP29-da yeni maliyyə hədəfinin müəyyən olunmasının önəminə toxunan dövlətimizin başçısı bu tədbirdə iştirak etmək üçün 70 minə yaxın insanın qeydiyyatdan keçdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın ev sahibi kimi, COP-a hazırlıq işlərini qısa zamanda yüksək səviyyədə gördüyünü, necə de-*

*yərlər, şəhər içində şəhər tikdiyini dedi, konfrans məkanında istifadə olunan materialların davamlılıq tələblərinə tam uyğun olduğunu bildirdi.*

*Dövlətimizin başçısı vurğuladı ki, COP-u bəhanə edərək, qərbyönlü mediada Azərbaycana qarşı haqsız hücumlar edilir.*

*Azərbaycan ilə İraq arasında münasibətlərə toxunan dövlətimizin başçısı ikitərəfli hökumətlərarası birgə Komissiyanın fəaliyyət göstərdiyini qeyd etdi.*

## ƏL-ƏZHƏRİ ŞƏRİFİN ŞEYXİ, BÖYÜK İMAM ƏHMƏD MƏHƏMMƏD ƏHMƏD ƏL-TAYYİB İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd əl-Tayyib ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev dəvəti qəbul edib COP29-da iştirakına görə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd əl-Tayyibə minnətdarlığını bildirdi, onun burada olmasının bu tədbiri xüsusilə əhəmiyyətli etdiyini dedi.*

*Dövlətimizin başçısı xüsusi olaraq vurğuladı ki, bir neçə gün əvvəl Azərbaycanda dünya dini liderlərinin iştirakı ilə böyük tədbir keçirilib və Əl-Əzhəri Şərifin nümayəndələri də orada iştirak ediblər. Prezident İlham Əliyev bu tədbirdən sonra iştirakçıların işğaldan azad edilmiş bölgələrimizə səfərlərinin önəminə toxundu.*

*Dövlətimizin başçısı Misirə səfəri zamanı Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd əl-Tayyib ilə görüşünü məmnunluqla xatırladaraq, həmin görüş zamanı bir sıra önəmli məsələlərin müzakirə olunduğunu qeyd etdi və orada gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsinin aparıldığını vurğuladı.*

*İlk növbədə, COP29-da iştiraka dəvətə görə minnətdarlığını bildirən Əl-Əzhəri Şərifin şeyxi bunun möhtəşəm tədbir olduğunu qeyd etdi. O, Prezident İlham Əliyevə COP çərçivəsində Dinlər pavilyonunun təşkilinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.*

*Qonaq dedi ki, Misirə səfəri zamanı dövlətimizin başçısı ilə görüşündən böyük şərəf hissi duyub.*

*Böyük imam Əhməd Məhəmməd Əhməd əl-Tayyib işğal edilmiş torpaqlarımızın geri qaytarılması münasibətilə təbriklərini çatdıraraq dedi:* «Siz həqiqətən, Müzəffər Ali Baş Komandansınız. Siz qarşı tərəfə böyük səxavət göstərmisiniz. Sizin qarşı tərəfə olan humanitar rəftarınız hamıya məlumdur. Sizin bu alicənablığınız bütün dini təriqətlərin sütunlarına uyğundur».

*Əl-Əzhəri Şərifin şeyxi region ölkələri ilə əlaqələrin yaxşılaşdırılmasında Azərbaycanın xüsusi rolunun olduğunu deyərək, gələn ilin fevralında Bəhreyndə keçiriləcək dinlərarası dialoq və sünni-şiə dialoqunda Azərbaycanın iştirakını gözlədiyini qeyd etdi. Sünni-şiə dialoqunda Azərbaycanın çox uğurlu təcrübəsinin olduğunu vurğulayan böyük imam Əhməd Məhəmməd Əhməd əl-Tayyib ölkəmizin, həmçinin müxtəlif dinlərin nümayəndələri arasında münasibətlərdə və harmoniyada da uğurlu təcrübəsinin mövcudluğunu məmnunluqla qeyd etdi.*

*Xoş sözlərə və Qarabağın işğaldan azad edilməsi ilə bağlı təbrikinə görə təşəkkürünü bildirən dövlətimizin başçısı 30 il işğala məruz qalmağımıza baxmayaraq, ölkəmizin sülh müqaviləsi təşəbbüsü ilə çıxış etdiyini dedi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda yaşayan müsəlmanlar Heydər məscidində vəhdət və həmrəylik namazı qılırlar. Bu təcrübəmizin digər ölkələr üçün də nümunə ola biləcəyini deyən dövlətimizin başçısı Azərbaycanın islam dünyasının daha da birləşməsi üçün çalışdığını vurğuladı və islam dünyasında bölücülük cəhdlərinin mövcudluğunu təəssüflə qeyd etdi. Prezident İlham Əliyev bütün dinlərin nümayəndələrinin ölkəmizdə rahat yaşadıqlarını diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinin Bəhreyndə keçiriləcək tədbirdə fəal iştirak edəcəyini bildirdi.*

*Əl-Əzhəri Şərifin şeyxi dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşmüşdür.*

*COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran və bununla bağlı uğurlar arzulayan Şarl Mişel bu tədbirdə iqlim dəyişmələri ilə əlaqədar vacib qərarların qəbul ediləcəyinə ümidvarlığını ifadə etdi.*

*O, Avropa İttifaqının gündəliyində də iqlim dəyişmələrinin prioritet və vacib mövzulardan biri olduğunu bildirdi.*

*Söhbət zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olundu.*

*Dövlətimizin başçısı Prezident Şarl Mişelin Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində oynadığı vasitəçilik rolunun yüksək qiymətləndirildiyini qeyd edərək vurğuladı ki, məhz onun vasitəçiliyi dövründə Ermənistanla Azərbaycan arasında danışıqlar prosesinin strukturu və vacib istiqamətlər üzrə gündəliyi formalaşıb.*

## FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR STUBB İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşmüşdür.*

*Gələn il Finlandiyanın ATƏT-in fəaliyyətdə olan sədri funksiyasını üzərinə götürəcəyini deyən Aleksandr Stubb Helsinki Yekun Aktının 50 illiyinin qeyd olunacağını vurğuladı. Finlandiya Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin ölkəsi tərəfindən dəstəkləndiyini qeyd edərək, bu gündəliyin irəliyə aparılması ilə maraqlandı.*

*ATƏT-in Minsk qrupunun artıq tarixin bir tərkib hissəsi olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir. Prezident İlham Əliyev Ermənistana da COP-da iştirak etmək üçün dəvət göndərildiyini, lakin bu ölkənin iştirak edib-etməməsinin Ermənistanın özünün qərarı olduğunu bildirdi.*

*Aleksandr Stubb Prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi. Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul etdi.*

*Söhbət zamanı ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ ALEKSANDR DE KRO İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Belçika Krallığının Baş Naziri Aleksandr De Kro ilə görüşmüşdür.*

*Belçika Krallığının Baş Naziri COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, iqlim dəyişmələri ilə bağlı məsələlərin müzakirəsi üçün bu tədbirin çox önəmli olduğunu qeyd etdi.*

*Qonaq Azərbaycanın COP-un təşkilində və ümumilikdə zəngin enerji sərvətlərinə malik bir ölkə kimi iqlim dəyişmələri məsələsində böyük rol oynadığını vurğuladı, ölkəmizə səfərinin həm ikitərəfli, həm də Azərbaycan–Avropa İttifaqı münasibətlərinin müzakirəsi üçün imkan yaratdığını qeyd edərək, Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu və bu əlaqələrin inkişafını dəstəklədiyini dedi.*

*Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd etdi. Azərbaycanın «yaşıl enerji» imkanlarına toxunan və Xəzər dənizinin Azərbaycan sahillərində böyük külək enerjisi potensialının olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə istehsal olunan «yaşıl enerji»-nin Avropaya ixracı üçün konkret layihələrin həyata keçirildiyini bildirdi.*

*Azərbaycan Prezidenti ölkəmiz ilə Avropa İttifaqı arasında digər sahələrdə də yaxşı əməkdaşlığın qurulduğunu söylədi.*

*Prezident İlham Əliyev COP29-a hazırlıqla bağlı az vaxt olmasına baxmayaraq, Azərbaycanın bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün səylər göstərdiyini vurğuladı.*

*Azərbaycan Prezidenti ölkəmizin də iqlim dəyişmələrinə məruz qaldığını bildirdi.*

*Görüşdə regional məsələlər, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı son bir ildə fəal danışıqlar nəticəsində ciddi irəliləyişlərin, həmçinin sərhədlərin delimitasiyası sahəsində irəliləyişlərin olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları sülh müqaviləsinin imzalanmasına maneə olaraq qalmaqdadır və bu konstitusiya dəyişdirilməlidir. Eyni zamanda, vurğuladı ki, Azərbaycan Ermənistanı COP29-a dəvət edib. Bu ölkənin COP29-da iştirak edib-etməməsi Ermənistanın öz qərarıdır.*

*Söhbət zamanı limanlar sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Belçika şirkətlərinin dənizdə bərpa olunan enerji sahəsində böyük imkanlara malik olduğu bildirildi.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ KOBAXİDZE İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Gürcüstanın Baş Naziri İrakli Kobaxidze ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Gürcüstanda keçirilmiş parlament seçkilərində «Gürcü Arzusu – Demokratik Gürcüstan» Partiyasının qələbəsi münasibətilə İrakli Kobaxidzeni təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzuladı. Bu seçkilərin nəticələrinin gürcü xalqının iradəsini əks etdirdiyini vurğuladı.*

*İrakli Kobaxidze təbriklərə görə təşəkkürünü bildirdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq və qardaşlıq əlaqələrinin olduğu vurğulandı, siyasi, iqtisadi, nəqliyyat sahələrində əməkdaşlığımızın müsbət nəticələri qeyd edildi.*

*Prezident İlham Əliyev Gürcüstanın Baş Nazirini ölkəmizə rəsmi səfərə dəvət etdi.*

*İrakli Kobaxidze də öz növbəsində, dövlətimizin başçısını Gürcüstana səfərə dəvət etdi.*

*Həm Azərbaycan Prezidenti, həm də Gürcüstanın Baş Naziri qarşılıqlı minnətdarlıqlarını bildirərək, dəvətləri məmnunluqla qəbul etdilər.*

## SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ PETER PELLEQRİNİ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə görüşmüşdür.*

*Qonaq Azərbaycanın, o cümlədən Bakı şəhərinin inkişafını məmnunluqla qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Slovakiya arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdiyi bildirildi, birgə sənaye müəssisələrinin yaradılması məsələsi, IT sahəsində əməkdaşlıq, Qarabağda quruculuq layihələrində Slovakiya şirkətlərinin iştirakı qeyd olundu. Azərbaycan ilə Slovakiya arasında nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensivliyi vurğulandı. Prezident İlham Əliyev Qarabağda Slovakiya tərəfindən quruculuq layihəsinin həyata keçirildiyini məmnunluqla qeyd etdi.*

*Gələn ildən Azərbaycanda NATO əlaqələndirici səfirlik funksiyasını Slovakiya səfirliyinin həyata keçirəcəyi bildirildi. Slovakiya Prezidenti dövlətimizin başçısını ölkəsinə səfərə dəvət etdi. Azərbaycan Prezidenti dəvəti məmnunluqla qəbul etdi.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərdən məmnunluq ifadə olundu, yüksək səviyyəli qarşılıqlı səfərlərdə intensivlik qeyd edildi. Beynəlxalq təşkilatlarda əməkdaşlıq, həmçinin sənaye, infrastruktur, sərmayələr, bərpa olunan enerji sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Azərbaycana qarşı koordinasiya olunmuş media hücumlarının təşkil edildiyini vurğuladı.*

*Dövlətimizin başçısı Serbiyada dəmiryol vağzalında stansiya binasında baş vermiş qəzada insanların həlak olması ilə bağlı başsağlığını çatdırdı.*

*Serbiya Prezidenti başsağlığına görə minnətdarlığını bildirdi.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Prezident Aleksandr Lukaşenkonun dəvəti qəbul edib COP29 tədbirində iştirakına görə minnətdarlığını bildirdi.*

*Azərbaycan Prezidenti vurğuladı ki, COP29-a hazırlıq işlərinə az vaxtın olmasına baxmayaraq, bu işlər yüksək səviyyədə həyata keçirilib.*

*Aleksandr Lukaşenko Bakının gözəlliyinin bu dəfə də onda dərin təəssürat hissi yaratdığını dedi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, ümumi ticarət dövriyyəsinin 41 faiz artdığı bildirildi.*

*İşğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərində, modul tipli evlərin tikintisində Belarus şirkətlərinin iştirakı məmnunluqla qeyd olundu.*

*Prezident İlham Əliyev Belarus tərəfindən Şuşaya hədiyyə olunmuş traktorlara görə Aleksandr Lukaşenkoya bir daha təşəkkürünü bildirdi.*

*Belarus dövlətinin başçısı bu ilin mayında Azərbaycana səfərini məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı yaşayış binaları üçün liftlərin birgə istehsalını təşkil etmək məqsədilə işlərin getdiyi vurğulandı, Ağdam rayonunda aqroşəhərciyin salınması, kənd təsərrüfatı, maşınqayırma və sənaye sahələrində əməkdaşlıq, kənd təsərrüfatı sahəsində kadrların hazırlanması və mütəxəssislərin mübadiləsi məsələləri qeyd edildi.*

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ANTONİO QUTERREŞ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş ilə görüşmüşdür.*

*BMT-nin Baş katibi Azərbaycanın COP29-a sədrliyinə görə təbriklərini çatdırdı və bununla bağlı uğurlar arzuladı.*

*Antonio Quterreş BMT Katibliyi ilə Azərbaycan nümayəndə heyətinin yaxından əməkdaşlıq etdiyini vurğulayaraq, ölkəmizin sədrliyinin uğurla aparılması üçün BMT-nin hər cür dəstək göstərməyə hazır olduğunu dedi.*

*Baş katib COP çərçivəsində G20-nin tədbirində və COP-un bağlanış mərasimində də iştirak edəcəyini bildirdi.*

*Söhbət zamanı builki COP-un gündəliyində maliyyə hədəfləri mövzusunun olduğu qeyd edildi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan müxtəlif ölkələr arasında konsensusun tapılması və həmrəyliyin əldə olunması istiqamətində səylərini bundan sonra da davam etdirəcəkdir.*

*Görüşdə qlobal iqlim dəyişmələri mövzusunun əhəmiyyəti vurğulandı, «Gələcəyin sammiti»nin və BMT-nin digər sənədlərində də iqlim dəyişmələri mövzusunun xüsusi prioritet məsələlərdən olduğu bildirildi.*

## BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ 29-cu SESSİYASININ LİDERLƏR SAMMİTİNİN AÇILIŞI MƏRASİMİ

*12 noyabr 2024-cü il*

*Bakıda noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılışı mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş sammitdə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.*

*Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.*

*Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılışı mərasimində çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli BMT-nin Baş katibi!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha

yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanları olacaq.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım əlahəzrət şeyx Məhəmməd bin Zaid əl-Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlara verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan şimal ilə cənub, qərb ilə şərqin qovuşduğu ölkədir, bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və 1 milyondan çox azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müs-

təqil siyasətə malik güclü ölkə qura bildik. 4 il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi, Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə 4 il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan «Qoşulmama Hərəkatı»na uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimiz və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın «yaşıl gündəliyi» haqqında bir neçə söz söyləmək istərdim. Bərpa olunan enerjidə texniki potensialımız quruda 135 giqavat, dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin «Masdar» şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının «ACWA Power» şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın *bp* şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının 4 il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcək.

Biz 2030-cu ilə qədər təxminən 6 giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpa olunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Biz həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu bizə Avropaya «yaşıl enerji»ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı 4 giqavatdır. Yeri gəlmişkən, texniki əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

«Yaşıl gündəliyimiz», həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları «yaşıl enerji» zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O buradan uzaq yerdə yerləşmir və həmin yerə 10–15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılıb. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, bu gün də bizi neft dövləti adlandırırlarsa, bu ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada birnömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz

atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, «müstəqil» QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək, bir növ, Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamaya bənzəyir. Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. «Yaşıl gündəliyimiz»ə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı – mən beynəlxalq medianı nəzərdə tuturam – mənim yalnız «Tanrının bəxş etdiyi hədiyyə» sözlərimə iqtibas edirlər.

Bu gün isə mən burada, bu auditoriyada təkrar etmək istəyirəm: bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – neft, qaz, külək, Günəş, qızıl, gümüş, mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr bu sərvətlərə görə günahlandırılmalı və bazarda

onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz «yaşıl keçid»in güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, 2 il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq Bəyannaməsinə imza atdılar. Lakin bu bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq.

Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin Bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı 2 idi. İndi isə 8 ölkə alır. Azərbaycan qazına çıxışı olan 10 ölkədən 8-i Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən 2 il öncə Bakıda imzalanmış Bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində

olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda keçirilən COP29-a boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 Prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz! Sağ olun.

**BMT-nin Baş katibi Antonio Quterreşin çıxışı**

Cənab Prezident Əliyevə, COP sədri Muxtar Babayevə və eyni zamanda, Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Prezidentlər bizim əməkdaşlığa etibar edə bilərlər. Həqiqətən də sizin səyiniz nəticəsində uğurlu bir COP-a imza atacağıq. Hər kəsə bu COP-da ehtiyacımız vardır. Həqiqətən, bir saata bənzəyən və bir toplam olaraq biz qlobal temperaturların 2,5-ə çatdırılmasına yaxınlaşırıq və vaxt bizim tərəfimizdə deyil. Bu, 2024-cü ilin əlavəsi və ən yüksək temperatur olaraq ən isti il olacaq, rekordları qıracaq. İqlim baxımından görürük ki, növbəti qasırğa çatmamış ailələr artıq evlərindən qaçırlar, biomüxtəliflik dağılır, insanlar, işçilər həqiqətən də istidən huşlarını itirirlər. İnsanlar daşqınlardan, infrastrukturu dağıdan təbii fəlakətlərdən, quraqlıqdan əziyyət çəkirlər, bitkilər tələf olur.

Bütün bunlar və digər faciələr faktiki olaraq, insanların səbəb olduğu iqlim dəyişmələri ucbatından

baş verir. Burada hər hansı bir ölkə istisna deyil. Bu şoklar bütün xərcləri artırır. Dağıdılmış evlər sığorta haqlarının artımına səbəb olur. Meşələr məhv edilir. Bütün bunlar həqiqətən də bir növ, qaçılmaz ədalətsizliyə səbəb olur, bunu varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər. Biz görürük ki, karbonlar və emissiyalar ortalama olaraq aşağı düşməsə, adaptasiya tədbirləri tətbiq olunmasa bütün iqtisadiyyatlar daha böyük ziyana uğrayacaq. Amma bu kontekstdə hələ də ümidimiz qalır. COP28-də siz hər biriniz öz üzərinizə karbohidrogen resurslarından yayınma və xalis sıfıra yaxınlaşma öhdəliyi götürdünüz. İqlimə uyğunlaşma tədbirlərini təşviq etməyə və eyni zamanda, iqtisadi baxımdan iqlim dəyişmələri planları və milli təklifləri qəbul etməyə söz verdiniz. İndi isə bu sözə əməl etməyin vaxtı çatıb. Bəşəriyyət sizi dəstəkləyəcək. BMT-nin İnkişaf Proqramı və Oksford Universiteti göstərir ki, dünyada əhalinin 80 faizi planda nəzərdə tutulan tədbirləri təşviq etməyə hazırdır. Alimlər, gənclər – hər kəs bu dəyişikliyi tələb edir. Onları eşitmək və duymaq lazımdır, səslərini kəsmək deyil. Beləliklə, daha çox bərpa olunan enerjilər, yeni innovasiyalar və qiymətlərin aşağı salınması ilə irəliləyişə nail olmaq imkanınız olacaqdır. Şəbəkələrə və bərpa olunan enerjiyə qoyulan sərmayələr karbohidrogen resurslarından daha çox idi. Demək olar ki, hər yerdə Günəş və külək enerjisi istehsalı ən ucuz variantdır. Ona görə bu resursların, karbohidrogen resurslarının olmaması problem olmayacaqdır. Beləliklə, bərpa olunan enerji hökm sürəcək. Bu çox sürətli olmalıdır ki, temperatur 2,5-dən yuxarı qalxmasın. Eyni za-

manda, burada 3 prioritetə fokuslanmaq istərdim. İlk növbədə, emissiyaların azaldılması. Qlobal temperaturun azaldılması və 2,5 selsiyə çatdırılması üçün qlobal emissiyanı hər il 9 faiz azaltmalıyıq. Bu, 2030-cu ilə qədər 43 faiz azalmalıdır. Təəssüf ki, 2019-cu ilin baza xəttinə əsasən, bu emissiyalar hələ də artmağa davam edir.

Bu COP Sammitində səmərəli karbon bazarının yaradılmasına dəstək göstərilməsi çox önəmlidir. Dünən də biz bu məsələni müzakirə etdik. Təbii ki, yeni bazar qaydaları təmin edilməlidir. Yerli ictimaiyyətlərə torpağın alınmasına və yaxud da hər hansı bir digər problemə icazə verməmək üçün işlər görülməlidir, iqlim dəyişikliyi planları hazırlanmalıdır. Razılaşdıq ki, sizin yeni planlarınız 1,5 temperatura uyğun olacaq. Bu o deməkdir ki, həmin plan bütün emissiyaları və iqtisadiyyatları əhatə etməlidir.

Qlobal ehtiyacları nəzərə alaraq, enerji səmərəliliyinin ikiqat artırılması və səhralaşmanın qarşısının alınması önəmlidir. Qlobal karbohidrogen resursları 30 faiz azalmalıdır. Eyni zamanda, ölkə daxilində enerji keçidi dayanıqlı iqlim məqsədlərinə, iqlim dəyişikliyi tədbirlərinə uyğun olmalıdır ki, lazımi investisiyaları təşviq edək. Bütün bunlar yerli şərait nəzərə alınaraq, ortaq və eyni zamanda, paylaşılmış məsuliyyət əsasında reallaşmalıdır. Amma hər bir ölkə öz işini görməlidir və G20 bu istiqamətdə lider olmalıdır. Onlar ən böyük emissiya edən ölkələrdir. Onların məsuliyyəti daha da yüksəkdir. Onlar texnoloji transferi və keçidi təmin etməlidirlər, inkişaf edən ölkələrə dəstək göstərməlidirlər, bütün dövlət-

lərin əlində lazımi alətlər və resurslar olmalıdır. BMT bu səylərə dəstək göstərməyə tam hazırdır. Amma bu işi bacara biləcək ölkələr məhz sizsiniz. Ancaq siz bu saata qarşı mübarizə apararaq, 1,5 dərəcə hədəfinə nail ola bilərsiniz.

İkincisi, siz öz xalqlarınızı, insanlarınızı iqlim dəyişmələrinin və iqlim böhranlarının fəsadlarından müdafiə etməlisiniz. Eyni zamanda, adaptasiya ehtiyacları ilə maliyyə arasında olan boşluq 2030-cu ilədək milyardlarla dollara bərabər və ya 300 milyarddan yuxarı olacaqdır. Çatışmayan bu vəsait hər hansı hesabatda qeyd olunan rəqəm deyil. Bu, həyat itkiləri, infrastrukturun dağıdılması deməkdir. Belə maliyyə vədlərini icra etmək lazımdır. 2025-ci ilə qədər ən azı 40 milyard dollar vəsait toplanmalıdır. Adaptasiya və investisiya iqtisadiyyatları dəyişə və Dayanıqlı İnkişaf Məqsədləri ətrafında formalaşa bilər. Ölkələr yeni fəaliyyət planları hazırladığı zaman maliyyə vəsaiti formalaşacaq, dünyada hər kəs erkən xəbərdarlıq sistemləri tərəfindən qorunacaqdır. Bütün təşəbbüslər üzrə bu erkən xəbərdarlıq sistemləri qurulmalıdır, eyni zamanda, iqlim ədalətliliyinə ehtiyacımız vardır. Həmçinin İtki və Zərərə Cavab Fondundan danışaraq, bu vəsaiti lazım olan insanlara çatdırmaq önəmlidir.

Çarpaz şəkildə olan bütün sektorlara fundamental baxsaq, üçüncü prioritet məhz maliyyədir. İnkişaf edən ölkələr bir sıra problemlərlə üzləşir. Çatışmayan dövlət infrastrukturu vəsaiti, eyni zamanda, iqlim dəyişmələri, borclanma və digər sahələrdə böyük çətinliklər mövcuddur. Məhz bunun nəticəsində

adaptasiya tədbirləri də ləngiyə bilər. Çin istisna olmaqla, keçən il ərzində inkişaf edən və meydana çıxan yeni bazarlar investisiya olunmuş hər bir dollara cəmi 15 sent alıb. COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir. Əminəm ki, buna birlikdə nail olacağıq.

Yeni maliyyə imkanları və bu istiqamətdə 5 əsas element lazımdır. Birincisi, dövlət investisiyalarının kəskin şəkildə artırılmasıdır. Dövlət investisiyaları səfərbər olunmalı, inkişaf edən ölkələrə trilyon dollarlarla vəsait ayrılmalıdır. İnnovativ resurslar, xüsusən aviasiya, karbohidrogen mədən işləridir və buna görə də «çirkləndirici tərəflər daha çox ödəməlidir» prinsipinə əsasən ödəməlidir. Şəffaflıq, hesabatlılıq olmalıdır ki, həqiqətən də bu vəsait reallaşsın. İşə daha böyük çoxtərəfli banklar cəlb edilməlidir və əminəm ki, yaxşı xəbərlər olacaqdır. Burada böyük kapital qoyuluşu səylərinə və biznes modellərin islahatlarına ehtiyac var ki, onlar özəl sektordan əlavə vəsait ala bilsinlər. Bu resurslar çatışmayan kimi görünə bilər, amma onlar çoxtərəfli sistemdə böyüyə bilər. Böyük nəticələr böyük dəyişikliklər tələb edir. Sentyabr ayında Nyu Yorkda əldə etdiyimiz konsensusa əsasən, irəli getməliyik.

Beləliklə, bütün dövlət nümayəndələrinə müraciət etmək istəyirəm ki, artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari

məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır. Vaxt gedir, sizə inanıram, sizə təşəkkürümü bildirirəm.

## BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru Maimuna Mohd Şərifin çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri hörmətli cənab İlham Əliyev!

BMT-nin Baş katibi zati-aliləri hörmətli cənab Antonio Quterreş!

COP29-un prezidenti zati-aliləri hörmətli cənab Muxtar Babayev!

Hörmətli dövlət başçıları, nümayəndə heyətlərinin rəhbərləri, COP29 Sammitinə təşrif buyuran qonaqlar, səfirlər, merlər!

Əssalamu aleykum və rəhmətullahi və bərəkətuhu. Günortanız xeyir.

Bu auditoriyada iqlim böhranı barədə açılış sözü ilə çıxış etmək həqiqətən də böyük şərəfdir. Mer, icma rəhbəri, qadın lider, eyni zamanda, bir nənə olaraq xalqın sözünü sizə çatdırmaq imkanı yaratdığınıza görə hər birinizə təşəkkür edirəm. Belə tədbirlər həqiqətən də həssas qruplardan və icmalardan olan, iqlim dəyişikliyindən əziyyət çəkən insanların səsini çatdırmaq üçün yaxşı fürsətdir. Tam əminliklə deyə bilərəm ki, hər birimiz ümidlərimizi reallaşdırmaq və daha nikbin bir gələcək üçün çalışmaqda davam edəcəyik.

BMT Məskunlaşma Proqramının sabiq icraçı direktoru olaraq, COP29 sədrliyinə təşəkkürümü, eyni zamanda, uzaqgörən əməkdaşlıq əsasında həm Dubay, həm də digər tərəflərlə davamlı şəkildə bu COP-un keçirilməsi münasibətilə təbriklərimi çatdırıram. COP29 sədrliyinə təşəkkürümü bildirirəm ki, şəhərsalma və iqlim dəyişmələri ilə bağlı tədbirlərə davamlı şəkildə nazirlik səviyyəsində ev sahibliyi etdiniz. Dubayda keçirilmiş COP28-dən sonra çoxtərəfli iqlim dəyişmələri ilə bağlı fəaliyyəti müxtəlif tədbirlərlə davam etdirmisiniz. Malayziyanın paytaxtı Kuala-Lumpurun meri olaraq təsdiq edə bilərəm ki, iqlim dəyişmələrinin təhlükələri çox realdır. Bir çox şəhərlərdə olduğu kimi, bizim şəhərimizdə də uzunmüddətli istilik dalğalarından tutmuş, ən böyük qasırğalara qədər müxtəlif təbii fəlakətlərin şahidi oluruq. Biz bu problemlərin həllinə töhfə verə bilərik. Davamlı olaraq şəhərlərdə yaşıllıq sahələrinin yaradılmasına investisiya ayırmalı və karbon emissiyalarının azaldılmasına töhfə verməliyik. Şəhər mərkəzlərinin, biomüxtəliflik qovşaqlarının yaradılması, şəhərlərin biomüxtəlifliklə zəngin mühitlərə çevrilməsi də daxil olmaqla, ekstremal iqlim hadisələrinin qarşısını almaq üçün təbiət əsaslı həllər təklif edirik.

2040-cı ilə qədər 1,3 milyard plastik torba artıq mühitdə olacaq. Bizim qanımızda, hətta uşaqların, hamilə qadınların qanında mikroplastik elementlər qeydə alınır. Bütün bu çağırışlara baxmayaraq, düşünürəm ki, bizim şəhərimiz ən uğurlu şəhərlərdən biridir, nisbətən təhlükəsiz bölgədə yerləşməklə biz özümüzü şanslı hiss edirik.

Cənab Prezident, COP29-a Azərbaycanda, Bakıda ev sahibliyi etdiyinizə görə təşəkkür edirəm. Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız. Sülh olmadan dayanıqlı inkişaf barədə danışmaq mümkün deyil. Dayanıqlı inkişaf olmadan da biz sülhü yarada bilmərik. Mən Azərbaycana Dayanıqlı İnkişaf Məqsədlərinə verdiyi töhfələrə görə təşəkkür edirəm. Siz öz şəhərlərinizi yenidən bərpa edirsiniz. Bunu Dayanıqlı İnkişaf Məqsədlərinə əsasən edirsiniz.

Bildiyimiz kimi, azərbaycanlı şair Nizami Gəncəvi öz şeirlərində söyləyib ki, müxtəlif çətin çağırış dövrlərində imkanlar tapmaq lazımdır. Bu imkanlar məhz sülh ilə gələcək və təbiətlə sülh yaratmalıyıq. Bu səbəbdən də bütün üzv dövlətlərdən və təşkilatlardan multilateral yanaşmağı və BMT-yə dəstək göstərməyi xahiş edirəm. COP29-da daha dəqiq tədbirlər, vaxtlar və son tarixlər ilə bir yerdə planetimizi qorumalıyıq. İndiki və gələcək nəsillərə daha sağlam bir planet miras qoymalıyıq. İtki və Zərər Fondunu, COP29 maliyyə fondunu təmin edən bir sammit olaraq da əmin olmalıyıq ki, lazımi vəsait ən çox ehtiyac duyan insanlara çatacaqdır.

Xanımlar və cənablar, eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürümü bildirirəm ki, şəhərsalma və urbanizasiya proseslərində davamlı şəkildə iştirak etməyə imkan yaratmışdır. COP29 Məşvərət Şurasına və eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə gənclərlə, gənc alimlərlə birlikdə innovativ ideyalar irəli sürmək və müzakirə etmək imkanına görə təşəkkür edirəm.

Eyni zamanda, gender bərabərliyinə əsaslanan bir platformada öz tövsiyələrimizi paylaşmağa, gələn il Qlobal Bakı Forumunda da bu istiqamətdə müzakirələr aparmağa davam edəcəyik.

İki həftə Azərbaycanda davam edəcək COP29 Sammitinə qatılan dövlətlərə, maraqlı tərəflərə və biznes sektoruna müraciət etmək istəyirəm ki, mühüm nailiyyətlərə imza ata bilmək üçün daha sıx əməkdaşlıq etməli, təcili tədbirlər görməliyik. Bu gün burada Malayziyanın Ətraf Mühit naziri də iştirak edir. Biz əvvəlcə planetimizi, insanları, sonra öz mənfəətimizi düşünməliyik.

Hörmətli cənab Prezident!

Zati-aliləri!

Hər birinizə təşəkkür edirəm. Burada çoxtərəfli iqlim dəyişmələri ilə mübarizə tədbirləri barədə müzakirələr aparırıq. Fikrimcə, bəyanatlar kifayətdir, artıq fəaliyyətə başlamalı, bunu əməldə göstərməliyik. Nizami Gəncəvi də əsrlər öncə bunu söyləyib. Bizim əməllərimiz bizə imkan verəcək ki, bu öhdəliklərə cavab verək, onları icra edək. Yer kürəmizə, planetimizə, sülhə gəlin bir yerdə şans yaradaq və nəticə etibarilə gələcəyimizi qoruya bilək.

Hər birinizdən, burada əyləşən bütün dövlət başçılarından, bütün liderlərdən xahiş edirik ki, müharibələrə son qoyun. Heç bir dayanıqlı inkişaf müharibə şəraitində mümkün deyil. Gəlin son nəfəsimizə qədər sülhə can ataq. Sağ olun.

* * *

*Sammitdə NASA astronavtları Sunita Vilyans və Nik Heyqin Beynəlxalq Kosmik Stansiyadan xüsusi videomüraciəti nümayiş olundu.*

**Sunita Vilyams**: Beynəlxalq Kosmik Stansiyadan sizi salamlayırıq və NASA-dan olan həmkarımla birlikdə bu mesajı göndəririk.

**Nik Heyq:** Kosmosdan Yer planetinə baxdığımız zaman görürük ki, həqiqətən, biz bir-birimizə bağlıyıq. Qasırğalara, əriyən buzlaqlara, yanğınlara baxdığımız zaman görürük ki, planetimiz hər saniyə dəyişir.

Bu stansiyadan müşahidə apardığımız zaman tərəfdaşlarımız və NASA əməkdaşları mesajımızı səmərəli şəkildə dünya ilə paylaşmağa hazırdır.

**Sunita Vilyams:** Bizim missiyamız dəniz səviyyəsi, qaz emissiyaları, artan temperatur, səhralaşma, flora və faunadakı problemlər barədə məlumatları kosmosdan Yer kürəsinə ötürməkdir.

Biz beynəlxalq komanda olaraq, Azərbaycana, eyni zamanda, COP29-da iştirak edən bütün tərəflərə planetimizin gözəlliyini və təhlükəsizliyini qoruduğuna görə təşəkkürümüzü bildiririk.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına COP29-un uğurla keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və Azərbaycanın qısa müddət ərzində belə bir möhtəşəm tədbirə ev sahibliyi etməsini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, COP29 tədbirinin keçirildiyi məkan 8 aylıq bir dövr ərzində hazırlanıb və burada yüksək ətraf mühit standartlarına və davamlılıq prinsiplərinə riayət olunub.*

*Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, Prezident İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Liderlər Sammitinin açılışı mərasimində çox məzmunlu çıxış edib. Türkiyə Prezidenti tədbir çərçivəsində təşkil olunmuş mədəni təqdimatın da nəfis qaydada hazırlandığını söylədi.*

*Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## FIFA-nın PREZİDENTİ CANNİ İNFANTİNO İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də FIFA-nın prezidenti Canni İnfantino ilə görüşmüşdür.*

*FIFA-nın prezidenti xatirə hədiyyələrini və xüsusi olaraq hazırlanmış, üstündə Azərbaycan Prezidentinin adı və soyadı olan topu dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə Canni İnfantinoya təşəkkürünü bildirdi.*

*Qonaq da öz növbəsində, COP29-a dəvətə və bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.*

*Söhbət zamanı Azərbaycanda idmanın bütün növləri kimi, futbola da göstərilən dövlət qayğısı qeyd olundu, Canni İnfantinonun ölkəmizdə futbolun inkişafına verdiyi dəstəyə görə minnətdarlıq bildirildi.*

*Görüşdə Azərbaycan ilə FIFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı, bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminlik ifadə olundu. Azərbaycanda FIFA-nın təşkilatçılığı ilə tədbirlərin keçirilməsi məsələsi müzakirə edildi.*

## İSPANİYA KRALLIĞI HÖKUMƏTİNİN SƏDRİ PEDRO SANÇEZ İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İspaniya Krallığı Hökumətinin Sədri Pedro Sançez ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev İspaniyada baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı başsağlığını çatdırdı.*

*Pedro Sançez göstərilmiş həmrəyliyə və başsağlığına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı dəvəti qəbul edib COP29-da iştirak etdiyinə görə İspaniya Krallığı Hökumətinin Sədrinə təşəkkürünü ifadə etdi, onun ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyinə ümidvar olduğunu dedi.*

*Pedro Sançez COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bu tədbirin yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.*

*Qonaq qeyd etdi ki, gələn il İspaniyada BMT-nin davamlı inkişafın maliyyələşməsinə həsr olunmuş böyük tədbirinin keçirilməsi planlaşdırılır və COP29-un nəticələri də onun uğurlu olması işinə xidmət edəcəkdir.*

*Prezident İlham Əliyev COP29-un artıq səmərəli nəticələr verməyə başladığını məmnunluqla vurğuladı.*

*İspaniya Krallığı Hökumətinin Sədri Azərbaycanın Sivilizasiyalar Alyansına göstərdiyi töhfəni yüksək qiymətləndirdi.*

*Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı, bunun üçün birgə işçi qrupunun yaradılması və biznes-forumların keçirilməsi barədə razılıq əldə olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında sənaye, kənd təsərrüfatı, investisiyalar, infrastruktur layihələrinin icrası sahələrində böyük imkanların olduğu qeyd edildi, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, Azərbaycanda İspaniya universitetlərinin açılması perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ VƏLİƏHDİ ŞAHZADƏ II ƏL-HÜSEYN BİN ABDULLAH İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İordaniya Haşimilər Krallığının Vəliəhdi şahzadə II əl-Hüseyn bin Abdullah ilə görüşmüşdür.*

*Vəliəhd şahzadə II əl-Hüseyn bin Abdullah atası – İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn əl-Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kral II Abdullah ibn əl-Hüseynə çatdırmağı xahiş etdi.*

*Qonaq COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı. İlk dəfə Azərbaycanda olduğunu bildirən İordaniya Haşimilər Krallığının Vəliəhdi ölkəmizdə gördüyü inkişaf proseslərinin onda böyük təəssürat hissi yaratdığını dedi.*

*Söhbət zamanı Qəzzaya humanitar yardımların göstərilməsində Azərbaycanla İordaniyanın birgə əməkdaşlığı və ölkəmizin Birləşmiş Millətlər Təşkilatının Yaxın Şərqdə Fələstinli Qaçqınlara Yardım və İşlər üzrə Agentliyi (UNRWA) vasitəsilə də Fələstinə humanitar yardımları qeyd edildi.*

## KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ŞEYX SABAH XALİD ƏL-HƏMƏD ƏL-SABAH İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Küveyt Dövlətinin Vəliəhdi şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşmüşdür.*

*Qonaq Prezident İlham Əliyevə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Liderlər Sammitinin açılışı mərasimindəki məzmunlu çıxışına görə minnətdarlığını bildirdi.*

*O, dövlətimizin başçısının Azərbaycanla Küveyt arasında əməkdaşlığın inkişafına daim öz dəstəyini verdiyini vurğuladı.*

*Söhbət zamanı birgə iqtisadi Komissiyanın fəaliyyətinin canlandırılması qeyd olundu, turizm sahəsində əməkdaşlığa toxunuldu, Küveytdən olan turistlərin Azərbaycana səfərlərindən məmnun qaldıqları vurğulandı.*

*Görüşdə ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## QANA RESPUBLİKASININ PREZİDENTİ NANA ADDO DANKUA AKUFO-ADDO İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Qana Respublikasının Prezidenti Nana Addo Dankua Akufo-Addo ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev dəvəti qəbul edib COP29 tədbirində iştirak etdiyinə görə Nana Addo Dankua Akufo-Addoya minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Qana Prezidentinin ölkəmizə bu səfəri əlaqələrimizin perspektivlərinin və əməkdaşlığımızın mümkün istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaradır.*

*COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıran Nana Addo Dankua Akufo-Addo bu tədbirə dəvətə görə minnətdarlığını bildirdi və onun yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla vurğuladı.*

*Qana Prezidenti qeyd etdi ki, dövlətimizin başçısının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Liderlər Sammitinin açılışı mərasimindəki məzmunlu və dolğun çıxışı dərin təəssürat yaradıb.*

*Qonaq bu tədbir çərçivəsində Azərbaycan mədəniyyətinin inciləri ilə də tanış olmaq imkanı əldə etdiyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Qana arasında əlaqələrin inkişaf etdirilməsi perspektivləri müzakirə olundu, iqtisadiyyat, biznes əlaqələri, sərmayə qoyuluşu, beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

*Münasibətlərimizi, o cümlədən iqtisadi əlaqələri inkişaf etdirmək üçün müxtəlif sahələri əhatə edən nümayəndə heyətlərinin səfərlərinin həyata keçirilməsi barədə razılıq əldə olundu.*

*Görüşdə elm və təhsil sahəsində əməkdaşlığa toxunularaq, Qanadan olan tələbələrin Azərbaycanda təhsil aldıqları və bu təhsildən çox məmnun qaldıqları bildirildi.*

## MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ KARDİNAL PİETRO PAROLİN İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Müqəddəs Taxt-tacın Dövlət katibi kardinal Pietro Parolin ilə görüşmüşdür.*

*Söhbət zamanı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin dostluq və harmoniya şəraitində yaşamaları məmnunluqla qeyd olundu.*

*Dövlətimizin başçısı vurğuladı ki, ölkəmizdə multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, eyni zamanda, bizim həyat tərzimizdir.*

*Müqəddəs Taxt-tacın Dövlət katibi Azərbaycanda ikinci katolik kilsənin layihələndirilməsi və tikilməsi prosesinə görə təşəkkürünü bildirdi. Bu, ölkəmizdə multikulturalizmə və dinlərarası dialoqa verilən töhfənin nümunəsi kimi dəyərləndirildi.*

*Prezident İlham Əliyev qədim xristian irsi olan Alban irsinin də Azərbaycanda dövlət tərəfindən qorunduğunu dedi və ölkəmizin ən erkən və qədim xristian icmalarının yaşadığı məkan olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun Vatikanda və dünyanın müxtəlif region-*

*larında xristian irsinin bərpasına verdiyi töhfə yüksək qiymətləndirildi.*

*Azərbaycan ilə Vatikan arasında əlaqələrdən məmnunluq ifadə olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə Andjey Dudaya minnətdarlığını bildirdi. Polşa Prezidenti ilə görüşlərini məmnunluqla xatırladan dövlətimizin başçısı Andjey Dudanın ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu dedi.*

*Andjey Duda COP29-a dəvətə görə Azərbaycan Prezidentinə minnətdarlığını ifadə edərək, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı və bununla bağlı təbriklərini çatdırdı.*

*Söhbət zamanı qlobal iqlim gündəliyinin vacibliyi qeyd olundu.*

*Polşa ilə Azərbaycan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, Azərbaycan–Avropa İttifaqı əlaqələri və regional məsələlər müzakirə edildi.*

*Azərbaycanda olan Polşa irsi, həmçinin polyak memarların Bakı şəhərində müxtəlif abidələrin memarlığında iştirakı da qeyd olundu.*

## ÇEX RESPUBLİKASININ BAŞ NAZİRİ PETR FİALA İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Çex Respublikasının Baş Naziri Petr Fiala ilə görüşmüşdür.*

*COP29 tədbirinə dəvətə görə minnətdarlığını ifadə edən Petr Fiala Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu bildirdi. Çex Respublikasının Baş Naziri COP29-un yüksək səviyyədə təşkil olunduğunu vurğuladı və bununla bağlı dövlətimizin başçısını təbrik etdi. O, COP miqyasında tədbirin belə bir qısa müddətdə təşkil edilməsinin heç də asan olmadığını söylədi.*

*Qonaq qeyd etdi ki, tədbirin açılışı mərasimində Azərbaycan mədəniyyətini əks etdirən çox gözəl təqdimat nümayiş olundu.*

*Dövlətimizin başçısı Azərbaycan tərəfindən COP29-a hazırlıq tədbirlərinin qısa müddət ərzində yüksək səviyyədə həyata keçirildiyini və digər COP sədri ölkələrindən fərqli olaraq, bizim hazırlıq üçün çox az vaxtımızın olduğunu vurğuladı.*

*Tədbirin mahiyyəti üzrə aparılan danışıqlar prosesində artıq irəliləyişlərin əldə olunduğunu, qısa müddət ərzində gündəliyin razılaşdırıldığını deyən Prezident İlham Əliyev bu xüsusda vurğuladı ki, 10 ildən*

*çoxdur müzakirələrin aparılmasına baxmayaraq, Paris Sazişinin karbon ticarəti üzrə 6-cı maddəsi ilə bağlı indiyədək irəliləyişlər əldə olunmamışdır. Ancaq dünən məhz Bakıda bununla əlaqədar müvafiq irəliləyişlərin olduğunu vurğulayan dövlətimizin başçısı bunu müsbət addım kimi qiymətləndirdi.*

*Prezident İlham Əliyev 2022-ci ildə Avropa Siyasi Birliyi çərçivəsində Çex Respublikasına səfərini məmnunluqla xatırlatdı.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ KİR STARMER İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri Kir Starmer ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev bunun Britaniya Baş Nazirinin Azərbaycana ilk səfəri olduğunu qeyd etdi. Bildirdi ki, bu səfər Azərbaycanla Böyük Britaniya arasında əlaqələrdə mühüm əhəmiyyət daşıyır və tarixi bir səfərdir.*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri Prezident İlham Əliyevi COP29-un Azərbaycanda keçirilməsi və ölkəmizin bu tədbirə sədrliyi münasibətilə təbrik etdi.*

*İqlim dəyişmələri məsələlərinin Britaniyanın gündəliyində vacib, prioritet məsələlərdən olduğunu deyən Baş Nazir Azərbaycan tərəfindən qlobal iqlim dəyişmələri ilə mübarizəyə verilən töhfənin təqdir olunduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın COP29-un təşkili ilə əlaqədar vaxtının az olmasına baxmayaraq, qısa müddət ərzində bütün təşkilati işlərin həyata keçi-*

*rildiyini dedi. Prezident İlham Əliyev bu tədbirin mahiyyəti üzrə olan danışıqlar prosesində də artıq irəliləyişlərin olduğunu bildirdi. Bu xüsusda, Paris razılaşmasının 6-cı bəndi üzrə əldə olunmuş irəliləyişləri müsbət addım kimi qiymətləndirdi.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərə dair müzakirələr aparıldı, bp-nin sərmayələri ilə Cəbrayılda Günəş panel stansiyasının tikintisi layihəsi yüksək qiymətləndirildi. Qeyd olundu ki, bu layihə dünyanın ən böyük neft-qaz terminallarından biri olan Səngəçalda istifadə edilən enerjinin bərpa olunan enerjiyə keçidini və dekarbonizasiyasını təmin edəcək.*

*Söhbət zamanı Böyük Britaniyanın Azərbaycanda minaların təmizlənməsi işinə verdiyi dəstək yüksək qiymətləndirildi.*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesi ilə maraqlandı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, hazırda tərəflər arasında sülh müqaviləsi üzrə danışıqlar davam etdirilir, bu müqavilənin mətninin xeyli hissəsi artıq razılaşdırılıb, sərhədlərin delimitasiyası və demarkasiyası sahəsində də Ermənistan ilə Azərbaycan arasında ciddi irəliləyiş var, 12 kilometrdən artıq sərhəd xətti nəinki delimitasiya olunub, hətta demarkasiyası həyata keçirilib ki, komissiyanın son görüşündə də bu prosesin irəli aparılması barədə razılıq əldə olunub.*

*Amma bütün bunlarla yanaşı, dövlətimizin başçısı Ermənistanın konstitusiyasında Azərbaycana qarşı*

*olan ərazi iddialarının aradan qaldırılmasının vacibliyini bildirdi.*

*Azərbaycan Prezidenti sülh prosesinin irəli aparılması və sülh müqaviləsinin imzalanması üçün xalqların sülhə hazırlanmasının önəmini vurğuladı.*

## ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Albaniya Respublikasının Baş Naziri Edi Rama ilə görüşmüşdür.*

*Görüşdə əvvəlcə SOCAR, Albaniyanın İnfrastruktur və Energetika Nazirliyi və «Albgaz» şirkəti arasında Anlaşma Memorandumu imzalandı. SOCAR-ın həyata keçirəcəyi bu layihə Albaniyanın Korça şəhərində kömürdən və oduncaqdan istifadənin qarşısını alaraq, dekarbonlaşma prosesinə ciddi töhfə verəcək və beləliklə bu, dekarbonlaşmaya xidmət edən layihə olacaq.*

*Söhbət zamanı Albaniyanın Baş Naziri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılışı mərasimində Prezident İlham Əliyevə dolğun və məzmunlu çıxışına görə təşəkkür etdi.*

*Azərbaycan ilə Albaniya arasında əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə göstərdiyi qarşılıqlı dəstək yüksək qiymətləndirildi və təqdir olundu.*

## BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR KONFRANSININ 29-cu SESSİYASININ LİDERLƏR SAMMİTİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Gülüstan sarayı*

*12 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 12-də Gülüstan sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılışı mərasimində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil edilmiş ziyafətdə iştirak etmişlər.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ ODİL RENO-BASSO İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) prezidenti Odil Reno-Basso ilə görüşmüşdür.*

*İlk olaraq, Prezident İlham Əliyev və Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Bassonun iştirakı ilə «Gəncə şəhərində su təchizatı və kanalizasiya sistemlərinin, yağış sularının idarəetmə sisteminin yenidən qurulması və tullantı sularının təmizlənməsi qurğusunun tikintisi üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Anlaşma Memorandumu»nun imzalanması mərasimi oldu.*

*Görüşdə dövlətimizin başçısı imzalanan Memorandumun əhəmiyyətinə toxundu, bununla da əməkdaşlığımızın gündəliyində çox mühüm bir səhifənin açıldığını dedi və bu sənədin imzalanmasını əməkdaşlığımızda növbəti önəmli mərhələ kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Odil Reno-Bassonun COP29-da iştirakına görə təşəkkürünü bildirdi. Tədbirin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu-*

*rada artıq çox səmərəli nəticələrin əldə olunduğunu qeyd etdi.*

*Qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə minnətdarlığını bildirən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti COP29-un çox əhəmiyyətli bir tədbir olduğunu dedi. Qonaq imzalanan sənədi əməkdaşlığımızda önəmli hadisə kimi qiymətləndirdi.*

*Söhbət zamanı Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında perspektiv layihələr və əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

# ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ GÖRÜŞ

*13 noyabr  2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşmüşdür.*

*Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. Ali qonaq dedi ki, Özbəkistanda Azərbaycana xüsusi münasibət vardır.*

*İkitərəfli münasibətlərimizin inkişafında tarixi bir dövrün olduğunu vurğulayan Özbəkistan Prezidenti ölkələrimiz arasında bu il imzalanmış Müttəfiqlik münasibətləri haqqında Müqaviləni qeyd etdi. Şavkat Mirziyoyev nümayəndə heyətlərimizin yaxından işlədiyini, qarşıya qoyulan layihələrin uğurla icra edildiyini dedi.*

*Prezident İlham Əliyev ölkəmizə səfərə gələrək COP29-da iştirak etdiyinə görə Özbəkistanın dövlət başçısına təşəkkürünü bildirdi.*

*İmzalanmış sənədlərin önəminə toxunan Azərbaycan Prezidenti dedi ki, «yaşıl enerji»nin inkişafı və*

*ötürülməsi layihələrinin həyata keçirilməsi əlaqələrimizin mahiyyətini göstərir.*

*Dövlətimizin başçısı Xankəndi şəhərində Tikiş fabrikinin inşası ilə bağlı layihəyə görə minnətdarlığını bildirdi və burada xeyli sayda insanın işlə təmin olunacağının önəmini vurğuladı.*

*Söhbət zamanı Bakıda «Özbəkistan Evi», Özbəkistanda isə «Azərbaycan Evi» layihələrinin icrasından məmnunluq bildirildi, ölkəmizin Özbəkistanda ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində layihələrlə bağlı fikir mübadiləsi aparıldı.*

*Sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində Tikiş fabrikinin videobağlantı vasitəsilə açılışı mərasimi oldu.*

**İlham Əliyev:** Təbrik edirəm.

**Şavkat Mirziyoyev:** Təbrik edirəm. Uğurlu başlanğıcdır.

**İlham Əliyev:** Burada həm Azərbaycan dilində, həm də özbək dilində yazılıb. Sözlər eynidir.

Bu fabrik birliyimizin daha bir rəmzidir. Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu məşğulluqdur, istehsaldır, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız burada da birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər. Mən Şavkat Miromonoviçə, bütün özbək

dostlarımıza və qardaşlarımıza belə qardaşlıq münasibətinə görə bir daha minnətdarlığımı bildirir və bu müəssisənin açılışı münasibətilə sizi təbrik edirəm.

* * *

*Tikiş fabrikinin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə Prezidentinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Müəssisə həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək. Regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək fabrikdə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək. Ərazisi 1,2 hektar olan fabrikdə ildə 3–5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal ediləcək. Burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib. Azərbaycan–Özbəkistan birgə müəssisəsi olan Tikiş fabriki iki ölkə arasında uğurlu əməkdaşlığın rəmzi olaraq ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ənənəvi dostluq, iqtisadi tərəfdaşlıq əlaqələrimizi möhkəmləndirir.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV VƏ ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ ÜÇTƏRƏFLİ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin noyabrın 13-də üçtərəfli görüşü olmuşdur.*

*Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları «Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında «yaşıl enerji»nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Daha sonra prezidentlər çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Kasım-Jomart Kemeleviç!

Hörmətli Şavkat Miromonoviç!

Əziz dostlar!

Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə

qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və «yaşıl enerji» sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən «yaşıl enerji»nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir.

Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpa olunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır.

Dünən konfransdakı çıxışımda Azərbaycandan Qara dənizin dibi ilə Avropaya kabel xətti çəkməsi ilə bağlı ölkəmizin artıq həyata keçirilməkdə olan planlarından danışdım. Bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir və bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik. Xüsusilə sevindirici haldır ki, bu saziş hər zaman bir-birinə yaxın olan üç qardaş ölkə arasında imzalanır. Özbəkistanla münasibətlərimiz bu il müttəfiqlik münasibətləri səviyyəsinə çatıb, müvafiq saziş imzalanıb. Qazaxıstanla artıq uzun müd-

dətdir ki, strateji tərəfdaş kimi əməkdaşlıq edirik. Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır.

Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Yaradıcılıq Mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur. Əminəm ki, biz gələcəkdə də həmişə bir yerdə olacağıq və bir-birimizi dəstəkləyəcəyik. Əziz qardaşlarım Kasım-Jomart Kemeleviçə və Şavkat Miromonoviçə COP29-da iştirak etdiklərinə və öz iştirakları və dəyərli fikirləri, mesajları ilə tədbirimizi zənginləşdirdiklərinə görə minnətdaram.

Əziz dostlarıma, qardaşlarıma bir daha təşəkkür etmək istəyirəm. Həmçinin bu gün burada iştirak edən əziz dostumuz, Səudiyyə Ərəbistanının nazirinə və Səudiyyə Ərəbistanından olan bütün dostlarımıza minnətdarlığımı ifadə edirəm. Dünən haqqında danışdığım «ACWA Power» şirkəti bizim yaxşı tərəfdaşımız, investorumuzdur və həm Azərbaycanda, həm də Mərkəzi Asiyada fəaliyyət göstərir. Bu gün bu mərasimdən sonra əməkdaşlığımızı genişləndirən daha bir mərasim olacaq. Bu, Yaxın Şərqi, Mərkəzi Asiyanı, Xəzər regionunu, Qafqazı, Qara dənizi və Avropanı əhatə edir.

Beləliklə, mən bizim hamımızı təbrik edirəm və arzum budur ki, bu layihənin tezliklə həyata keçirilməsinin şahidi olaq. Sağ olun.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin çıxışı

Hörmətli İlham Heydər oğlu!
Hörmətli Şavkat Miromonoviç!
Xanımlar və cənablar!

Bu gün biz davamlı inkişaf üçün ümumi səylərimizin tarixində yeni səhifə açırıq. Strateji Tərəfdaşlıq Sazişinin imzalanması Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafı üzrə üçtərəfli əməkdaşlıqda mühüm mərhələdir. Sənəd dövlətlərimizin enerji sistemlərinin inteqrasiyası, habelə ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı dəhlizlərin yaradılmasında yeni imkanlar açır. Qazaxıstan böyük tranzit ərazi kimi, burada son dərəcə mühüm rol oynayır. Bu sazişin praktiki nəticələri «Orta Dəhliz»in iqtisadiyyatlarımızı birləşdirən «yaşıl körpü» qismində inkişafına töhfə verəcək. Bu əsas sahədə sıx əməkdaşlıq 3 dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcəkdir.

«Yaşıl enerji» karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir. Biz qazıntı resurslarından asılılığımızı azaltmaq, texnoloji yenilikləri inkişaf etdirmək və ekoloji davamlılığımızı dəstəkləyə biləcək infrastruktur yaratmaq üçün fəal işləyirik. Qazaxıstan xarici tərəfdaşlarla ümumi gücü 43 giqavat olan «yaşıl layihə»lərin həyata keçirilməsinə dair razılaşmalar əldə edib.

Mən burada Səudiyyə Ərəbistanının Energetika nazirini, eləcə də tanınmış «ACWA Power» şirkətinin nümayəndələrini salamlamaq istərdim. Əməkdaşlığınıza görə sizə minnətdarıq.

Əziz dostlar, bugünkü saziş ortaq məsuliyyət, qarşılıqlı etimad və strateji tərəfdaşlığın dərk edilməsinin dünyanı yaxşılığa doğru necə dəyişdirdiyinin parlaq nümunəsi olacaqdır.

Yekun olaraq, İlham Heydər oğluna və Şavkat Miromonoviçə, həmçinin danışıqlar prosesinin bütün iştirakçılarına bu gün nəticələrini müşahidə edə biləcəyimiz səmərəli işə görə səmimi təşəkkürümü bildirmək istəyirəm.

Planlarımızın həyata keçirilməsində hamımıza uğurlar arzulayıram, onlar mahiyyət etibarilə çox perspektivli, hətta deyərdim ki, iddialıdır. Qoy bu strateji tərəfdaşlıq gələcək nailiyyətlərin bünövrəsinə çevrilsin və regionun, bütövlükdə dünyanın davamlı inkişafı üçün yeni imkanlar açsın.

Diqqətinizə görə təşəkkür edirəm.

### Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli Kasım-Jomart Kemeleviç!

Sizi salamlayıram. Əvvəlcə, Birləşmiş Millətlər Təşkilatının İqlim Sammitinin uğurla keçirilməsi münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istərdim. Biz hamımız gördük ki, bu, Azərbaycanın nüfuzunun tanınmasıdır. Regionumuzda ilk

dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir. Bu gün biz Avropaya birlikdə yeni «yaşıl enerji» dəhlizi yaradırıq. Bu da tarixi hadisədir. Mən də fürsətdən istifadə edərək, çox işlər görən və görməyə çalışan Səudiyyə Ərəbistanının Energetika nazirini təbrik etmək istəyirəm. Biz 3 ölkə çox mehriban əməkdaşlıq edirik, Səudiyyə Ərəbistanı və «ACWA Power» şirkəti Özbəkistanda da çox iş görür. Mən çox minnətdaram ki, onlar bunu məmnuniyyətlə həyata keçirirlər və regionumuzda çox fəal iştirak edirlər.

Bərpa olunan enerji təkcə iqtisadi məqsəd deyil. Bu bizim gələcəyə verdiyimiz töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin nəticəsidir. Mən bu layihənin ekoloji əhəmiyyətini xüsusilə qeyd etmək istərdim. Nəql ediləcək enerji külək və Günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpa olunan və təmiz mənbədir. Bununla biz Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı dəstəkləyirik. Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpa olunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər. Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər aparılır, «yaşıl enerji»nin inkişafı üçün böyük proqram qəbul edilib. Biz 2030-cu ilədək bərpa olunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırırıq. Bundan başqa, ilin sonunadək biz əlavə olaraq 2,6 giqavat bərpa olunan enerji və

300 meqavat enerjisaxlama sistemlərini şəbəkəyə birləşdirəcəyik. Hər il təxminən 2 giqavat Günəş və külək enerjisi istehsal etmək gücünü işə salırıq.

Hörmətli tədbir iştirakçıları, bu layihənin həyata keçirilməsinin iqtisadi səmərəsini dövlətlərimizin hamısı hiss edəcək. Minlərlə iş yeri açılacaq, enerji infrastrukturu inkişaf etdiriləcək, texnoloji və biznes əlaqələri genişlənəcək və bunun əsas nəticəsi olaraq, əhalimizin həyat səviyyəsi yüksələcək. Bu layihənin icrasını sürətləndirmək üçün qarşımızda bir sıra mühüm vəzifələr durur. Bu çox böyük və iddialı layihədir, biz bu iddialı layihənin həyata keçirilməsini sürətləndirmək üçün hər şey edəcəyik. Bu, birgə müəssisənin yaradılması, texniki-iqtisadi əsaslandırmanın hazırlanması, maliyyələşdirmə mənbələrinin və tender prosedurlarının razılaşdırılmasıdır. Biz, bütün iştirakçılar bu prosesləri mümkün qədər sürətləndirməliyik. Mən bu mühüm regional layihənin birgə həyata keçirilməsinə sadiqliyimizi bir daha təsdiqləmək istərdim.

* * *

*Daha sonra Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında «Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı»nın imzalanması mərasimi oldu.*

*İmzalanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və Səudiyyə Ərəbistanının Energetika naziri şahzadə Əbdül Əziz bin Salman Al Səudun görüşü keçirildi.*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUMEN RADEV İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşmüşdür.*

*Əvvəlcə, Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə «SOCAR və «Asarel Energy» arasında Birgə İnkişaf Sazişi imzalandı.*

*Görüşdə Prezident İlham Əliyev imzalanan sənədin əhəmiyyətini vurğuladı, bunun əməkdaşlığımızın möhkəmlənməsi işinə verdiyi töhfəyə toxundu.*

*Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə Bolqarıstan Prezidentinə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti bu tədbirin artıq səmərəli nəticələr verdiyini deyərək vurğuladı ki, Paris Sazişinin karbon ticarəti üzrə 6-cı maddəsi ilə bağlı 10 ildən çoxdur müzakirələrin aparılmasına və indiyədək irəliləyişlərin əldə edilməməsinə baxmayaraq, məhz COP29-da bununla əlaqədar müvafiq irəliləyişlərə nail olunub.*

*COP29-un əhəmiyyətinə toxunan Bolqarıstan Prezidenti bu tədbirin mükəmməl səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, burada əldə edilən nəticələr gələcək üçün böyük əhəmiyyət daşıyacaq.*

*Rumen Radev ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı.*

*Görüşdə bərpa olunan enerji sahəsində yeni əməkdaşlıq layihələri müzakirə olundu, COP29 çərçivəsində beynəlxalq maliyyə və bank təşkilatlarının yeni maliyyə hədəfi ilə bağlı verdikləri açıqlamaların ciddi ümidlər vəd etdiyi bildirildi.*

## TOQO RESPUBLİKASININ PREZİDENTİ FOR ESSOZİMNA QNASSİNQBE İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Toqo Respublikasının Prezidenti For Essozimna Qnassinqbe ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı COP29 tədbirində iştirak etdiyi üçün Toqo Prezidentinə təşəkkürünü bildirdi.*

*For Essozimna Qnassinqbe COP29-a dəvətə görə minnətdarlığını ifadə edərək, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Afrika ölkələri, o cümlədən Toqo ilə münasibətlərə böyük əhəmiyyət verir.*

*Söhbət zamanı ikitərəfli əməkdaşlıq məsələlərinə toxunuldu, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## KONQO RESPUBLİKASININ PREZİDENTİ DENİ SASSU-NQESSO İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə görüşmüşdür.*

*COP29-un yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevi təbrik edən Deni Sassu-Nqesso ölkəmizə rəsmi səfərini məmnunluqla xatırlatdı.*

*Ali qonaq Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı. Azərbaycanın müxtəlif nazirliklərinin ekspertlərindən ibarət nümayəndə heyətinin tezliklə Konqoya səfərinin təşkil edilməsi, iqtisadiyyat, ticarət, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq imkanlarına baxılması məsələsi qeyd olundu. Konqodan olan tələbələrin ölkəmizdə təhsil almalarına yaradılan şəraitə görə minnətdarlıq ifadə edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Dövlətimizin başçısı COP29-da substantiv məsələlər üzrə də yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Bununla belə, prosesin bundan sonra da, yəni tədbirin sonuna qədər davam etdiriləcəyi vurğulandı.*

*Bu xüsusda, Paris Sazişinin 6-cı bəndi üzrə əldə edilmiş ilkin razılaşmalar müsbət qiymətləndirildi. Həmçinin İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması və ona əlavə maliyyə töhfələrinin verilməsi məsələsinə toxunuldu. Görüşdə beynəlxalq maliyyə və bank təsisatları tərəfindən yeni maliyyə hədəfi ilə əlaqədar bəyan edilən mövqenin bu istiqamətdə müsbət addım olduğu qeyd edildi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD ŞAHBAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Pakistan İslam Respublikasının Baş Naziri Məhəmməd Şahbaz Şərif ilə görüşmüşdür.*

*Məhəmməd Şahbaz Şərif Pakistan Prezidenti Asif Əli Zərdarinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*COP29-un yüksək səviyyədə təşkil olunması münasibətilə dövlətimizin başçısını təbrik edən Məhəmməd Şahbaz Şərif vurğuladı ki, qardaş Azərbaycanda belə bir tədbirin keçirilməsinə görə çox seviniblər. Pakistanın Baş Naziri Azərbaycan Prezidentinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılışı mərasimində çox məzmunlu çıxış etdiyini dedi.*

*Prezident İlham Əliyev Pakistanın Baş Nazirinə COP29-da iştirak etdiyinə görə minnətdarlığını bildirdi və özünün Pakistana səfərini məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı dövlətimizin başçısının Pakistana səfəri zamanı aparılmış müzakirələrin və imzalanmış sənədlərin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti qeyd olundu, ölkələrimiz arasında sərmayələr, iqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensivləşməsi məmnunluqla qeyd edildi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.*

*Eyni zamanda, Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli əməkdaşlığı çərçivəsində əlaqələrimizin əhəmiyyəti vurğulandı.*

## RUANDA RESPUBLİKASININ PREZİDENTİ POL KAQAME İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşmüşdür.*

*COP29-a dəvətə, bu tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Ruanda Prezidenti qeyd etdi ki, dövlətimizin başçısının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılışı mərasimində çıxışı çox dolğun və məzmunlu idi.*

*Prezident İlham Əliyev dəvəti qəbul edib COP29 tədbirində iştirakına görə Pol Kaqameyə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, COP sədrliyini öz üzərinə götürəndən etibarən Azərbaycana qarşı haqsız və ədalətsiz hücumlar olmuş, beynəlxalq mediada müxtəlif kampaniyalar təşkil edilmişdir ki, bunlar da qəbuledilməzdir. Azərbaycan Prezidenti dedi ki, belə təəssürat yaradılır ki, sanki dünyanı çirkləndirən inkişaf etməkdə olan dövlətlərdir. Ruanda Prezidenti «Commonwealth» təşkilatı çərçivəsində də Azərbaycanla əməkdaşlıq məsələlərini qeyd etdi.*

*Dövlətimizin başçısı «Commonwealth» xətti ilə ölkəmizin kiçik ada dövlətlərinə maliyyə yardımı göstərdiyini və Azərbaycanın peyk imkanlarından istifadə edərək, həmin ölkələrin iqlim dəyişikliyi nəticəsində qarşılaşdıqları məsələlərlə bağlı məlumat bazasının hazırlanacağını bildirdi, Azərbaycanın praktiki baxımdan faydalı əməkdaşlığı daim dəstəklədiyini diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycanla Ruanda arasında ikitərəfli münasibətlər müzakirə olundu. Ruanda Prezidenti Azərbaycanın «ASAN xidmət» təcrübəsinin çox maraqla qarşılandığını qeyd etdi. Bu təcrübənin Ruandada da tətbiq olunması istiqamətində birgə əməkdaşlıq məsələləri müzakirə olundu. ASAN və DOST xidmətləri haqqında məlumat verən dövlətimizin başçısı burada göstərilən xidmətlərin keyfiyyətinin vətəndaşlar tərəfindən maksimum şəkildə müsbət qarşılandığını bildirdi.*

*Görüşdə iqtisadi-ticari əlaqələr, sərmayələr sahəsində əməkdaşlıq, insanlararası təmasların daha da genişləndirilməsi məsələləri müzakirə olundu, birgə işçi qrupunun yaradılması razılaşdırıldı.*

*Ruanda Prezidenti qeyd etdi ki, Azərbaycanla əməkdaşlığı daha da gücləndirmək niyyətindədir. Pol Kaqame Prezident İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət etdi. Dövlətimizin başçısı da öz növbəsində, Ruanda Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ VİTSE-PREZİDENTİ, İRANIN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ TƏŞKİLATININ SƏDRİ XANIM ŞİNA ƏNSARİ İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikasının vitse-prezidenti, İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri xanım Şina Ənsari ilə görüşmüşdür.*

*COP29-un ölkəmizdə keçirilməsi münasibətilə Azərbaycan Prezidentini təbrik edən Şina Ənsari İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Məsud Pezeşkianın Prezident seçilməsindən sonra onunla telefon danışığını məmnunluqla xatırladan dövlətimizin başçısı vurğuladı ki, Məsud Pezeşkianın dövlət başçısı seçilməsindən sonra Azərbaycan hökumətinin müxtəlifsəviyyəli nümayəndə heyətləri İrana səfər ediblər.*

*İran ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin olduğunu deyən Şina Ənsari əlaqələrimizin tarixi xarakter daşıdığını vurğuladı.*

*Söhbət zamanı Araz çayı üzərində birgə layihələr, Su-Elektrik Stansiyasının tikintisi və ətraf mühit*

*sahəsində əməkdaşlığımız qeyd olundu, hökumətlərarası birgə Komissiyanın fəaliyyətinin önəmi vurğulandı.*

*Şimal–Cənub nəqliyyat dəhlizinə toxunuldu, bu xüsusda Azərbaycan, Rusiya və İran arasında birgə əməkdaşlıq qeyd edildi.*

*Görüşdə Xəzər dənizinin ekoloji problemlərinin aradan qaldırılması və Xəzərdə hazırda suyun səviyyəsinin azalması probleminə toxunuldu, bu baxımdan sərhədyanı ölkələr arasında əməkdaşlığın vacibliyi vurğulandı.*

*Prezident İlham Əliyev Ermənistanın dağ-mədən sənayesi tullantılarının Araz çayına axıdılması və bunun çayın ekoloji durumuna mənfi təsir etməsindən narahatlığını ifadə etdi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı.*

## QABON RESPUBLİKASININ VİTSE-PREZİDENTİ COZEF OVONO BERR İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Qabon Respublikasının vitse-prezidenti Cozef Ovono Berr ilə görüşmüşdür.*

*Qabonun vitse-prezidenti COP29-a dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi, bu tədbirin ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün nümayəndə heyətlərinin səfərləri məsələsinə toxunuldu.*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİN İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin ilə görüşmüşdür.*

**İlham Əliyev:** Sizi görməyimə şadam. Vaxt tapıb gəldiyiniz üçün sağ olun. Çox şadam ki, Rusiya bu konfransda yüksək səviyyədə təmsil olunub. Əminəm ki, Sizin müzakirələrdə şəxsən iştirakınız ona xüsusi əhəmiyyət verəcək.

Həmçinin konfransın Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi ərəfəsində və COP29-a hazırlıq prosesində Azərbaycana göstərilən dəstəyə görə Rusiya Federasiyasına minnətdarlığımı bildirmək istərdim. Bizim üçün bu təbii ki, müstəsna hadisədir. Azərbaycanda heç vaxt belə miqyasda tədbirlər keçirilməyib. Biz şadıq ki, dost ölkələr bu tədbirdə fəal iştirak edir və yüksək səviyyədə təmsil olunurlar.

Həmişə olduğu kimi, ikitərəfli gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı fürsətdir. Son vaxtlar Vladimir Vladimiroviç ilə tez-tez görüşürük, amma bununla belə, münasibətlərimizin gündəliyi o qədər genişdir ki, sanki görülən bütün işləri mütə-

madi olaraq yoxlamağa və gələcək inkişaf istiqamətlərini müəyyən etməyə ehtiyac vardır.

Beləliklə, bir daha xoş gəlmisiniz!

**M i x a i l  M i ş u s t i n:** Hörmətli İlham Heydər oğlu, sağ olun.

Bütün tədbirlərin, xüsusən belə genişmiqyaslı, yəqin ki, Birləşmiş Millətlər Təşkilatının iqlim məsələlərinə həsr olunmuş ən böyük konfransının təşkilinə görə Sizə təşəkkür etmək istəyirəm. Burada hamı ən yüksək təşkilatçılıq səviyyəsini qeyd edir.

Həmçinin bildirmək istəyirəm ki, Vladimir Vladimiroviç Putin mənim uçuşumdan əvvəl şəxsən Sizə çoxlu, ən səmimi arzularını çatdırdı və xahiş etdi ki, hazırkı tədbirin uğurla keçməsi münasibətilə Sizi təbrik edim. Artıq hamı bunu qeyd edir.

Ümumiyyətlə, belə bir konfrans ilk dəfədir Cənubi Qafqazda keçirilir və bu, bildiyimə görə, gündəliyin təşkili üçün çox iş görmüş Azərbaycanın müstəsna rolunu vurğulayır. Gündəlik mürəkkəbdir. Hər kəs müzakirələrin yüksək səviyyəsini, həmçinin hazırkı konfransın tarazlaşdırılmış, o cümlədən nəticələr verən sənədini qeyd edir.

İkitərəfli gündəliyimizə gəldikdə, Siz bu barədə danışdınız. Birgə əmtəə dövriyyəsi artır. Biz ikitərəfli gündəliyimizin bütün istiqamətləri üzrə əməkdaşlıq edirik. Bunlar həm sənaye, energetika, həm kənd təsərrüfatı, həm də mədəni-humanitar, rəqəmsallaşma sahələridir. Biz Əli Hidayət oğlu ilə – hökumətdəki həmkarlarımızla bu gün bütün gündəlik üzrə iş apardıq.

Qonaqpərvərliyə görə Sizə bir daha çox təşəkkür edirəm.

**İlham Əliyev:** Sağ olun. Mənim də ən xoş arzularımı və salamlarımı Vladimir Vladimiroviçə çatdırın.

**Mixail Mişustin:** Sağ olun.

## COP29 ÇƏRÇİVƏSİNDƏ İNKİŞAF ETMƏKDƏ OLAN KİÇİK ADA DÖVLƏTLƏRİNİN SAMMİTİNDƏ İŞTİRAK

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində iştirak etmişdir.*

**Patrisia Skotland** (*sammitin moderatoru, Millətlər Birliyi Təşkilatının («Commonwealth») baş katibi*): Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar, sizi salamlayıram.

İqlim dəyişmələrinin mənfi təsirinə xüsusən məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinə həsr olunmuş belə mühüm müzakirədə hamınızı salamlamaqdan məmnunam. Biz iqlim dəyişmələrinin ən kəskin təsiri ilə üzləşən ölkələrin rəhbərlərini eşitmək şərəfinə nail olacağıq.

Bugünkü tədbiri Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev ilə açmaqdan şərəf hissi duyuram. Cənab Prezident Azərbaycan iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olub. Biz onun iqlim fəaliyyətində rolunun artmasının, daha güclü beynəlxalq tərəfdaşlığın qurulmasının, xüsusən də BMT, «Qoşulmama Hərəkatı» və

Millətlər Birliyi kimi təşkilatlar vasitəsilə əməkdaşlığı gücləndirdiyinin şahidiyik. Həmin təşkilatlarda Azərbaycan dayanıqlı iqtisadi artım və müqavimət gücünü təşviq edib. Cənab Prezident, sözü Sizə verirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli baş katib!
Hörmətli dövlət və hökumət başçıları!
Xanımlar və cənablar, əziz dostlar!

Mən sammitin bütün iştirakçılarını salamlayıram. Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu, ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Həmçinin su

təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. 10-dan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. «Qoşulmama Hərəkatı»nda dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik.

Həmin ölkələrin üzləşdiyi çətinliklərin aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzaladı. Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi – «Azərkosmos»dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanmışdır.

Hörmətli xanımlar və cənablar, fürsətdən istifadə edərək, mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm – neokolonializm

və iqlim dəyişmələri. Fransa və Niderlandın, xüsusən də Karib dənizi və Sakit okean regionundakı «dəniz əraziləri» iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Renyon, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent-Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Marten, Boneyr, Sent-Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları – gəlin həmin ərazidəki xalqları alqışlayaq – bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946–47-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır. 1966–96-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın «dəniz ərazilərində» törətdiyi cinayətlər siyahısını və bu yaxınlarda insan hüquqları pozulma-

larını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir.

Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdırlar.

Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədri kimi, kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi, onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək. Çox sağ olun.

* * *

*Sammitdə çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş inkişaf etməkdə olan kiçik ada dövlətlə-*

*rinin böyük ədalətsizliklərlə üzləşdiyini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduqlarını vurğulayaraq dedi:* «Siz – kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək».

*COP29-da dünya səviyyəli maliyyə arxitekturasının yaradılması istiqamətində mühüm addımların atıldığını qeyd edən Baş katib bildirdi:* «İş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır».

*Bu sahədə uğur qazanmaq üçün fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini qeyd edən Antonio Quterreş dedi:* «Bu COP çərçivəsində və ondan sonrakı dövrdə sizi fəaliyyəti tələb etmək üçün öz səlahiyyətlərinizdən istifadə etməyə çağırıram. Ədaləti tələb edin. Çünki yubanmaq olmaz».

* * *

*Millətlər Birliyi Təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlend iqlim maliyyələşməsi işində uğurlu rəhbərliyə görə Prezident İlham Əliyevə və Baş katib Antonio Quterreşə minnətdarlıq edərək dedi:* «Mən fürsətdən istifadə edərək, həm Prezident Əliyevə, həm də Baş katib Antonio Quterreşə bu işlərə sadiqliyə, güclü rəhbərliyə və hərtərəfli dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, maliyyə ilə bağlı bu yanaşma sayəsində COP29-da real nəticələrə nail olacağıq. Gəlin onlara təşəkkürümüzü bildirək».

*Millətlər Birliyinin 56 üzvündən 25-nin inkişaf etməkdə olan ada dövləti olduğunu və onların çox gözəl potensialının mövcudluğunu qeyd edən Patrisia Skotlend vurğuladı:* «Onlar böyük çağırışlarla üzləşir. Onlar iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Bu, fiziki baxımdan daha az ərazi deməkdir. Bununla belə, qlobal maliyyə qaydaları onların işini daha da çətinləşdirir. Bütün bunlar onların müqavimət gücünü zəiflədir. Bu səbəbdən kiçik ada dövlətlərinə verilən prioritet Birlik Proqramımızın əsasını və beynəlxalq sistemdə fəaliyyətimizin özəyini təşkil edir».

*Patrisia Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək dedi:* «COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açıl-

masını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər».

*Sonra COP29-un prezidenti Muxtar Babayev və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.*

## ÇİN XALQ RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ DİN SÜESƏN İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Çin Xalq Respublikası Baş Nazirinin müavini Din Süesən ilə görüşmüşdür.*

*Din Süesən Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.*

*Qonaq qeyd etdi ki, COP29-da dövlətimizin başçısının çıxışı çox dolğun və məzmunlu idi. COP29-un yüksək səviyyədə təşkil edildiyini və bundan məmnun olduqlarını deyən Çin Xalq Respublikası Baş Nazirinin müavini dedi ki, bu bir daha onu göstərir ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın çox yüksək təşkilatçılıq potensialı vardır. Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqların yüksək səviyyədə yerinə yetirildiyini vurğulayan Din Süesən qısa müddət ərzində Azərbaycanın belə miqyasda iş həyata keçirdiyini vurğuladı.*

*Çin Xalq Respublikası Baş Nazirinin müavini bildirdi ki, Azərbaycanla Çin arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və «Azərbaycan*

*Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə»nin qəbulu əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə qaldırıb.*

*Dövlətimizin başçısı da iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, bununla da əlaqələrimizin məzmunca daha da zənginləşdiyini vurğuladı.*

*Söhbət zamanı COP-un hazırlığı prosesində Azərbaycanın Çinin BYD şirkəti ilə əməkdaşlığı, bu şirkətin elektrik avtobuslarının ölkəmizə idxalı qeyd edildi, COP çərçivəsində hazırda onlardan istifadə olunduğu bildirildi. BYD şirkətinin elektrik nəqliyyat vasitələrinin Azərbaycanda istehsalı ilə əlaqədar razılığın əldə olunduğu diqqətə çatdırıldı.*

*Ölkələrimizin çoxtərəfli diplomatiyaya və xalqlararası dialoqa böyük önəm verdiyi vurğulandı.*

*«Bir kəmər – bir yol» layihəsi çərçivəsində əməkdaşlığa toxunuldu, Azərbaycanın bu layihəni dəstəklədiyi bildirildi və son dövrlərdə yükdaşımalarda artım müsbət amil kimi qeyd olundu. Azərbaycanın nəqliyyat infrastrukturunun və Bakı limanının potensialının artırılmasının gələcək yükdaşımalar üçün daha geniş imkanlar yaratdığı bildirildi.*

*Çinlə Azərbaycan arasında mədəni-humanitar əlaqələrin inkişafından, yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyindən və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.*

## YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ KİRİAKOS MİTSOTAKİS İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Yunanıstan Respublikasının Baş Naziri Kiriakos Mitsotakis ilə görüşmüşdür.*

*Yunanıstanın Baş Naziri COP29-un qısa müddət ərzində yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı. Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələr, mədəniyyət və turizm sahələrində əməkdaşlıq, Bakı ilə Afina arasında birbaşa uçuşların təşkili məsələləri qeyd edildi.*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU KRİSTALİNA GEORGİYEVA İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Beynəlxalq Valyuta Fondunun (BVF) sərəncamçı direktoru Kristalina Georgiyeva ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev COP29-da iştirakına görə Kristalina Georgiyevaya minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə BVF arasında əməkdaşlığın səviyyəsindən razılığını ifadə etdi, əməkdaşlığımızın böyük hissəsinin iqtisadi və maliyyə siyasəti üzrə məsləhətləşmələrdən ibarət olduğunu vurğuladı.*

*Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığın davam etdirilməsinin önəmini bildirən dövlətimizin başçısı xüsusən də Azərbaycanın COP29-a sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrə əlavə maliyyə təminatı üçün fəal şəkildə iş aparılacağını dedi.*

*COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Kristalina Georgiyeva bu tədbirin Azərbaycanda ən yüksək səviyyədə təşkil edilməsi ilə bağlı təbriklərini çatdırdı və onun uğurla başa çatacağına əminliyini bildirdi.*

*Kristalina Georgiyeva Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında maliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlavə potensialın olduğunu qeyd etdi və ölkəmizi BVF vasitəsilə inkişaf etməkdə olan ölkələrə iqlim çağırışları ilə bağlı yardım proqramlarında iştiraka dəvət etdi.*

*Prezident İlham Əliyev bu istiqamətdə BVF ilə əməkdaşlıq təklifini müsbət qiymətləndirdi, qısa zamanda bunun üçün Azərbaycan tərəfindən zəruri addımların atılacağını dedi.*

*Söhbət zamanı ölkəmizlə BVF arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.*

# BANQLADEŞ XALQ RESPUBLİKASI MÜVƏQQƏTİ HÖKUMƏTİNİN BAŞ MÜŞAVİRİ MƏHƏMMƏD YUNUS İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin baş müşaviri Məhəmməd Yunus ilə görüşmüşdür.*

*Azərbaycana əvvəlki səfərini məmnunluqla xatırladan Məhəmməd Yunus Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığını qeyd edərək, mərkəzin tədbirlərində yaxından iştirakını vurğuladı.*

*Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini deyən qonaq COP29-un qısa müddətdə uğurla təşkil edilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. O, Banqladeşdən olan tələbələrə Azərbaycanda təhsil imkanı, ölkəmizlə təcrübə mübadiləsinin aparılması, 4-cü sənaye inqilabı və rəqəmsal sahədə əməkdaşlıq məsələlərini qeyd etdi.*

*Məhəmməd Yunus Azərbaycan Prezidentini Banqladeşə rəsmi səfərə dəvət etdi.*

*Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın COP29-u qısa müddətdə təşkil etdiyini deyərək, COP-a sədrliklə bağlı ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasına toxundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, siyasi məsləhətləşmələr mexanizminin gücləndirilməsi və beynəlxalq təşkilatlarda əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, Azərbaycanın ASAN və DOST təcrübəsinin Banqladeş ilə bölüşməsi məsələsi qeyd edildi.*

## BMT BAŞ ASSAMBLEYASININ 79-cu SESSİYASININ PREZİDENTİ FİLEMON YANQ İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də BMT Baş Assambleyasının 79-cu sessiyasının Prezidenti Filemon Yanq ilə görüşmüşdür.*

*BMT-nin Azərbaycan ilə əlaqələrinin çox yüksək səviyyədə olduğunu deyən Filemon Yanq ölkəmizin BMT Nizamnaməsinə tam sadiq olduğunu vurğuladı. COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edən BMT Baş Assambleyasının 79-cu sessiyasının prezidenti bu tədbirin keçirilməsinin heç də asan olmadığını, hazırlıq prosesinin cəmi 11 ay çəkdiyini vurğuladı.*

*Filemon Yanq Azərbaycanın «yaşıl keçid» və «yaşıl enerji» konsepsiyalarını qeyd etdi.*

*Qonaq BMT Baş Assambleyasının gənc, peşəkar azərbaycanlı kadrları dəstəklədiyini dedi.*

*Prezident İlham Əliyev Azərbaycanın qısa müddət ərzində COP29-u yüksək səviyyədə təşkil etdiyini vurğulayaraq dedi ki, bu, ölkəmizin iqlim dəyişmələri ilə bağlı mübarizədə beynəlxalq səyləri dəstəkləmək əzmini göstərir.*

*COP prosesində artıq ilkin irəliləyişlərin olduğunu qeyd edən dövlətimizin başçısı COP29-da Paris Sa-*

*zişinin 6-cı bəndi və beynəlxalq maliyyə qurumlarının yeni maliyyə hədəfləri ilə bağlı açıqlamaları müsbət hal kimi qiymətləndirdi.*

*Azərbaycan Prezidenti ölkəmizə və COP-a qarşı geniş təbliğat kampaniyasının aparıldığını dedi.*

*Prezident İlham Əliyev Azərbaycanın çoxşaxəli diplomatik əlaqələrinin olduğunu qeyd edərək, ölkəmizin geniş coğrafi əhatəsi olan strateji tərəfdaşlıq münasibətləri qurduğunu bildirdi.*

*Dövlətimizin başçısı Qlobal Cənub ölkələri olaraq inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin artırılmasının vacibliyini vurğuladı, dünyada mövcud olan geosiyasi arxitekturanın dəyişdirilməsinin və ədalətin təmin olunmasının zəruriliyini bildirdi.*

## MONTENEQRO PREZİDENTİ YAKOV MİLATOVİÇ İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Monteneqro Prezidenti Yakov Milatoviç ilə görüşmüşdür.*

*Yakov Milatoviç COP29-un yüksək səviyyədə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O vurğuladı ki, COP29-u uğurlu tədbir adlandırmaq olar. Monteneqro Prezidenti COP29-da 80-dən çox dövlət və hökumət başçısının iştirak etdiyini dedi və bildirdi ki, bu tədbir eyni zamanda, Azərbaycanın nailiyyətlərini dünyada göstərir.*

*Yakov Milatoviç vurğuladı ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyib. Qonaq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərini qeyd edərək, ölkəmizin çox böyük və nadir inkişaf yolu keçdiyini məmnunluqla vurğuladı.*

*Azərbaycanın COP29-u qısa müddət ərzində təşkil etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz COP-a sədrliyə başladığı vaxtdan bizə qarşı feyk-nyus və qarayaxma kampaniyasına start verilib. Bu kampaniyada elə təqdim edilir ki, guya Azərbaycan ətraf mühiti çirkləndirir. Amma reallıq belə deyil. Dövlətimizin başçısı dedi ki, bəzi dairələr Azərbaycanın*

*uğurlarını, inkişafını və müstəqil siyasətini həzm edə bilmirlər.*

*Prezident İlham Əliyev Azərbaycanın 2019–2023-cü illərdə «Qoşulmama Hərəkatı»na uğurla sədrlik etdiyini də xatırlatdı.*

*İşğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını deyən dövlətimizin başçısı qeyd etdi ki, ermənilər həmin ərazilərimizi minalayıblar, müharibə bitəndən indiyədək 300-dək Azərbaycan vətəndaşı minaların partlaması səbəbindən ya həlak olub, ya da ağır yaralanıb. İşğal dövründə Ermənistan şəhərlərimizi və kəndlərimizi dağıdıb.*

*Görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, turizm, sərmayələr sahələrində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Monteneqro Prezidenti dövlətimizin başçısını ölkəsinə, Azərbaycan Prezidenti isə Monteneqro dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi. Dəvətlərlə bağlı qarşılıqlı minnətdarlıq ifadə olundu.*

# ŞİMALİ MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM QORDANA SİLYANOVSKA-DAVKOVA İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşmüşdür.*

*Qordana Silyanovska-Davkova COP29-un yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq, tədbirin açılışı mərasimində Azərbaycan mədəniyyəti ilə bağlı maraqlı təqdimatın olduğunu dedi. Mədəni diplomatiyanı dəstəklədiyini qeyd edən ali qonaq Azərbaycan mədəniyyəti ilə tanış olmaqdan məmnunluğunu bildirdi. O, Azərbaycanla əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Qordana Silyanovska-Davkovanın ölkəmizə səfərinin münasibətlərimizin genişləndirilməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin inkişaf etdirilməsi işinə təkan verəcəyinə ümidvarlığını bildirdi.*

*Dövlətimizin başçısı COP29-la əlaqədar Azərbaycana qarşı ədalətsiz təbliğatın aparıldığını vurğuladı.*

*Şimali Makedoniyada sərmayələr imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycanın Bal-*

*kan ölkələri ilə əlaqələrinin inkişafına önəm verdiyini qeyd etdi.*

*Görüşdə sərmayələr, kənd təsərrüfatı, turizm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Şimali Makedoniya dövlətinin başçısını ölkəmizə, Qordana Silyanovska-Davkova isə öz növbəsində, dövlətimizin başçısını Şimali Makedoniyaya rəsmi səfərə dəvət etdi. Dəvətlərlə bağlı qarşılıqlı minnətdarlıq ifadə olundu.*

## NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ RAM ÇANDRA PAUDEL İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Nepal Federativ Demokratik Respublikasının Prezidenti Ram Çandra Paudel ilə görüşmüşdür.*

*Nepal Prezidenti qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

*COP29-un yüksək səviyyədə keçirildiyini deyən Ram Çandra Paudel ölkəmizə səfəri zamanı Azərbaycan mədəniyyəti ilə tanış olduğunu məmnunluqla qeyd etdi. O, ümidvar olduğunu bildirdi ki, COP29 Nepal kimi inkişaf etməkdə olan ölkələrin maraqlarını nəzərə alacaqdır.*

*Azərbaycan ilə Nepal arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan ali qonaq beynəlxalq təşkilatlarda, həmçinin iqlim dəyişmələri və davamlı inkişaf məsələlərində əməkdaşlığımıza toxundu.*

*Nepal Prezidenti Azərbaycanda şahidi olduğu inkişafın onda dərin təəssürat hissi yaratdığını dedi. O, ölkəsinin uzun keçid prosesindən sonra davamlı inkişaf mərhələsinə qədəm qoyduğunu bildirərək, xarici sərmayədarları dəvət etmək istədiklərini vurğuladı, turizm və hidroenergetika sahələrinin önəminə toxundu.*

*Ram Çandra Paudel bildirdi ki, Nepalın karbon emissiyası az olsa da, onlar iqlim dəyişmələrinin mənfi fəsadları ilə üzləşirlər.*

*Azərbaycan və Nepal prezidentlərinin ilk görüşünün tarixi əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu görüşün əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.*

*Azərbaycan Prezidenti iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin önəminə toxundu.*

*Söhbət zamanı BMT və bir sıra digər beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstək, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, həmçinin Azərbaycanın COP sədrliyi dövründə iqlim dəyişikliyi mövzusunda işbirliyi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Nepal Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi. Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.*

*Nepal Prezidenti dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

## BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-PREZİDENTİ JERALDU ALKMİN İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Braziliya Federativ Respublikasının vitse-prezidenti Jeraldu Alkmin ilə görüşmüşdür.*

*Jeraldu Alkmin Braziliya Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı, Luiz İnasio Lula da Silvanın səhhəti ilə əlaqədar COP29-da iştirak edə bilmədiyini qeyd etdi.*

*Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Braziliya Prezidentinə çatdırmağı xahiş etdi, Luiz İnasio Lula da Silvanın tezliklə sağalmasını arzuladı. Prezident İlham Əliyev Braziliya dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi.*

*Bakının gözəlliyinin onlarda xoş təəssürat hissi yaratdığını deyən qonaq COP29-un yüksək səviyyədə təşkil edilməsi və uğurlu təşkilatçılıq münasibətilə təbriklərini çatdırdı.*

*Jeraldu Alkmin Azərbaycanın və Braziliyanın üçlük çərçivəsində COP və iqlim dəyişmələri ilə bağlı əməkdaşlığına toxundu. O, ölkəmizlə ikitərəfli münasibətlərin, həmçinin iqtisadi-ticari, kənd təsərrüfatı, sərma-*

*yələr sahələrində əlaqələrin inkişafına böyük əhəmiyyət verdiklərini dedi.*

*Söhbət zamanı iqtisadi-ticari məsələlər üzrə işçi qrupun yaradılması, sərmayələr, birgə istehsal müəssisələri, turizm, birbaşa hava əlaqələrinin qurulması ilə bağlı fikir mübadiləsi aparıldı.*

## EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ TAYE ATSKE SELASSİYE İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Taye Atske Selassiye ilə görüşmüşdür.*

*Taye Atske Selassiye Efiopiya Federativ Demokratik Respublikasının Baş Naziri Abiy Əhməd Əlinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Efiopiyanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

*COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Taye Atske Selassiye bu tədbirin mükəmməl səviyyədə təşkil edildiyini, uğurla keçirildiyini və burada iştirak səviyyəsinin çox yüksək olduğunu dedi. Qonaq dövlətimizin başçısının çıxışının dolğun və məzmunlu olduğunu vurğulayaraq, buna görə təşəkkürünü bildirdi.*

*Efiopiya Prezidenti ölkəmizə səfəri çərçivəsində Azərbaycanın «ASAN xidmət» təcrübəsi ilə tanışlığın onda çox böyük təəssürat yaratdığını və bu təcrübənin ölkəsində tətbiqi məsələsinə baxıldığını dedi. O, Azərbaycan Respublikasının Prezidenti yanında*

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Xidməti Komissiyası arasında Anlaşma Memorandumunun imzalandığını qeyd etdi.*

*Efiopiya Prezidenti azad ticarət zonaları sahəsində Azərbaycanın təcrübəsinin ölkəsi üçün maraqlı olduğunu vurğuladı, turizm, kənd təsərrüfatı, investisiyalar və digər sahələrdə əməkdaşlıq imkanlarına toxundu, böyük perspektivlərin olduğunu dedi.*

*İnkişaf etməkdə olan dövlətlər arasında həmrəyliyin gücləndirilməsinin önəmini vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir.*

*«ASAN xidmət» təcrübəsinə toxunan dövlətimizin başçısı bu sahədə Azərbaycanın hər cür dəstək göstərməyə hazır olduğunu dedi.*

*Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, iqtisadi məsələlər üzrə hökumətlərarası birgə Komissiyanın yaradılmasının vacibliyi vurğulandı.*

*Efiopiya Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi.*

*Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirərək, Efiopiya Prezidentini və Baş Nazirini Azərbaycana rəsmi səfərə dəvət etdi.*

## AVROPA ŞURASININ BAŞ KATİBİ ALEN BERSE İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Avropa Şurasının baş katibi Alen Berse ilə görüşmüşdür.*

*COP29-a dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Avropa Şurasının baş katibi bu tədbirin qısa müddət ərzində təşkil edilməsini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, adətən, sədr ölkələrin COP-un təşkil edilməsi üçün 2 ilə qədər vaxtları olduğu halda, Azərbaycanın cəmi 11 ayı var idi və təşkilatçılıq işləri bu müddət ərzində həyata keçirilib.*

*Dövlətimizin başçısı dedi ki, mahiyyəti üzrə COP29-da danışıqlar prosesində artıq irəliləyişlər var. Belə ki, 10 ildən artıq müzakirə olunan Paris Sazişinin 6-cı bəndi üzrə ilkin nəticələr əldə olunub və bu istiqamətdə danışıqlar davam etdiriləcək. Həmçinin yeni maliyyə hədəfinin müəyyən olunması ilə əlaqədar beynəlxalq maliyyə strukturları tərəfindən verilən açıqlamalar da müsbət mesajlar kimi qiymətləndirilir. COP29-da yeni maliyyə hədəfinin müəyyən olunacağına ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti dedi ki, xüsusən inkişaf etməkdə olan dövlətlərin bu məsələdə böyük gözləntiləri vardır.*

*Alen Berse vurğuladı ki, Avropa Şurası ətraf mühitlə bağlı cinayətlərə və iqlim dəyişmələri ilə əlaqədar məsələlərə böyük əhəmiyyət verir və bunlar təşkilatın gündəliyində yer alıb.*

*Qonaq Avropa Şurası çərçivəsində dövlətlərin müxtəlifliyi prinsipinin xüsusi əhəmiyyət daşıdığını dedi.*

*Dövlətimizin başçısı Azərbaycanın Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində ölkəmizin bu təsisatın 76 müxtəlif konvensiyasına qoşulduğunu qeyd etdi.*

*Görüşdə müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycanın təşəbbüsü ilə Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında yaradılmış «Bakı prosesi»nin əhəmiyyəti vurğulandı.*

## YƏMƏN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ ABDULLA ƏL-ALİMİ İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Yəmən Respublikasının vitse-prezidenti Abdulla əl-Alimi ilə görüşmüşdür.*

*Yəmən Respublikasının vitse-prezidenti Abdulla əl-Alimi COP29-un mükəmməl səviyyədə keçirilməsinə və yüksək təşkilatçılığa görə təbriklərini çatdırdı. Yəmənin vitse-prezidenti vurğuladı ki, Azərbaycanın bu uğuru bütün islam dünyasının uğurudur. O bu günlərdə dünyanın hər yerindən xeyli sayda nümayəndələrin, dövlət və hökumət başçılarının Azərbaycana gəlməsini mühüm hadisə kimi qiymətləndirdi, COP29-da böyük nəticələrin əldə olunduğunu vurğuladı.*

*Qonaq Bakı şəhərinin gözəlliyinin onları valeh etdiyini dedi.*

*Abdulla əl-Alimi torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, yəmənli tələbələrin hələ sovetlər dövründə Azərbaycanda təhsil aldıqlarını xatırladaraq, bu ənənələrin davam etdirilməsini xahiş etdi.*

*Dövlətimizin başçısı xoş sözlərə və təbriklərə görə təşəkkürünü bildirdi, COP29-un Azərbaycanda uğurla*

*keçirilməsinin bizim müştərək uğurumuz olduğunu dedi.*

*Prezident İlham Əliyev işğal dövründə Ermənistanın Azərbaycan ərazilərində maddi mədəniyyət irsimizi, o cümlədən islam dininə aid olan müqəddəs ibadətgahlarımızı, ocaqlarımızı darmadağın etdiyini, məscidlərdə donuz saxlayaraq, təhqirlərə məruz qoyduğunu bildirdi.*

*Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan öz ərazilərini işğaldan azad edib və Ermənistanın bu işğalına son qoyub.*

*Görüşdə islam həmrəyliyinin vacibliyinə toxunuldu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olundu, Azərbaycan ilə Yəmənin daim bir-birinin yanında olduqları vurğulandı, müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## MALDİV RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD MUİZZU İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu ilə görüşmüşdür.*

*Məhəmməd Muizzu COP29-un yüksək səviyyədə təşkili ilə bağlı Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi.*

*Dövlətimizin başçısı bu tədbirdə iştirakla bağlı dəvəti qəbul etdiyinə görə Maldiv Prezidentinə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Maldivin də ada dövləti olaraq iqlim dəyişmələrinin təsirlərinə məruz qaldığını dedi.*

*Azərbaycan Prezidenti Maldiv Prezidenti Məhəmməd Muizzunun ölkəmizə səfəri çərçivəsində aparılan müzakirələrin ikitərəfli əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.*

*Qonaq da öz növbəsində, ölkəsinin iqlim dəyişmələrinə məruz qaldığını təsdiqlədi. O bu yaxınlarda Maldiv–Bakı birbaşa uçuşlarının açılmasının ölkələrimiz arasında turizm və insanlararası əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirdi. Məhəmməd Muizzu Maldivin Azərbaycan vətəndaşları*

*üçün vizasız rejim tətbiq etdiyini deyərək, bunun qarşılıqlı xarakter alacağına ümidvarlığını ifadə etdi.*

*Söhbət zamanı ölkələrimiz arasında turizm, sərmayələr və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## İSLAM İNKİŞAF BANKININ PREZİDENTİ MƏHƏMMƏD ƏL-CASİR İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də İslam İnkişaf Bankının prezidenti Məhəmməd əl-Casir ilə görüşmüşdür.*

*Əvvəlcə, Azərbaycan Prezidenti İlham Əliyevin və İslam İnkişaf Bankının prezidenti Məhəmməd əl-Casirin iştirakı ilə «Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında «Qız qalası» su anbarından magistral suvarma kanalının tikintisi» layihəsi üzrə Agentlik Müqaviləsi, «Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında «Əks əlaqə texniki yardım Qrant Sazişi «Qız qalası» su anbarından magistral suvarma kanalının tikintisi» layihəsi və «Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında «Qız qalası» su anbarından magistral suvarma kanalının tikintisi» layihəsi üzrə Çərçivə Sazişi imzalanıb.*

*Görüşdə Prezident İlham Əliyev ölkəmizlə İslam İnkişaf Bankı arasında perspektiv inkişaf istiqamətləri və fəaliyyətləri ilə bağlı əməkdaşlığın genişləndirilməsinin önəminə toxundu, gələcəkdə əlaqələrin daha da dərinləşəcəyinə ümidvarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı vurğuladı ki, imzalanmış bu sənədlər işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihənin beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilməsi baxımından ilk sənəddir.*

*COP29-un qısa müddətdə yüksək səviyyədə təşkil edildiyini deyən Məhəmməd əl-Casir işğaldan azad olunmuş ərazilərimizə 2023-cü ildə səfərini xatırladaraq, bu günədək orada icra olunan irimiqyaslı işlərin qısa zamanda keyfiyyətlə həyata keçirildiyini qeyd etdi. O, İslam İnkişaf Bankının dövlət və özəl sektor layihələrində fəaliyyətinin genişləndirilməsinə və bu layihələrin dəstəklənməsinə hazır olduqlarını dedi.*

## İŞA XEYRİYYƏ FONDUNUN TƏSİSÇİSİ SADHQURUDAN

*14 noyabr 2024-cü il*

Azərbaycan Respublikasının Prezidenti zatialiləri cənab İlham Əliyevə!

Möhtərəm cənab Prezident İlham Əliyev!

Yenidən gözəl Azərbaycana və gözəl Bakı şəhərinə gəlmək mənim üçün böyük şərəfdir. İkinci səfərim zamanı mənə göstərdiyiniz sevgi və səmimiyyətə görə minnətdaram.

Azərbaycan COP-un ən mühüm sammitlərindən birinə ev sahibliyi edir. Planetimizin torpaqlarının qlobal səviyyədə dəhşətli çirklənməsinə səbəb olan böhranla üz-üzə olduğu bir dövrdə «yaşıl dünya» naminə həmrəylik böyük əhəmiyyət daşıyır və aktualdır. Torpaqların sağlamlaşdırılmasının təcili diqqətə ehtiyacı olduğuna dair dünya dövlətləri arasında geniş konsensusu nəzərə alaraq, Azərbaycanın bu gün torpağın sağlamlaşdırılması və münbitliyinin bərpası istiqamətində regionda liderlik etmək, torpağın qida, su təhlükəsizliyinə və biomüxtəlifliyə, iqtisadiyyata və ekologiyaya təsirini nümayiş etdirmək imkanı vardır.

«Save Soil» hərəkatı inkişaf edən və zəngin nemətlərə malik planetin bərpasına dərindən sadiqliyini bildirir. Biz daha yaşıl və daha sağlam planetə

kollektiv baxışımızı nümayiş etdirmək məqsədilə ölkənizin torpağın yenidən sağlamlaşdırılmasında bütün Mərkəzi Asiya regionunda lider rolunu oynaması üçün hər cür lazımi dəstəyi təklif edəcəyik.

Bu möhtəşəm tədbirə ev sahibliyi etdiyinizə, o cümlədən səmimi və yüksək səviyyəli qonaqpərvərliyə görə Sizi və Azərbaycan xalqını təbrik edir, minnətdarlığımızı bildiririk.

## FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan hər zaman Fələstin xalqının azadlığı və müstəqilliyini dəstəkləmişdir. Ölkəmiz münaqişənin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla «iki dövlət» prinsipi əsasında sülh yolu ilə həllinin tərəfdarıdır. Biz bundan sonra da BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi vasitəsilə, eləcə də ikitərəfli əsasda Fələstinə humanitar dəstək göstərəcəyik.

İnanıram ki, xoş ənənələr üzərində qurulmuş dostluq əlaqələrimiz və əməkdaşlığımız bundan sonra da uğurla inkişaf etməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2024-cü il*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*15 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 15-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng edib.*

*Telefon danışığı əsnasında dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı əldə edilmiş razılaşmaları, həmçinin Rusiyanın Baş Naziri Mixail Mişustinin bu günlərdə Bakıya səfəri zamanı təmaslarını nəzərə alaraq, sənaye və nəqliyyat sahələrində qarşılıqlı faydalı layihələrin praktiki olaraq həyata keçirilməsi məsələlərini müzakirə ediblər.*

*Tərəflər Azərbaycan–Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafının davam etdirilməsinə dair qarşılıqlı maraqlarını bir daha ifadə ediblər.*

*Müzakirə olunan məsələlərin icrası məqsədilə müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb.*

## ƏL-ƏZHƏRİN ŞEYXİ, MÜSƏLMAN AĞSAQQALLARI ŞURASININ SƏDRİ ƏHMƏD ƏL-TAYYİB HƏZRƏTLƏRİNƏ

Zati-həzrətləri!

Ailənizə üz vermiş ağır itki – bacınız Samiha Məhəmməd əl-Tayyibin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu üzüntülü anlarda dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2024-cü il*

## ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKİ İLƏ GÖRÜŞ

*16 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ISESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə ISESCO-nun baş direktoruna minnətdarlığını bildirdi.*

*Salim bin Məhəmməd əl-Maliki öz növbəsində, COP29-un yüksək səviyyədə təşkilinə görə təşəkkürünü ifadə etdi.*

*Söhbət zamanı Azərbaycan ilə ISESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Bu xüsusda Prezident İlham Əliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ISESCO-nun Mərakeşdə yerləşən qərargahında olmasının və Salim bin Məhəmməd əl-Maliki ilə görüşünün onda çox xoş təəssürat doğurduğunu vurğulayaraq, orada göstərilən qonaqpərvərliyə görə ISESCO-nun baş direktoruna minnətdarlığını bildirdi.*

*Görüşdə əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVÜ AVQUST PFLÜGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ABŞ Nümayəndələr Palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı COP29-un uğurla keçdiyini deyərək vurğuladı ki, baxmayaraq, Paris razılaşmasının 6-cı bəndi üzrə 10 ildən artıqdır danışıqlar aparılıb, COP29-un ilk günündə bununla əlaqədar ciddi irəliləyiş əldə edilib. Prezident İlham Əliyev qeyd etdi ki, COP29 maliyyə mövzusuna həsr olunub və burada yeni iqlim maliyyə hədəfinin müəyyənləşdirilməsi gözlənilir. Beynəlxalq ictimaiyyət də bunu gözləyir. Azərbaycan Prezidenti beynəlxalq maliyyə və bank strukturları tərəfindən COP29-da iqlim maliyyəsi ilə bağlı verilən açıqlamaları da bu istiqamətdə ümidverici addım kimi qiymətləndirdi.*

*Qonaqlar ilk növbədə, Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdılar.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq və ölkəmizin «yaşıl keçid» strategiyası məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Azərbaycanın müstəqilliyinin bərpasından sonra ABŞ-ın ölkəmizə dəstəyi xatırlandı, enerji strategiyamızın inkişafında onun dəstəyi qeyd olundu.*

*Avqust Pflüger Nümayəndələr Palatasının sədri Mayk Consonun adından nümayəndə heyəti ilə görüşə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Ölkəmizə səfərdən məmnun qaldıqlarını deyən qonaq Azərbaycan–ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazır olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı son 30 ildə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu və qarşılıqlı faydalı əməkdaşlığımızı qeyd etdi.*

*Prezident İlham Əliyev 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nə toxundu, o zaman ABŞ Hökumətinin bu layihəyə dəstəyini xatırlatdı və bu müqavilənin ABŞ və onun müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunması işinə töhfə verdiyini vurğulayaraq, həmin dövr ərzində energetika sahəsində əsaslı əməkdaşlığın möhkəmləndiyini dedi.*

*Dövlətimizin başçısı Azərbaycanın «yaşıl enerji» strategiyası haqqında danışaraq, ölkəmizin beynəlxalq tərəfdaşlarla birlikdə bərpa olunan enerjinin istehsalı potensialını artırdığını və 2027-ci ilədək Azərbaycanın enerji istehsalının 30 faizinin «yaşıl enerji»nin payına düşəcəyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın bərpa olunan enerji potensialı əsasında Qara dənizin dibi ilə çəkilməsi nəzərdə tutulan elektrik enerjisi kabeli layihəsinə toxundu, bu xüsusda dövlətimizin region ölkələri – Gürcüstan, Rumıniya və Macarıstanla əmək-*

*daşlığını qeyd etdi. Həmçinin Mərkəzi Asiya ölkələri ilə Xəzər dənizi vasitəsilə «yaşıl enerji» sahəsində əməkdaşlığı, COP29 zamanı Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında «yaşıl enerji»nin inkişafı və transmissiyası haqqında imzalanmış sənədi vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan region ölkələri ilə birlikdə Xəzər və Qara dəniz hövzələrini birləşdirən «yaşıl enerji» dəhlizini formalaşdırır.*

*Prezident İlham Əliyev Azərbaycanın Xəzər dənizində böyük həcmdə bərpa olunan külək enerjisi potensialının olduğunu vurğuladı, hidroenerji resurslarının da inkişaf etdirildiyini və bunun da böyük enerji istehsalı həcmlərinə çatacağını vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın yaxın dövr ərzində 4 giqavat gücündə bərpa olunan enerjinin Avropa İttifaqı bazarına ixrac etmək imkanına malik olacağını bildirdi və Avropa İttifaqı bazarının enerji tələbatının artmaqda olduğunu dedi.*

*Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi.*

*Prezident İlham Əliyev ölkəmizin regional sülh gündəliyinə sadiq qaldığını, onu dəstəklədiyini vurğuladı, sülh müqaviləsinin təşəbbüskarının Azərbaycan olduğunu xatırlatdı.*

*Ölkəmizin 30 il ərzində Ermənistan tərəfindən işğala və hərbi təcavüzə məruz qaldığını, hazırda Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini deyən dövlətimizin başçısı bu münaqişənin Azərbaycan üçün artıq keçmişdə qaldığını bildirdi.*

*Azərbaycan Prezidenti Ermənistanın militarizasiya və silah yarışı siyasətinin regional sülh və təhlükəsizliyə təhdid olduğunu vurğuladı, sülh müqaviləsinin imzalanması üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının vacibliyini qeyd etdi. Bildirdi ki, Ermənistan tərəfindən konstitusion əsasda Azərbaycana qarşı ərazi iddiaları olmamalıdır.*

*Söhbət zamanı regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə ABŞ Konqresi ilə Azərbaycan arasında dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin artırılması məsələləri müzakirə olundu, Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın və tərəfdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə toxunuldu.*

## BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ TOMAS KONETSKO, BEYNƏLXALQ AVARÇƏKMƏ FEDERASİYASININ PREZİDENTİ JAN KRİSTOF ROLLAN VƏ BEYNƏLXALQ DRAQON QAYIQLARI FEDERASİYASININ PREZİDENTİ KLAUDİO ŞERMİ İLƏ GÖRÜŞ

*17 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konetsko, Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Rollan və Beynəlxalq Draqon Qayıqları Federasiyasının prezidenti Klaudio Şermi ilə görüşmüşdür.*

*Beynəlxalq Kanoe Federasiyasının prezidenti Azərbaycan paytaxtının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu dedi və bu gün Bakıda COP29 ilə əlaqədar keçiriləcək avarçəkmə yürüşünün yüksək səviyyədə təşkil edildiyini və bunun üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.*

*COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev qonaqların bu tədbirdə iştiraklarına görə minnətdarlığını bildirdi.*

*Bu tədbirin ən yüksək səviyyədə təşkil edildiyini deyən Tomas Konetsko burada iştirakçıların rahatlığı üçün hər cür şəraitin yaradıldığını vurğuladı.*

*Prezident İlham Əliyev COP29-a hazırlıq vaxtının az olmasına baxmayaraq, bütün təşkilati işlərin qısa zamanda həyata keçirildiyini qeyd etdi.*

*Qonaq Qarabağa, Suqovuşana səfər etdiklərini məmnunluqla deyərək, orada görülən bərpa və yenidən qurulma işlərinin, idmanın inkişafının, o cümlədən avarçəkmə üçün yaradılmış şəraitin çox böyük təəssürat bağışladığını dedi. O, ölkəmizdə kanoe idman növü üçün də yaxşı şəraitin yaradıldığını vurğuladı və buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Azərbaycanın idmanın, o cümlədən avarçəkmə növünün inkişafında böyük rol oynadığını deyən qonaq bunun da ətraf mühitin qorunmasına töhfə verdiyini bildirdi.*

*Qonaqlar dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdilər.*

## MALAYZİYANIN PAYTAXTI KUALA-LUMPUR ŞƏHƏRİNİN MERİ, BMT-nin MƏSKUNLAŞMA PROQRAMININ SABİQ İCRAÇI DİREKTORU XANIM MAİMUNA MOHD ŞƏRİF İLƏ GÖRÜŞ

*17 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşmüşdür.*

*Maimuna Mohd Şərif Prezident İlham Əliyevə COP29-da yerli icmalar statusunda Kuala-Lumpur şəhərinin meri kimi çıxış etməsinə yaradılmış imkana və COP29-da Azərbaycanın sədrliyi yanında yaradılmış Məşvərət Şurasına daxil edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Qonaq COP29-un yüksək səviyyədə təşkili ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Söhbət zamanı Maimuna Mohd Şərifin UN-HABITAT rəhbəri olduğu dövrdə Azərbaycan ilə bu qurum arasında əməkdaşlığın inkişafına verdiyi töhfə qeyd olundu, ölkəmizin 2026-cı ildə BMT-nin ən vacib tədbirlərindən biri olan Dünya Urban Forumuna ev sahibliyi edəcəyi məmnunluqla vurğulandı və buna hazırlıq prosesinin artıq başlanıldığı bildirildi.*

*Görüşdə Bakının və ölkəmizin digər şəhərlərinin inkişafı kontekstində Azərbaycanın urban planlaşdırma və urbanizasiya sahəsində nailiyyətləri xüsusilə qeyd olundu, işğaldan azad edilmiş ərazilərimizdə şəhərlərin və kəndlərin qurulması prosesindəki təcrübəsi vurğulandı.*

*Söhbət zamanı Bakı və Kuala-Lumpur arasında əməkdaşlığın inkişafı ilə bağlı təcrübə mübadiləsinin aparılması məsələsinə toxunuldu, Bakının və Kuala-Lumpurun qardaşlaşmış şəhərlər kimi əlaqələrinin qurulması istiqamətində fikir mübadiləsi aparıldı.*

*Bütövlükdə, Azərbaycan ilə Malayziya arasında dost münasibətlərin olduğu, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəklədikləri qeyd edildi. Siyasi əlaqələrimizin ruhuna uyğun olaraq, iqtisadiyyat, ticarət, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

**OMAN SULTANI ƏLAHƏZRƏT HEYTƏM BİN TARİQ AL SƏİDƏ**

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Oman xalqına daim firavanlıq və rifah arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2024-cü il*

## RUSİYA FEDERASİYASININ MALİYYƏ NAZİRİ ANTON SİLUANOV VƏ DÖVLƏT DUMASINDA RUSİYA LİBERAL DEMOKRAT PARTİYASI FRAKSİYASININ RƏHBƏRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*18 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyasının Maliyyə naziri Anton Siluanov və Rusiya Federasiyası Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski ilə görüşmüşdür.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi, bu görüşün əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından önəmi qeyd olundu.*

*Ölkələrimiz arasında ticarət dövriyyəsinin artması, milli valyutalarda ödənişlərin həyata keçirilməsi əlaqələrimizin möhkəmlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi.*

## MİLLƏTLƏR BİRLİYİ TƏŞKİLATININ BAŞ KATİBİ PATRİSİA CANET SKOTLAND İLƏ GÖRÜŞ

*18 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Millətlər Birliyi Təşkilatının (Commonwealth of Nations) baş katibi Patrisia Canet Skotland ilə görüşmüşdür.*

*Patrisia Canet Skotland COP29-un yüksək səviyyədə təşkilinə, ilk dəfə olaraq COP çərçivəsində kiçik ada dövlətləri ilə əlaqədar Zirvə toplantısının keçirilməsinə və Azərbaycanın COP sədrliyinin prioritetləri sırasında bu dövlətlərin iqlim problemlərinin əsas istiqamətlərdən biri kimi müəyyən edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Qonaq Azərbaycanla Millətlər Birliyi Təşkilatı arasında qurulmuş əməkdaşlığa, ölkəmizin bu təşkilata üzv kiçik ada dövlətləri ilə bağlı maliyyə dəstəyi fonduna görə də təşəkkürünü çatdırdı.*

*Millətlər Birliyi Təşkilatının baş katibi, həmçinin Azərbaycanın kosmik imkanlarını səfərbər edərək, Millətlər Birliyinin üzvü olan kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemlərinin təhlil edilməsini və məlumat bazası sisteminin yaradılmasını təqdir etdiklərini dedi. O, ümumilikdə Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətləri ilə əlaqədar çoxsaylı təd-*

*birlərin keçirildiyini və dünyanın kosmik agentliklərinin səylərinin də səfərbər edildiyini vurğuladı.*

*Patrisia Canet Skotland bundan sonra da Azərbaycanla əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını bildirdi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-a sədrliyi dövründə kiçik ada dövlətlərinin iqlim problemləri ilə bağlı onlarla əməkdaşlığı əsas istiqamətlərdən biri kimi müəyyən edib, ölkəmiz tərəfindən bununla əlaqədar Zirvə toplantısı keçirilibdir.*

*Azərbaycanın Millətlər Birliyi Təşkilatı ilə əməkdaşlığını davam etdirəcəyini deyən Prezident İlham Əliyev kiçik ada dövlətlərinin iqlim problemlərinin daim diqqət mərkəzində saxlanılacağını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədrliyi çərçivəsində formalaşdırılmış həmrəyliyin məhz COP sədrliyi dövründə də davam etdiriləcəyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Millətlər Birliyi Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## PALAU RESPUBLİKASININ PREZİDENTİ SURANGEL UİPPS İLƏ GÖRÜŞ

*18 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Palau Respublikasının Prezidenti Surangel Uipps ilə görüşmüşdür.*

*Palau Prezidenti COP29-un yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Qonaq qeyd etdi ki, səfər çərçivəsində ölkəmizlə, mədəniyyətimizlə tanış olmaq imkanları olub. Bu görüşün Azərbaycan və Palau prezidentləri arasında yüksək səviyyədə ilk görüş olduğunu deyən Surangel Uipps bunun münasibətlərimizin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.*

*Palau dövlətinin başçısı Azərbaycan Prezidenti və Azərbaycanın COP29-a sədrliyi tərəfindən kiçik ada dövlətlərinin iqlim dəyişmələrinin təsiri nəticəsində onların üzləşdiyi problemlərin əsas prioritetlərdən biri kimi müəyyən edilməsinə görə təşəkkürünü bildirdi. O vurğuladı ki, kiçik ada dövlətləri iqlim dəyişmələrinin bilavasitə təsirinə məruz qalan və ekzistensional təhlükə ilə üzləşən ölkələrdir.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemləri əsas prioritet kimi qiymətləndirilib*

*və kiçik ada dövlətlərinin iştirakı ilə məhz bu məsələyə həsr olunmuş Zirvə toplantısı keçirilibdir.*

*Dövlətimizin başçısı Azərbaycanın Millətlər Birliyi Təşkilatı ilə birlikdə kiçik ada dövlətlərinə xüsusi yardım proqramını həyata keçirdiyini dedi. Prezident İlham Əliyev bu xüsusda təşkilat çərçivəsində Azərbaycanın kosmik imkanlarını səfərbər edərək, həmin dövlətlərin üzləşdiyi iqlim problemləri barədə məlumat bazası sisteminin yaradılması məsələsini qeyd etdi.*

*Prezident vurğuladı ki, 10 ildən artıqdır Paris razılaşmasının 6-cı bəndi üzrə danışıqlar aparılsa da məhz Bakıda keçirilən COP29-da bununla bağlı irəliləyiş əldə olunub. Dövlətimizin başçısı bundan başqa, İtki və Zərərə Cavab Fondunun tam işlək olması istiqamətində tərəqqinin əldə edilməsini irəliyə doğru atılan mühüm addım kimi dəyərləndirdi.*

*Söhbət zamanı bütün dünyadan, xüsusilə də inkişaf etmiş dövlətlərdən yeni maliyyə hədəfləri ilə əlaqədar gözləntilərin olduğu qeyd edildi.*

*Palau Prezidenti dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdi.*

## ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSI 12-ci BAŞ ASSAMBLEYASININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) 12-ci Baş Assambleyasının iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə ev sahibliyi edən Kamboca Xalq Partiyasına təşəkkürümü bildirirəm.

Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı əhatə edən ICAPP fəaliyyət göstərdiyi 24 il ərzində özünü yüksək səviyyəli hökumət nümayəndələrinin, tanınmış ictimai-siyasi xadimlərin və təcrübəli ekspertlərin iştirakı ilə bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual məsələlərin müzakirə olunduğu, fikir və təcrübə mübadiləsinin aparıldığı nüfuzlu və perspektivli əməkdaşlıq platforması kimi təsdiqləmişdir. ICAPP müxtəlif siyasi partiyaları bir araya gətirməklə Asiya ölkələri və xalqları arasında qarşılıqlı anlaşma və etimad mühitinin yaradılmasına böyük töhfə verməkdədir.

ICAPP-ın 12-ci Baş Assambleyası bəşəriyyəti düşündürən olduqca önəmli bir məsələyə həsr olunmuşdur. «Sülh və barışıq axtarışı» mövzusu hazırkı reallıqlar, xüsusən də dünyada baş verən hərbi-siyasi kataklizmlər, silahlı münaqişələr və kəskin qarşıdur-

malar fonunda xalqlar və dövlətlər qarşısında duran ən vacib məsələlərdən və strateji prioritetlərdən biridir.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə Cənubi Qafqazda dayanıqlı sülh, davamlı sabitlik və etibarlı təhlükəsizlik üçün əlverişli şərait, eyni zamanda, daha geniş coğrafiyada yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün mühüm imkanlar yaratmışdır.

Konstruktiv sülh gündəliyini təşviq edən Azərbaycan bu istiqamətdə əhəmiyyətli təklif və təşəbbüslər irəli sürür, daim prinsipial mövqedən çıxış edərək, milli maraqlara uyğun və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan səmərəli fəaliyyət həyata keçirir.

Məlumdur ki, silahlı münaqişələr insan itkisinə, sosial infrastrukturun dağılmasına, bir çox hallarda iqtisadi tənəzzülə və ciddi təhlükəsizlik problemlərinə səbəb olmaqla yanaşı, ətraf mühitə də onilliklər boyu davam edən böyük zərər yetirir.

Bu gün ICAPP tədbirinin keçirildiyi bir vaxtda Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi edir. Dünyanın bir çox ölkəsindən yüksək səviyyəli dövlət və hökumət rəsmilərinin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin, nüfuzlu ekspertlərin iştirak etdiyi COP29 çərçivəsində aparılan müzakirələrdə ifadə olunan ümumi fikir və yekdil qənaətlərdən biri

də ekosistemin mühafizəsinin əsas yollarından biri kimi, müharibələrin qarşısının alınması və silahlı qarşıdurmaların ətraf mühitə zərər vuran nəticələrinin aradan qaldırılması üçün sülh və barışıq tədbirlərinin gücləndirilməsindən ibarətdir.

Əminəm ki, 12-ci Baş Assambleya çərçivəsində keçiriləcək müzakirələr, eləcə də sonda qəbul ediləcək Pnompen Bəyannaməsi ortaq hədəflərimizi reallaşdırmağa mühüm töhfə verəcək və genişmiqyaslı səmərəli əməkdaşlığa yol açacaqdır.

Sizə ən xoş arzularımı çatdırır və 12-ci Baş Assambleyanın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 noyabr 2024-cü il*

**BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ XANIM JELKA TSVİYANOVİÇƏ**

Hörmətli xanım Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsi məmnunluq doğurur.

Bakıda keçirilən COP29 çərçivəsində Sizinlə görüşümü xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2024-cü il*

**SURİNAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇANDRİKAPERSAD SANTOXİYƏ**

Hörmətli cənab Prezident!

Surinam Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Sizin COP29-da iştirak etmək üçün Bakıya səfəriniz Azərbaycan ilə Surinam arasında əlaqələrin tarixində xüsusi yer tutur. Mən Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

Biz Surinam ilə dövlətlərarası münasibətlərimizə və əməkdaşlığımıza böyük əhəmiyyət veririk. İqtisadi-ticari əlaqələrimizi inkişaf etdirmək üçün Azərbaycan ekspertlərindən ibarət nümayəndə heyəti ölkənizə səfər etməyə hazırdır.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim firavanlıq və əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2024-cü il*

## İSRAİL DÖVLƏTİNİN NƏQLİYYAT VƏ YOL TƏHLÜKƏSİZLİYİ NAZİRİ MİRİ REQEV İLƏ GÖRÜŞ

*22 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də İsrail Dövlətinin Nəqliyyat və Yol Təhlükəsizliyi naziri Miri Reqevi qəbul etmişdir.*

*Miri Reqev İsrail Dövlətinin Prezidenti İshaq Hersoqun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrail Dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Görüşdə Bakıda keçirilən COP29-un əhəmiyyəti vurğulandı, iqlim dəyişmələri ilə bağlı məsələlərin müzakirəsi baxımından bu tədbirin önəmli olduğu qeyd edildi.*

*Miri Reqev COP29-un yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırdı.*

*Söhbət zamanı ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*24 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında* «COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!» *sərlövhəsi ilə paylaşım edib.*

*Paylaşımda deyilir:* «Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq. Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

«Yaşıl dünya naminə həmrəylik» şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkan-

ları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyır və ekzistensial təhlükə ilə üzləşirlər. Biz həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP-da İtki və Zərərə Cavab Fondu tam işlək vəziyyətə gətirildi. Biz həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm».

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BAYRAM BEQAYA

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Xoş ənənələr üzərində qurulan dövlətlərarası əlaqələrimizin, qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın möhkəmlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Fəal siyasi dialoqumuz bütün sahələrdə birgə fəaliyyətimizi daha da genişləndirmək üçün yaxşı zəmin yaradır.

Son dövr ərzində həyata keçirilmiş ali səviyyəli qarşılıqlı səfərlər dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın inkişafına yeni təkan vermişdir.

Əminəm ki, Azərbaycan–Albaniya dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək, ikitərəfli və çoxtərəfli qaydada işbirliyimizi dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2024-cü il*

## MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ŞEYX ƏL-QAZUANİYƏ

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram.

İnanıram ki, Azərbaycan–Mavritaniya münasibətlərinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2024-cü il*

## TİMOR-LESTE DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE RAMUŞ-HORTAYA

Hörmətli cənab Prezident!

Timor-Leste Demokratik Respublikasının milli bayramı – Müstəqilliyin Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Son dövrdə Azərbaycan ilə Timor-Leste arasında dostluq münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur. Keçən il Azərbaycana səfəriniz ikitərəfli əlaqələrimizin tarixində yeni səhifə açmışdır. İnanıram ki, bu il diplomatik əlaqələrin qurulmasının 20 illiyini qeyd edən Azərbaycan ilə Timor-Leste arasındakı dostluq münasibətləri daha da inkişaf edəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq, firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2024-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*25 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 25-də Kəlbəcər Şəhəri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.*

*Paylaşımda:* «Zəfər tariximiz – Kəlbəcərin Ermənistan işğalından azad edilməsindən 4 il ötür» *sözləri yer alıb.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ DONALD TRAMP İLƏ TELEFON DANIŞIĞI

*25 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti Donald Trampa telefonla zəng etmişdir.*

*Telefon danışığı əsnasında dövlətimizin başçısı Donald Trampı Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik etdi. Azərbaycan Prezidenti qeyd etdi ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir.*

*Dövlətimizin başçısı vurğuladı ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaqdır.*

*Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirdi.*

*Prezident Donald Tramp öz növbəsində, səmimi təbriklərə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. Donald Tramp ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini qeyd etdi.*

## BAKIDA ABADLIQ, ƏSASLI YENİDƏN QURULMA, TİKİNTİ VƏ GENİŞLƏNDİRMƏ İŞLƏRİNDƏN SONRA MƏRKƏZİ NƏBATAT BAĞININ AÇILIŞI MƏRASİMİ

*28 noyabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri noyabrın 28-də Bakıda abadlıq, əsaslı yenidən qurulma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışı mərasimində iştirak etmişlər.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılmış şəraitlə bağlı ətraflı məlumat verdi.*

*Dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iki dəfə – 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.*

*Bildirildi ki, əsaslı yenidən qurulma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb. Bağda giriş kompleksi yaradılıb, müasir tələblərə, tikinti normalarına cavab verən yeni oranjereyalar, fəvvarə inşa edilibdir, mövcud oranjereyalar əsaslı təmir edilibdir. Burada xarici ölkələrdən gətirilmiş xüsusi şəraitdə bəslənən müx-*

*təlif növdə nadir dekorativ ağaclar, kol və güllər əkilib. Bağın ərazisində bitkilərin yetişdirilməsi məqsədilə 3 bloklu istixana, göl kompleksi və baxış meydançası inşa edilib.*

*Məlumat verildi ki, bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Nəbatat bağında piyadalar üçün 650 metr uzunluğunda müasir körpü tikilib və lift quraşdırılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək. Həmçinin bağda labirint formalı yaşıllıq zonası ilə yanaşı, uşaq-əyləncə meydançası, avtomobillər üçün parklanma yeri də yaradılıb. Köhnə giriş zonası öz tarixi üslubunda təmir edilib. Yeraltı su anbarları, nasosxanalar və qazanxanalar inşa edilib. Ərazi boyu hasar yenidən qurulub, piyada yolları salınıb, müasir oturacaqlar, işıqlandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb, ümumi sahəsi 26 hektar olan yaşıllıqların suvarma sistemləri yenilənibdir.*

*Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidən qurulma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.*

*Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılmış Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir. Burada dün-*

*yanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.*

*Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidən qurulma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulubdur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.*

**RUMINİYA PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
KLAUS VERNER İOHANNİSƏ**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Rumıniyanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Siyasi, iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız dövlətlərarası əlaqələrimizin dinamik inkişafını şərtləndirən amillərdəndir.

Hazırda bir sıra sahələrdə tərəfdaşlığımızın daha da inkişaf etdirilməsi üçün əlverişli şərait mövcuddur. İnanıram ki, Azərbaycan ilə Rumıniya arasında istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvilərdə əməkdaşlıq əlaqələri bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcək.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2024-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*1 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev dekabrın 1-də Laçının Ermənistan işğalından azad edilməsinin 4-cü ildönümü münasibətilə paylaşım edib.*

*Paylaşımda: «*Zəfər tariximiz – Laçının Ermənistan işğalından azad edilməsindən 4 il ötür*» sözləri yer alıb.*

## QVİNEYA-BİSAU RESPUBLİKASININ XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ İCMALAR NAZİRİ KARLOS PİNTO PEREYRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Qvineya-Bisau Respublikasının Xarici İşlər, Beynəlxalq Əməkdaşlıq və Xaricdəki İcmalar naziri Karlos Pinto Pereyranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyətinə Qvineya-Bisaunun Ətraf Mühit naziri Viriato Kassama da daxildir.*

*Dövlətimizin başçısı bu yaxınlarda Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə görüşünü məmnunluqla xatırladaraq, əlaqələrimizin perspektivləri və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından bu görüşün çox səmərəli olduğunu dedi və həmin görüşdən az müddət keçməsinə baxmayaraq, Qvineya-Bisaudan nazirlər səviyyəsində nümayəndə heyətinin ölkəmizə səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev iqtisadiyyat, o cümlədən ticarət və investisiya sahələrində əməkdaşlığın qurulmasının siyasi əlaqələrin də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu diqqətə çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Pinto Pereyra Qvineya-Bisau Prezidentinin Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmlənməsi istəyini ifadə edərək, rəhbəri olduğu nümayəndə heyətinin ölkəmizə bu məqsədlə gəldiyini vurğuladı.*

*Söhbət zamanı təhsil sahəsində əməkdaşlığa toxunuldu, Azərbaycan tərəfindən ölkəmizin ali təhsil müəssisələrində Qvineya-Bisaudan olan tələbələrə xüsusilə mühəndislik, neft-mühəndisliyi və digər sahələrdə təhsil təqaüdlərinin ayrılması məsələsi qeyd edildi. Hələ sovetlər dövründə Qvineya-Bisaudan olan çoxlu sayda tələbənin müxtəlif sahələr üzrə Azərbaycanda təhsil aldıqları məmnunluqla xatırlandı, hazırda həmin şəxslərin Qvineya-Bisau hökumətində təmsil olunduqları bildirildi, həmçinin bugünkü nümayəndə heyətinin tərkibində olan nazirlərin və digər rəhbər şəxslərin də vaxtilə Azərbaycanda təhsil aldıqları vurğulandı.*

*Görüşdə neft və mədənçilik sahəsində əməkdaşlıq qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməsi və geoloji kəşfiyyat işlərinin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Ölkələrimiz arasında diplomatik məsləhətləşmələr mexanizminin inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı səfərlərin intensivləşdirilməsi məsələləri müzakirə olundu.*

*Azərbaycanın «ASAN xidmət» təcrübəsinin Qvineya-Bisau üçün maraqlı olduğu qeyd edildi.*

*Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın dövlət orqanları və özəl qurumları tərəfindən vətən-*

*daşlara göstərilən xidmətlərin vahid məkanda təmin edilməsi təcrübəsi olan «ASAN xidmət» BMT tərəfindən də yüksək qiymətləndirilib. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmiz bu sahədə öz təcrübəsini Qvineya-Bisau ilə bölüşməyə hazırdır.*

## MAVRİTANİYA İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ SİD ƏHMƏD ƏL-BEKAYE HAMADİ İLƏ GÖRÜŞ

*3 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadinin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Azərbaycanın və Mavritaniyanın ənənəvi olaraq dostluq şəraitində əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı bunun beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də qarşılıqlı dəstək və birgə fəaliyyətdə də özünü büruzə verdiyini dedi. Prezident İlham Əliyev müxtəlif sahələrdə münasibətlərimizin möhkəmləndirilməsinin önəminə toxunaraq, siyasi əlaqələrimizin genişləndirilməsinin, ikitərəfli əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin təşkilinin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini qeyd etdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ilk növbədə, Mavritaniya Prezidenti Məhəmməd uld şeyx*

*əl-Qazuaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Sid Əhməd əl-Bekaye Hamadi vurğuladı ki, Mavritaniya Prezidenti dost ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi ilə bağlı ona tapşırıqlar verib.*

*Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mavritaniya Prezidentinə çatdırmağı xahiş etdi.*

*Sid Əhməd əl-Bekaye Hamadi COP29-un çox uğurla keçirilməsi və Azərbaycan Prezidentinin müdrik rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanması və sürətli inkişafı münasibətilə təbriklərini çatdırdı.*

*Ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu deyən səfir səhiyyə, təhsil, kənd təsərrüfatı, balıqçılıq və mədənçilik sahələrindəki geniş imkanları qeyd etdi. O həmçinin Mavritaniyadan olan tələbələr üçün Azərbaycanda təhsil təqaüdlərinin verilməsi imkanlarına baxılmasını xahiş etdi.*

*Görüşdə ikitərəfli iqtisadi-ticari əlaqələrin potensialının araşdırılması üçün müvafiq işçi qruplarının yaradılması və səfərlərin təşkil edilməsi məsələsi qeyd olundu.*

*Söhbət zamanı elm və təhsil sahələrində əməkdaşlıqla bağlı da fikir mübadiləsi aparıldı.*

## EL-SALVADOR RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ENRİKE HAYME KALDERON İLƏ GÖRÜŞ

*3 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də El-Salvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Enrike Hayme Kalderonun etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı əməkdaşlığımızın qurulması istiqamətində səfirin öz səylərini əsirgəməyəcəyinə, bu baxımdan onun Azərbaycanın rəsmi qurumları ilə səmərəli əlaqələr quracağına ümidvar olduğunu bildirərək, bir sıra sahələrdə, o cümlədən iqtisadi əməkdaşlıqla bağlı imkanların müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı.*

*Səfir ilk növbədə, COP29-da ölkəsinin iştirakını məmnunluqla xatırladaraq, bu tədbirin yüksək səviyyədə təşkil edilməsi ilə bağlı Azərbaycan Prezidentini təbrik etdi. O vurğuladı ki, COP29-un təşkili, ölkəmizin inkişafı və əldə etdiyi nailiyyətlər, Bakı şəhərinin gözəlliyi bu tədbir zamanı El-Salvadordan Azərbaycana səfərə gəlmiş nümayəndə heyətinə dərin təəssürat bağışlayıb.*

*Bu il Azərbaycanla El-Salvador arasında diplomatik münasibətlərin yaradılmasının 25 illiyinin qeyd edildiyini deyən Enrike Hayme Kalderon müxtəlif istiqamətlərdə əməkdaşlığın qurulmasının vacibliyinə, o cümlədən infrastruktur, nəqliyyat, energetika sahələri üzrə ölkəsinə investisiya qoyuluşu imkanlarının müəyyən edilməsinin önəminə toxundu.*

*Səfir Azərbaycanın energetika sahəsində böyük uğurlar qazandığını vurğulayaraq, bu istiqamətdə ölkəmizin təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını bildirdi.*

*Dövlətimizin başçısı əlaqələrimizin irəli aparılması üçün ilk növbədə, adi insanların və biznes dairələrinin ölkələrimiz barədə daha çox məlumatlanmalarının vacibliyinə toxundu.*

*Söhbət zamanı Azərbaycanla El-Salvador arasında iqtisadiyyat, ticarət, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi.*

## YƏMƏN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MƏHƏMMƏD SALEH ƏHMƏD TURİQ İLƏ GÖRÜŞ

*3 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiqin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı COP29 zamanı Yəmənin vitse-prezidenti ilə görüşünü xatırladaraq, bunun əlaqələrimizin tarixində bu səviyyədə ilk görüş olduğunu qeyd etdi və orada müzakirə olunan məsələlərin həyata keçirilməsinin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev ilk növbədə, beynəlxalq müstəvidə qarşılıqlı dəstəyin davam etdirilməsinin, iqtisadi sahədə, o cümlədən ticarət, sərmayə qoyuluşu və digər istiqamətlərdə imkanların araşdırılmasının zəruriliyini bildirdi.*

*Səfir əvvəlcə Yəmən Prezident Şurasının Sədri Rəşad Məhəmməd əl-Aliminin salamlarını və Azərbaycan xalqının rifahı ilə bağlı yeni uğurlar arzusunu Prezident İlham Əliyevə, həmçinin Yəmən xalqı-*

*nın salamlarını Azərbaycan xalqına çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yəmən Prezident Şurasının Sədrinə çatdırmağı xahiş etdi.*

*Məhəmməd Saleh Əhməd Turiq eyni zamanda, bu günə qədər beynəlxalq təşkilatlar çərçivəsində Yəmənə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi və bunu yüksək qiymətləndirdiklərini dedi.*

*Səfir COP29-un çox yaxşı səviyyədə təşkili ilə bağlı təbriklərini ifadə edərək vurğuladı ki, bu tədbir dövlətimizin başçısının müdrik rəhbərliyini bütün dünyaya göstərdi, COP29-da iştirak edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gücünün, qüdrətinin bir daha şahidi oldular.*

*Məhəmməd Saleh Əhməd Turiq Azərbaycan ərazilərinin işğaldan azad edilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bu yaxınlarda Qarabağa səfərini məmnunluqla xatırlatdı və bundan şərəf duyduğunu dedi. Səfir dövlətimizin başçısının rəhbərliyi ilə orada aparılan bərpa və quruculuq işlərinin böyük heyranlıq doğurduğunu vurğuladı, qısa müddətdə şəhərlərin salınmasının, yol-nəqliyyat qovşaqlarının, tunellərin ərsəyə gətirilməsinin Azərbaycan dövlətinin gücünün bir daha təzahürü olduğunu qeyd etdi.*

*Diplomat Yəmənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, iki qardaş ölkə arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirdi. Səfir Yəmənin iqtisadi sahədə də Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı*

*olduğunu vurğuladı və bununla bağlı ölkəsinin iş adamlarının Azərbaycana səfərinin təşkilinin önəmini qeyd etdi.*

*Hələ sovet dövründə Azərbaycanda Yəməndən çoxsaylı tələbənin təhsil aldığını və həmin mütəxəssislərin müxtəlif sahələrdə Yəmənin inkişafına töhfə verdiklərini deyən səfir yəmənli tələbələrin ölkəmizdə təhsil alması ənənələrinin davam etdirilməsinin vacibliyinə toxundu.*

*Söhbət zamanı Azərbaycanın və Yəmənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olundu, iqtisadiyyat, ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə işbirliyi imkanlarının araşdırılmasının vacibliyi bildirildi.*

## TÜRKİYƏNİN SABİQ XARİCİ İŞLƏR NAZİRİ, TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVÜ VƏ NATO PARLAMENT ASSAMBLEYASIN - DAKI NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*4 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyənin sabiq Xarici İşlər naziri, Türkiyə Böyük Millət Məclisinin üzvü və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.*

*Dövlətimizin başçısı Mövlud Çavuşoğluna Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakına görə minnətdarlığını bildirərək, bu tədbirin əhəmiyyətinə toxundu.*

*Mövlud Çavuşoğlu da öz növbəsində, bu konfransın önəmini vurğuladı və tədbirə dəvətə görə minnətdarlığını bildirdi.*

*O, Azərbaycanda bu il keçirilmiş parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbriklərini çatdırdı. Eyni zamanda, Azərbaycanın ev sahibliyi etdiyi COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu bu tədbiri tarixi Zirvə toplantısı kimi qiymətləndirərək, burada qəbul edilmiş qərarların böyük önəm daşıdığını vurğuladı.*

*Dövlətimizin başçısı da COP29-un yüksək səviyyədə təşkil olunduğunu və əhəmiyyətini qeyd edərək, Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin həmin tədbirdə iştirakını bir daha yüksək qiymətləndirdi və bunun COP29-un önəminin daha da artırılması işinə töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev xeyli sayda dövlət və hökumət başçısının, digər qonaqların tədbirdə iştirakına toxundu və konfransın qərarların qəbul edilməsi baxımından çox uğurlu olduğunu dedi, COP29-un Azərbaycanın potensialını və liderlik qabiliyyətini bir daha bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Dövlətimizin başçısı bunun Türk Dünyasının da növbəti bir uğuru olduğunu dedi.*

*Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi bildirilərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*4 dekabr 2024-cü il*

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.*

*Telefon söhbəti zamanı Prezident Emoməli Rəhmon COP29-un uğurlu təşkilinə görə təbriklərini çatdırdı və onun nəticələrinin qlobal iqlim gündəliyinin irəli aparılması baxımından vacibliyini vurğuladı.*

*Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi, Emoməli Rəhmonun COP29-un Liderlər Sammitində iştirakını və bütövlükdə Tacikistan nümayəndə heyətinin müzakirələrə fəal töhfə verdiyini məmnuniyyətlə qeyd etdi.*

*Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid olan aktual məsələlər, həmçinin Tacikistanın MDB-də qarşıdan gələn sədrliyi çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ PREZİDENTİ XANIM URSULA FON DER LYAYENƏ

Hörmətli xanım Prezident!

Avropa Komissiyasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi-ticari, nəqliyyat-kommunikasiya, təhlükəsizlik, xüsusilə də strateji xarakter daşıyan və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayan enerji sahəsində səmərəli tərəfdaşlıq əlaqələri mövcuddur.

Əminəm ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın qarşılıqlı hörmət və bərabər hüquqlar əsasında hərtərəfli inkişafı istiqamətində bundan sonra birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, Avropa Komissiyasının yeni tərkibdə qarşıdakı fəaliyyətinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

## «QAYIDIŞ HÜQUQU: ERMƏNİSTANDAN ZORLA ÇIXARILMIŞ AZƏRBAYCANLILAR ÜÇÜN ƏDALƏTİN TƏMİN EDİLMƏSİ» MÖVZUSUNDA II BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Qərbi Azərbaycan İcmasının «Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi» mövzusunda Bakı şəhərində təşkil etdiyi II Beynəlxalq Konfransda salamlayıram.

Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür.

Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918–21, 1948–53 və 1987–91-ci illərdə daha dəhşətli xarakter almış köçürülmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə, azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlərboyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın minillər ərzində yaratdığı mədəni irsi – tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və islam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy məscid salamat qalmışdır. Lakin Ermənistan Göy məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

Ermənistan bununla da kifayətlənməmiş, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal etmiş, etnik təmizləmə törətmiş, şəhər və kəndləri dağıtmış, talan etmiş, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirmişdir.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı Qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal

miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda «Böyük Qayıdışa dair Dövlət Proqramı» uğurla icra edilir.

Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik «böyük Ermənistan» xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir.

Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən qayıdış konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir.

Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

## AZƏRBAYCAN UŞAQLARININ VI ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Uşaqlar cəmiyyətin sabahıdır. Bizim üzərimizə düşən əsas vəzifə onlara aydın səma altında etibarlı gələcək bəxş etməkdir. Ölkəmizdə uşaqlara hərtərəfli qayğının dövlət siyasətinin tərkib hissəsi olması ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu istiqamətdə bir sıra mühüm işlər görülmüş və görülməkdədir. Uşaqlarımız yüksək təhsil almaq, bacarıqlarını inkişaf etdirmək və istedadlarını üzə çıxara bilmək üçün hər cür imkana malikdirlər. Forumunuzun ənənəvi şəkil alması da Azərbaycanda uşaq hüquqlarına diqqətin bariz təzahürlərindəndir.

Builki forum «Yaşıl dünya naminə həmrəylik ili» çərçivəsində keçirilir. Onun həsr olunduğu uşaqlar və ekologiya mövzusu aktuallığı ilə seçilir və övladlarımızın təhlükəsiz ətraf mühitdə yaşamaları baxımından xüsusi məna daşıyır. Bu yaxınlarda Azərbaycan nəhəng miqyaslı beynəlxalq tədbirə – BMT-nin İqlim

Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasına ev sahibliyi etdi. Konfransda ətraf mühit amillərinin uşaqların sağlamlığına təsiri, uşaqlar naminə iqlim fəaliyyətinin gücləndirilməsi məsələləri geniş müzakirə olundu. Çünki Yer üzündə bütün uşaqların sağlam, təmiz dünyaya, «yaşıl» gələcəyə ehtiyacı var və onlar buna layiqdirlər.

Əziz iştirakçılar!

Siz müstəqillik salnaməmizə şanlı səhifələrin yazıldığı günlərin şahidi olan ən yeni nəsli burada təmsil edirsiniz. Sizin şəxsinizdə Azərbaycan uşaqlarının hamısına üz tutub deyirəm: xoşbəxtsiniz ki, parlaq mədəniyyət yaratmış qədim və böyük bir xalqın övladlarısınız. Siz həm də gələcəyimizin təminatısınız. Qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəyik. Siz bizim üçün çox dəyərlisiniz.

İnanıram ki, forum çərçivəsində aparacağınız əhatəli fikir mübadiləsi və qəbul edəcəyiniz qərarlar uşaqlarla bağlı dövlət siyasətimizin bundan sonra da uğurla gerçəkləşdirilməsi işinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

## AZƏRBAYCAN KÖNÜLLÜLƏRİNİN VII HƏMRƏYLİK FORUMUNUN İŞTİRAKÇILARINA

Əziz gənclər!

Sizi – Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumunun iştirakçılarını salamlayır və Beynəlxalq Könüllülər Günü münasibətilə təbrik edirəm.

Ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə ötən əsrin 90-cı illərindən ölkəmizdə xüsusi vüsət almağa başlamış və milli-mənəvi dəyərlərə bağlılığın, vətənə xidmətin nümunəsinə çevrilmiş könüllülük hərəkatı Azərbaycan gənclərinin vahid məqsəd ətrafında hazırkı uğurlu fəaliyyətinin təcəssümüdür. Dövlətimizin hərtərəfli dəstəyi sayəsində sıraları durmadan genişlənən bu hərəkat yüksəliş yolu ilə irəliləyərək indiki inkişaf səviyyəsinə çatmış və cəmiyyət həyatının bütün sahələrinə nüfuz etməyə müvəffəq olmuşdur.

Forumunuzun «Yaşıl dünya naminə həmrəylik ili» çərçivəsində təşkili xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əməli fəaliyyətlərində daim xeyirxahlıq, fədakarlıq və təmənnasız yardım kimi ali bəşəri keyfiyyətləri rəhbər tutan könüllülərimiz təbiətin və ətraf mühitin qorunması istiqamətində vətəndaşlar arasında maarifləndirmə işinə böyük töhfə verirlər. Onlar ölkəmizdə dünyanın ən irimiqyaslı və mühüm tədbirlərindən olan BMT-nin İqlim Dəyişmə-

ləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi günlərdə vəzifələrinin öhdəsindən layiqincə gəldilər.

Dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpası nəticəsində müstəqillik tariximizin yeni mərhələsini yaşayırıq. İşğaldan azad olunmuş ərazilərimizdə həyatın sürətlə yenidən canlandırılması üçün misilsiz quruculuq işləri aparılmaqdadır. Gənclər siyasətinin başlıca prinsiplərinə uyğun innovativ sosial təşəbbüsləri ilə ölkəmizin davamlı tərəqqisinə xidmət göstərən könüllülərimiz Böyük Qayıdış prosesində də fəal iştirak edirlər.

İnanıram ki, siz milli dövlətçiliyə dərin sədaqəti bundan sonra da həyatınızın amalı biləcək, vətənimizin qüdrətinin artırılması naminə bilik və bacarığınızı əsirgəməyəcəksiniz. Hər birinizə gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYANA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Birləşmiş Ərəb Əmirlikləri Sizin rəhbərliyiniz altında böyük uğurlara imza ataraq, dünyanın inkişaf etmiş və böyük nailiyyətlər qazanmış ölkələrindən birinə çevrilmişdir.

Qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək üzərində qurulmuş Azərbaycan – BƏƏ dövlətlərarası münasibətlər hazırda dinamik və hərtərəfli inkişaf etməkdədir. Fəal siyasi dialoqumuz bütün sahələrdə əməkdaşlığımızı daha da genişləndirmək üçün yaxşı zəmin yaradır. Cari il ərzində Sizin Azərbaycana həyata keçirdiyiniz iki səfər qardaşlıq münasibətlərimizin yüksək səviyyəsindən xəbər verir.

Son dövrdə ölkələrimiz arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, əməkdaşlığımızın inkişafında yeni istiqamətlər müəyyən edilmişdir. Enerji sektorunda, xüsusilə də «yaşıl enerji» sahəsində atdığımız önəmli addımlar məmnunluq doğurur. Bu xüsusda ölkənizin «Masdar»

şirkətinin bərpa olunan enerji sahəsində Azərbaycandakı səmərəli fəaliyyətini ayrıca vurğulamaq istərdim.

Eyni zamanda, Azərbaycanın COP29 sədrliyi ilə BƏƏ-nin COP28 sədrliyi arasında təşəkkül tapmış uğurlu əməkdaşlıq münasibətlərini təqdir edir, ölkələrimizin bundan sonra da iqlim fəaliyyətinin irəli aparılması istiqamətində birgə çalışacağına inamımı ifadə edirəm.

Əminəm ki, Azərbaycan–BƏƏ dostluğunun və etibarlı tərəfdaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli əsaslarda genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THONQLUN SİSULİTƏ

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Laos dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Cari ilin oktyabrında Sizinlə Kazanda səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək, birgə səylərimizlə dostluq əlaqələrimizin inkişafına, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq. Fürsətdən istifadə edərək, Sizi Azərbaycana səfərə dəvət edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

**TAYLAND KRALI ƏLAHƏZRƏT MAHA VAÇİRALONGKORN PHRA VAÇİRAKLAOCHAYUHUAYA**

Əlahəzrət!

Tayland Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

2024-cü ildə Azərbaycanın Banqkokda səfirliyinin fəaliyyətə başlaması ikitərəfli əlaqələrimizin yeni müstəviyə keçməsinin bariz nümunəsidir. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Tayland arasında qarşılıqlı maraq doğuran sahələrdə əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi uğurla davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Tayland Krallığının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR STUBBA**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Finlandiya arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik. COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi və Sizinlə keçirdiyimiz görüşü xoş təəssüratlarla xatırlayıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2024-cü il*

**AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANTONİO KOŞTAYA**

Hörmətli cənab Prezident!

Avropa İttifaqı Şurasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələri geniş gündəliyə malikdir və enerji, o cümlədən «yaşıl enerji», nəqliyyat, ticarət və digər sahələri əhatə edir. Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın mühüm rolu danılmazdır.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi dialoqun, iqtisadi-ticari əməkdaşlığın və mədəni mübadilələrin qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da inkişaf etməsi, konstruktiv tərəfdaşlığımızın möhkəmlənməsi üçün birgə səylər göstərəcəyik.

Sizə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 dekabr 2024-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFON DANIŞIĞI

*10 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğuladılar.*

*Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının Liderlər Sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, geniş tərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğuladı.*

*Prezident Rəcəb Tayyib Ərdoğan öz növbəsində, COP29-un uğurla keçirilməsi və danışıqlar prosesində əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunuldu, xüsu-*

*silə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olundu.*

*Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə etdilər.*

*Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd etdi.*

*Prezident Rəcəb Tayyib Ərdoğan bütün sahələrdə olduğu kimi, Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd etdi.*

*Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİN İLƏ GÖRÜŞ

*10 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətinin Qubadlı rayonuna səfərinin əhəmiyyətinə toxundu, orada Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq uşaq bağçasının inşasının önəmini vurğuladı, buna görə bir daha minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bunu Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin, o cümlədən ölkəmizlə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfəri zamanı İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətinin həmin ərazilərdə törədilmiş dağıntıları, eyni zamanda, keçmiş məcburi köçkünlərin oraya tezliklə köçürülməsinin təmin edilməsi üçün Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini öz gözləri ilə görməsinin əhəmiyyətinə toxundu. Azərbaycan Prezidenti bir daha*

*qeyd etdi ki, Həştərxan nümayəndə heyətinin orada gördüyü dağıntılar bütün Qarabağ və Şərqi Zəngəzurda – böyük bir ərazidə də var.*

*Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında yenidən qurulma və bərpa işlərinə, o cümlədən sosial infrastrukturun yaradılmasına verilən hər cür dəstək, xüsusilə dost ölkələr tərəfindən göstərilən dəstək çox mühüm əhəmiyyət və böyük rəmzi xarakter daşıyır.*

*Görüşdə Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi, eləcə də ölkəmizin Rusiyanın ayrı-ayrı bölgələri, o cümlədən Həştərxan vilayəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı.*

*Prezident İlham Əliyev bu il Rusiya Prezidentinin Azərbaycana dövlət səfərinin əlaqələrimizin inkişafında çox əlamətdar bir hadisə olduğunu dedi, bu səfərin həm forma, həm də məzmun cəhətdən çox səmərəli və dolğun olduğunu vurğuladı. Dövlətimizin başçısı Rusiya Federasiyası Hökuməti Sədrinin ölkəmizə səfərinin də əməkdaşlığımızın genişlənməsi işinə töhfə verdiyini qeyd etdi.*

*Qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin bu gün Qubadlı rayonuna səfərinin həmin əraziləri və orada həyata keçirilən işləri öz gözləri ilə görmələri üçün yaxşı imkan yaratdığını söylədi, orada uşaq bağçasının inşasının önəmini qeyd etdi.*

*İqor Babuşkin Azərbaycanla iqtisadi-ticari əməkdaşlığın genişlənməsi üçün konkret tədbirlərin həyata keçirildiyini bildirdi.*

*Söhbət zamanı nəqliyyat, tranzit yükdaşımalar, kənd təsərrüfatı, ticarət, turizm və humanitar sahələrdə əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə olundu.*

*Qubernator İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

**KENİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB UİLYAM SAMOİ RUTOYA**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Biz Keniya ilə əlaqələrimizin inkişafına böyük əhəmiyyət veririk. Azərbaycan ilə Keniya arasında diplomatik münasibətlərin qurulmasından ötən iyirmiillik dövr ərzində ikitərəfli əlaqələrimiz genişlənmiş, müxtəlif sahələrdə əməkdaşlığımız dinamik inkişaf etmişdir.

İnanıram ki, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası münasibətlərimizi daha da möhkəmləndirmək, qarşılıqlı maraq doğuran bir sıra sahələr üzrə əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2024-cü il*

## AMERİKA–İSRAİL İCTİMAİ ƏLAQƏLƏR KOMİTƏSİNİN (AIPAC) PREZİDENTİ MAYKL TUÇİN VƏ KOMİTƏNİN YENİ SEÇİLMİŞ PREZİDENTİ BERNARD KAMİNETSKİ İLƏ GÖRÜŞ

*11 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika – İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul etmişdir.*

*Qəbula görə minnətdarlıqlarını bildirən Maykl Tuçin və Bernard Kaminetski dövlətimizin başçısı ilə əvvəlki görüşlərini məmnunluqla xatırlatdılar. Onlar Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür etdilər.*

*Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını dedilər və qeyd etdilər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.*

*Maykl Tuçin və Bernard Kaminetski, həmçinin Azərbaycanda yəhudi icmasının fəaliyyəti və dini ayinlərini həyata keçirməsi üçün yaradılan şəraitə, yəhudi ibadət ocaqlarına dövlət səviyyəsində göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə etdilər.*

*Dövlətimizin başçısı da öz növbəsində qeyd etdi ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlərboyu ölkəmizdə belə harmonik ab-hava mövcud olub. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar eyni zamanda, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.*

*Dövlətimizin başçısı Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə beynəlxalq səviyyədə ciddi töhfə verdiyini və Bakının bu xüsusda aparılan müzakirələrin ev sahibi olduğunu qeyd etdi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*11 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.*

*Foto paylaşımın üzərində*: «Ümummilli lider Heydər Əliyev – 1923–2003» *sözləri yazılıb.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2024-cü il*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 21 il ötür.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 12-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişlər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

* * *

*Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş ulu öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu ulu öndərin hakimiyyətdə olduğu dövrün əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider tərəfindən dövlətçiliyin əsasları qoyuldu və genişmiqyaslı islahatlara start verildi. Ulu öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.*

*Xalqımız dahi şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. XX əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir.*

*Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham ulu öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.*

*Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olundu. İndi üçrəngli Dövlət bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində*

*qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidən qurulma işləri aparılır.*

*Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk Dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.*

*Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca ulu öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcəkdir.*

**GÜRCÜSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL KAVELAŞVİLİYƏ**

Hörmətli cənab Kavelaşvili!

Gürcüstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Gürcüstan əlaqələri tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir.

İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı, regionumuzun sabitliyi və təhlükəsizliyinin təmin olunması, iqtisadi potensialının reallaşdırılması naminə dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2024-cü il*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. İnanıram ki, Azərbaycan–Bəhreyn əlaqələrinin genişləndirilməsi, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Bəhreyn xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2024-cü il*

## MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏTLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏLAQƏLƏR ÜZRƏ KATİBİ ARXİYEPİSKOP PAUL RİÇARD QALLAGER İLƏ GÖRÜŞ

*16 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul etmişdir.*

*Arxiyepiskop Paul Riçard Qallager Roma Papası Fransiskin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.*

*Roma Papasının sonuncu dəfə 2016-cı ildə Azərbaycana səfər etdiyini deyən dövlətimizin başçısı həmin vaxt və özünün 2020-ci ildə Vatikana səfəri çərçivəsində Roma Papası ilə görüşlərini məmnunluqla xatırlatdı, Roma Papasını ölkəmizə səfərə dəvət etdi.*

*Səfərinin əsas məqsədinin Azərbaycanda II İohann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdis edilməsi olduğunu deyən qonaq bu kilsənin inşası üçün ərazinin ayrılmasına və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi, bunun tərəfdaşlığın nümunəsi ol-*

*duğunu və ölkəmizdəki katolik icması tərəfindən çox böyük rəğbətlə qarşılandığını vurğuladı.*

*Dövlətimizin başçısı yeni kilsənin inşasına başlanmasından məmnunluğunu ifadə edərək, arxiyepiskop Paul Riçard Qallagerin ölkəmizə səfərinin və kilsənin tikiləcəyi ərazini təqdis etməsinin Müqəddəs Taxt-tacın Azərbaycanın katolik icması ilə əlaqələrə verdiyi önəmi nümayiş etdirdiyini söylədi. Prezident İlham Əliyev yeni tikiləcək kilsənin əlaqələrimizin yaxşı rəmzi olacağını vurğuladı.*

*Qonaq Azərbaycanda müxtəlif dini icmaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etdi. Arxiyepiskop Paul Riçard Qallager vurğuladı ki, müxtəlif dinlərin və konfessiyaların nümayəndələrinə belə hörmət göstərilməsi, harmonik şəraitin yaradılması Azərbaycanın və xalqımızın fərqləndirici xüsusiyyətlərindən biridir.*

*Dövlətimizin başçısı Azərbaycanın multikulturalizm ənənələrini qeyd edərək, ölkəmizdə müxtəlif xalqların və konfessiyaların nümayəndələrinin daim sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşadığını vurğuladı.*

*Arxiyepiskop Paul Riçard Qallager ölkəmizdəki katolik icmasının nümayəndələrinin Azərbaycan rəsmiləri və cəmiyyəti ilə rahat şəraitdə münasibətlərinin olmasından məmnunluğunu bildirdi və qeyd etdi ki, bu da Azərbaycana nüfuz gətirən amillərdən biridir. Qonaq ölkəmizə səfəri çərçivəsində çox səmərəli görüşlər keçirdiyini dedi.*

*Prezident İlham Əliyev bütün bunların Azərbaycan üçün fəxr hissi doğurduğunu bildirdi, ölkəmizdə multikulturalizmin və çoxmillətliliyin daim təmin olunmasını məmnunluqla qeyd etdi, bunu dövlət siyasəti ilə xalqımızın ənənəvi yaşayış tərzinin vəhdəti olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, müxtəlif millətlərin, dinlərin nümayəndələrinin ölkəmizdə sülh, dostluq və mehriban şəraitdə yaşaması Azərbaycana əlavə güc verir, sabitliyin və cəmiyyətdə ahəngdarlığın təmin olunmasına xidmət edir.*

*Azərbaycanın, həmçinin beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoq prosesinə və bu sahədə əməkdaşlığa böyük töhfə verdiyini deyən dövlətimizin başçısı ölkəmizdə mütəmadi olaraq mədəniyyətlər və konfessiyalararası dialoqa həsr edilən beynəlxalq tədbirlərin keçirildiyini məmnunluqla xatırlatdı.*

*Qonaq COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev bildirdi ki, COP29 ərəfəsində dünya dini liderlərinin sammiti də keçirilib və orada dünya dini liderləri tərəfindən də iqlim dəyişmələri ilə əlaqədar beynəlxalq ictimaiyyətə müraciət olunub. COP29 zamanı Azərbaycanın müxtəlif tərəflər arasında körpülərin yaradılmasına çalışdığını deyən dövlətimizin başçısı bu tədbir çərçivəsində aparılan danışıqlar prosesinin uğurlu nəticələr verdiyini xüsusilə qeyd etdi.*

*Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı.*

*Azərbaycan Prezidenti Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini vurğuladı.*

*Görüşdə Yaxın Şərqdəki vəziyyətə toxunuldu. Prezident İlham Əliyev Əsəd rejiminin çökməsindən sonra qardaş Türkiyə ilə məsləhətləşərək, Suriya xalqının üzləşdiyi humanitar problemlərin həllinə dəstək verməyə hazır olduğunu bir daha qeyd etdi.*

*Arxiyepiskop Paul Riçard Qallager dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD AL TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan–Qətər dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, dövlətlərarası münasibətlərimiz, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə uğurla davam edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 dekabr 2024-cü il*

## RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ RƏİSİ RÜSTƏM MİNNİXANOV İLƏ GÖRÜŞ

*17 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşmüşdür.*

*Əvvəlcə Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycanın «Dostluq» ordeni ilə təltifolunma mərasimi keçirildi.*

*Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Minnixanov «Dostluq» ordeni ilə təltif edilibdir.*

**İlham Əliyev:** Layiq olduğunuz mükafat münasibətilə Sizi təbrik edirəm. Uzun illərdir ki, Siz ənənəvi əlaqələrimizin möhkəmlənməsi üçün çox iş görürsünüz. Ona görə də belə yüksək mükafatı Sizə təqdim etmək və yeni uğurlar arzulamaq mənim üçün çox xoşdur.

**Rüstəm Minnixanov**: Cənab Prezident, çox sağ olun. Bu, yüksək mükafatdır. Biz Rusiya–Azərbaycan münasibətləri çərçivəsində əlaqələrimizi yüksək qiymətləndiririk. Tatarıstan burada xüsusi

yerə malikdir. Tarixən belə alınıb ki, qardaş xalqlarımız və ən başlıcası, liderlərimiz – Azərbaycanın lideri Heydər Əliyev və birinci Prezidentimiz Mintimer Şaripoviç Şaymiyev bizim inkişaf etdirdiyimiz həmin kursun əsasını qoyublar.

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov birgə nahar etdilər.*

# ÜMUMRUSİYA DÖVLƏT TELEVİZİYA VƏ RADİO YAYIMI ŞİRKƏTİ VƏ RUSİYANIN «RİA NOVOSTİ» AGENTLİYİ ÜÇÜN «ROSSİYA SEQODNYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİNİN BAŞ DİREKTORU, «ROSSİYA-1» TELEVİZİYA KANALINDA YAYIMLANAN «VESTİ NEDELİ» PROQRAMININ MÜƏLLİFİ VƏ APARICISI DMİTRİ KİSELYOVA MÜSAHİBƏ

*17 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın «RİA Novosti» Agentliyi üçün «Rossiya Seqodnya» Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, «Rossiya-1» televiziya kanalında «Vesti nedeli» proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinə və «RİA Novosti» agentliyinə müsahibə verməyə razı olduğunuza görə Sizə ürəkdən təşəkkür edirəm. 2022-ci ildə xüsusi hərbi əməliyyatın başlanmasına bir neçə gün, sözün əsl mənasında, bir neçə saat qalmış Moskvada Prezident Putinlə Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladınız. O vaxtdan bəri**

**dünya əsaslı şəkildə dəyişib. İndi Azərbaycanla Rusiya arasında müttəfiqlik nə deməkdir?**

**C a v a b:** Tamamilə haqlısınız. Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə 2022-ci il fevralın 22-də imzalanıb. Düzgün qeyd etdiyiniz kimi, regionumuzda və bütövlükdə dünyada vəziyyət əhəmiyyətli dərəcədə dəyişib, lakin bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın xarakterinə və formasına təsir etməyib. Hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən mühüm siyasi addımdır. Bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik, qonşuyuq və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman deyərdim ki, belə bir sənəd tarixi hadisədir.

Əlbəttə, biz müttəfiqlər olaraq dərhal müxtəlif, hətta ikitərəfli formatımızın hansısa kölgədə qalan istiqamətləri üzrə də fəal işə başladıq.

Bəyannamənin imzalanmasından ötən illər ərzində Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana çox əlamətdar, həm də tarixi səfəri baş tutdu. O, dəfələrlə bizim ölkəyə gəlib, am-

ma bu səfər xüsusi idi. Dövlət səfəri ilk dəfə bu ilin yayında həyata keçirilib. Həmin səfər çərçivəsində biz nəinki münasibətlərimizin müttəfiqlik xarakterini təsdiqlədik, həm də ikitərəfli qarşılıqlı fəaliyyətin inkişaf yollarını müəyyənləşdirdik. Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur. Dediyim kimi, ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Əminəm ki, bundan sonra da belə olacaq.

Əlbəttə, biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik, ticarət dövriyyəsi artır, bəlkə də bizim istədiyimiz sürətlə deyil, bununla belə, dinamika mövcuddur. Rusiyalıların Azərbaycana səfərləri baxımından da COVID-dən əvvəlki səviyyəyə çatırıq ki, bu da həm siyasi, həm də sırf insani mühitin maksimum müsbət olduğunu göstərir, bu səfərlər və qarşılıqlı səfərlər insanların özlərini rahat hiss etdikləri istiqamətlərdə həyata keçirilir. Son 2-3 il ərzində qarşılıqlı səfərlərin əhəmiyyətli dərəcədə artdığını görürük. Hazırda ölkələrimiz arasında reyslərin sayının artması buna əsas sübutdur. Düşünürəm ki, indi onlar sovet illəri ilə müqayisədə azı iki dəfə çoxdur.

Odur ki, biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk və əminəm ki, bu müsbət dinamika gələn ildə də qorunub saxlanılacaqdır.

**S u a l: Rusiya üçün indi müharibə dövrüdür. NATO-da bildirirlər ki, blok yaxın 5-7 il ərzində**

**Rusiya ilə müharibəyə hazır olmalıdır. Bunun üçün praktiki hazırlıq gedir. Səfərbərlik sistemi dəyişdirilib, Andrey Belousov bazar ertəsi Rusiya Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiyasında bu barədə danışıb ki, 10 gün ərzində Rusiyanın sərhədləri yaxınlığında 100 min, 30 gün ərzində 300 min, 180 gün ərzində isə 800 min NATO əsgəri olmalıdır. NATO 2026-cı ildə Almaniyada ortamənzilli raketlər yerləşdirməyi planlaşdırır, Putinin NATO bunu etmədikcə Rusiyanın da etməyəcəyi ilə bağlı xəbərdarlığına baxmayaraq. Rusiyanın Müdafiə naziri Andrey Belousov bazar ertəsi Prezidentin iştirakı ilə Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiyasında bildirib ki, Rusiya yaxın onillikdə NATO ilə müharibəyə hazır olmalıdır. Bu, Azərbaycanla Rusiya arasında müttəfiqlik münasibətləri üçün nə deməkdir?**

**C a v a b:** Mən yenə də ümidvar olduğumu bildirmək istəyirəm ki, işlər NATO ilə Rusiya arasında belə açıq-aşkar qarşıdurmaya gətirib çıxarmayacaq. Birincisi, ona görə ki, hamı bunun bütün dünya, bütün ölkələr və regionla həmsərhəd olan ölkələr üçün fəlakətli nəticələrini dərk edir. İkincisi, mən yenə də ümid edirəm ki, Birləşmiş Ştatlarda administrasiya dəyişikliyi həm də xarici siyasət istiqamətlərində dəyişiklik olacaq. Cənab Trampın birinci prezidentlik dövründəki təcrübəsi, eləcə də komandasının üzvlərinin seçkiqabağı kampaniyası zamanı və ondan sonra verdikləri bəyanatlar buna ümid etməyə imkan verir. Buna görə də NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir. Ay-

dındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək. Düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin.

Azərbaycanın öhdəliklərinə gəlincə, biz bütün öhdəliklərimizə maksimum dərəcədə məsuliyyətlə yanaşırıq və bundan sonra da belə edəcəyik. Düşünürəm ki, Azərbaycan da gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər, bir az unudulmuş sözdür – gərginliyin azaldılması – «detente». Düşünürəm, bu sözə indi beynəlxalq leksikonda tələbat var və ümid edirəm ki, ondan istifadə olunacaq. Xarici siyasətin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur. Buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir. Biz isə təbii ki, Yer üzündəki real vəziyyətdən çıxış edəcəyik və bir daha demək istəyirəm ki, bəlkə hansısa mərhələdə Azərbaycanın səyləri tələb olunacaq. Burada Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Hərbi Komitəsinin rəisi səviyyəsində bir sıra görüşlər keçirilib, eləcə də Birləşmiş Ştatların və Rusiyanın hərbi rəhbərliyi də Bakıda görüşüblər. Axı bu, təsadüfən seçilməyib. Həm Qərbdə, həm Ru-

siyada, həm də Şərqdə etibar edilən ölkələr çox deyil. Həm də hərbi-siyasi strukturlarda formal və ya qeyri-formal üzvlüklə məşğul olmayan ölkələr çox deyil. Buna görə də əgər belə bir ehtiyac olarsa, biz gərginliyin aradan qaldırılmasına öz töhfəmizi verməyə hazırıq.

**S u a l: Rusiyada bu müharibə Ukrayna ilə müharibə kimi deyil, dünyanın yenidən qurulması uğrunda Ukrayna ərazisində Qərblə sivilizasiya döyüşü kimi qəbul edilir, çünki istənilən sülh müharibənin nəticəsidir və Azərbaycan bunu çox gözəl bilir. Siz Türkiyə ilə müttəfiqlik münasibətlərindən danışırsınız. Azərbaycanda Türkiyənin hərbi bazasına ehtiyac varmı?**

**C a v a b:** Xeyr, qısa desək, lazım deyil. Vaxtaşırı müəyyən mediada belə məlumatların yayımlandığını nəzərə alaraq, cavabımı azca genişləndirsəm, deməliyəm ki, buna ehtiyac yoxdur. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra, 1992-ci ilin əvvəlindən Türkiyə ilə hərbi əməkdaşlıq edir. Bu hərbi əməkdaşlıq o vaxt başlayıb və bu günə qədər davam edir. Təbii ki, zərurətdən asılı olaraq formalar dəyişir, amma deməliyəm ki, 30 ildən artıq müddətdə Türkiyə və onun hərbi strukturları Azərbaycan Ordusunun müasirləşdirilməsində və onun döyüş qabiliyyətinə, əməliyyatların planlaşdırılmasına, vəziyyətin təhlilinə, hərbi kəşfiyyatın potensialına uyğun olaraq yüksək standartlara çatdırılmasında böyük rol oynayıblar. Yəni belə yardıma görə türk dostlarımıza çox minnətdarıq.

Azərbaycan ilə Rusiya arasındakı Bəyannamədən bir il əvvəl Türkiyə ilə Azərbaycan arasında

imzalanmış müttəfiqlik haqqında Bəyannamədə təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Bu həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir. Buna görə də Bəyannamənin həmin bəndi mahiyyət etibarilə bu və ya digər ərazidə hər hansı daimi hərbi infrastrukturun yaradılmasını tamamilə lüzumsuz edir. Bir daha informasiya müdaxiləsinə qayıdaraq demək istərdim ki, bu gün dünyanın heç bir yerində heç bir hərbi bazanı gizlətmək, demək olar ki, mümkün deyil. Ona görə də bu informasiya müdaxilələri sadəcə, siyasi möhtəkirlik xarakteri daşıyır. Türkiyə ilə biz hər il 10-dan çox birgə təlim keçiririk – yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir. Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib. İkinci dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər. Siyasi istəklərdə yenidən güc amili ön plana çıxır. Bunu daha tez dərk edən ölkələr bu gün özlərini daha təhlükəsiz hiss edə bilərlər. Halbuki müasir dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz.

**S u a l: Azərbaycan bundan sonra da Rusiyadan silah almağı planlaşdırırmı və hansı həcmdə?**

**C a v a b:** Bəli, amma deməliyəm ki, ən azı son 3 ildə Rusiya silahlarının alınması ilə bağlı yeni

müqavilələr imzalanmayıb. Bunun səbəbi isə Rusiya müdafiə sənayesinin, deyək ki, yerli istehlakçı üçün işləməsidir. Bildiyimə görə, Rusiya məlum səbəblərdən müvəqqəti olaraq beynəlxalq silah bazarından çəkilib. Hətta 4 il əvvəl imzalanmış bəzi müqavilələrin də Rusiyanın xahişi ilə icra müddəti təxirə salınıb. Biz vəziyyəti başa düşərək, bununla razılaşdıq, bu vəziyyət nəticəsində həmin müqavilələr icra oluna bilməz. Amma biz Rusiyanın müdafiə sənayesinin yeniliklərini də diqqətlə izləyirik. Artıq yeni müraciətlərimiz olub. Biz onları bu yaxınlarda göndərmişik və Rusiyanın müdafiə sənayesi hazır olduqda, təbii ki, yeni müqavilələr bağlayacağıq. Odur ki, mən bu prosesi obyektiv səbəblərdən müvəqqəti olaraq dayandırılmış hesab edirəm.

**S u a l: Nikol Paşinyan KTMT ilə münasibətlərində geri dönüşün olmadığını açıqlayıb, Fransa ilə münasibətləri fəallaşdırır. Bu, regional təhlükəsizlik, xüsusən də Azərbaycan üçün nə deməkdir?**

**C a v a b:** Bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarımda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq. Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden Administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmanı dəyişərək, Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzə-

rə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu 1000 kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşir və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dır. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər – hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər – ABŞ isə bunu etiraf etmir. Halbuki biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik. Təbii ki, adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu təxminən 5 milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətir-

məyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək. Axı Makron 2020-ci və ya 2023-cü ildə onlara necə kömək etdi, onları dəstəklədi, bəli, əlindən, yəqin ki, başqa hansı yerindən tutdu, bilmirəm. Bu qədər. Biz onun nəyə qadir olduğunu çox yaxşı bilirik. Odur ki, həm danışıqlar prosesi çərçivəsində, həm də Ermənistanla Azərbaycan arasında işləyən Delimitasiya Komissiyası çərçivəsində və erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın.

**S u a l: Amma bir vaxtlar elə görünürdü ki, sülh sazişi tezliklə bağlanacaq. Bəs niyə bağlanmır? Sözün əsl mənasında, hazır vəziyyətdə dayanmışdılar.**

**C a v a b:** Bəli. Qərbdə bu iki proses nə üçünsə bir-birindən ayrıdır. Baxmayaraq, biz hesab edirik ki, bu iki proses birləşdirilməlidir. Sülh sazişi və Ermənistanın eyni vaxtda bizə qarşı silahlandırılması iki fərqli kursdur. Biz əslində sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik. Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss

etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam. Bu halda...

**S u a l: Əgər dəqiqləşdirsək, hansı maddələrdir?**

**C a v a b:** Onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır. Zənnimcə bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir. Bu yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni işğal illərində vurulan zərərdir. Ona görə də qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbulediləndir. Digər maddə başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Bu niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının Prezidenti Şarl Mişel, Fransa Prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq...

**S u a l: Məhz müşahidəçilərin?**

**C a v a b:** Məhz müşahidəçilərin. İki ay müddətinə 40 nəfər yerləşdiriləcəkdi. Sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan

ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə niyə bizimlə razılaşdırdınız? Axı belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu bizim razılığa gələcəyimiz ikinci maddədir. Erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik Bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə, obyektiv şərtdir.

İkinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu çoxdan fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni Ermənistanın ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etmək istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir.

Prinsipcə bunlar hamısıdır, əgər bunlar həll edilsə, sülh sazişinin imzalanmasına daha heç bir maneə

olmayacaq. Davam edən silahlanma yarışına gəldikdə, bu, sülh sazişinin bir hissəsi ola bilməz, amma Ermənistanla qarşılıqlı fəaliyyətin sanki başqa formatının bir hissəsi olacaq. Biz gələcəkdə də ilk növbədə, belə hərəkətlərin onlar üçün fəlakətli olacağını erməni tərəfinə çatdırmağa çalışacağıq.

**S u a l: Qarabağda erməni qalıbmı? İndi orada vəziyyət necədir?**

**C a v a b:** Təqribən 2 ay əvvəl son informasiya ondan ibarət idi ki, orada erməni millətindən olan 20-yə yaxın sakin yaşayır. Hələ 2023-cü ilin sentyabrında biz birgünlük antiterror əməliyyatı keçirənə qədər Qarabağ ermənilərinin Azərbaycan dövlətinə reinteqrasiyası planını rəsmi olaraq dərc etdik. Bu, açıq şəkildə edildi. Bu, internetdə elan olundu. Çünki erməni ictimaiyyətinin nümayəndələri ilə təmas qurmaq üzrə çoxsaylı cəhdlərimiz uğurla nəticələnmədi. Onlar bizə məhəl qoymur, bizimlə görüşmək, danışmaq istəmirdilər. Belə olan təqdirdə orada yaşayanların, necə deyərlər, diqqətinə çatdırmaq üçün bunu internetdə yaydıq. Orada kifayət qədər aydın şəkildə hər şey yazılıb, istəyən hər kəs baxa bilər, təhsildən, mədəni mühitin qorunub saxlanılmasından, reinteqrasiyadan, inteqrasiya yollarından, yaxud yaşamaq üçün müraciət etmək və ya vətəndaşlıq almaq, işləməyə icazə verilməsinədək bütün məsələlər. Vəziyyət bundan ibarət idi. Əgər onlardan hər hansı biri bu baş verənlərdən sonra hansısa anlaşılmaz «Dağlıq Qarabağ respublikasında» yaşadığını düşünürdüsə, bu onların problemidir. Yəni hər hansı bir insan kimi. Bir insan Azərbaycandan Rusiyaya işlə-

məyə gedir, müvəqqəti yaşayış hüququ və ya çalışma icazəsi alır, qeydiyyatdan keçir, sonra o, vətəndaşlıq üçün müraciət edir. Proses bundan ibarətdir. Biz də bunu təklif etdik, amma heç biri qəbul olunmadı. Belə olan halda, vəziyyət dəyişdi, orada qalanlar – onların sayı o qədər də çox deyildi, təqribən 30-dan çox insan, bir hissəsi sonra çıxıb getdi – əvvəlki kimi, Azərbaycandan, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sosial yardım alırlar, onların müalicəsi, ərzaqla təminatı qarşılanıb, orada həyat tam təmin edilib. Məsələ məhz bundan ibarətdir. Buna paralel olaraq, Ermənistandan gələnlərin icması var, onlar ötən əsrin 80-ci illərinin sonunda – 90-cı illərin əvvəllərində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib.

**S u a l: Artıq Ermənistana?**

**C a v a b:** Artıq Ermənistana. Çünki onların ötən əsrin 90-cı illərinin əvvəllərində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq. Zənnimcə, əgər bu iki proses paralel kursla gedərsə, onda bu, sülh üçün ən yaxşı ictimai ab-hava yaradacaq. Çünki sülh təkcə sülh sazişini imzalamaq demək deyil, həm də ictimai konsensusdur. Bizim işğal illərində aldığımız yaralar isə 30 il keçməsinə baxmayaraq hələ də sağalmayıb. Bunun üçün vaxt lazımdır. Bu məqsəd üçün ictimai fon,

ünsiyyət lazımdır, insani dildə danışmaq gərəkdir. Beləliklə, indi vəziyyət bundan ibarətdir.

**S u a l: Rusiya şirkətləri Qarabağın bərpasında iştirak edirmi? Bu barədə danışardınız.**

**C a v a b:** Bəli, bu yaxınlarda Həştərxan vilayətinin qubernatorunun tapşırığına əsasən, uşaq bağçasının tikintisinə başlanılıb. O bu yaxınlarda bizi ziyarət etdi, həmçinin bu, sosial infrastruktur obyektinin tikildiyi Qubadlı rayonunda oldu. Beləliklə, biz bu diqqətə görə çox minnətdarıq. Bərpa işlərində mal və xidmətlərin tədarükçüsü qismində iştirak edən bir neçə Rusiya şirkəti var, həmçinin rusiyalı iş icraçıları da mövcuddur, amma deyərdim ki, onların sayı çox deyil. Zənnimcə, onların sayı daha çox ola bilər, çünki bərpa işlərinin miqyası kifayət qədər genişdir və bu, ilk növbədə, infrastruktur layihələrini, yolları, dəmiryol tunellərini, körpüləri əhatə edir, yəni bu sahədə yaxşı təcrübəsi olan çoxlu sayda Rusiya şirkəti var.

**S u a l: Siz bunu alqışlayardınızmı?**

**C a v a b:** Bəli, sözsüz. Biz bunu alqışlayardıq və alqışlayırıq. Həm də kömək göstərilməsi planında, Həştərxan vilayətinin etdiyi kimi, sadəcə, layihələrdə iştirak etmək baxımından. İnvestisiya layihələri var. Yeri gəlmişkən, ilk investisiya layihəsi Tatarıstan tərəfindən həyata keçirilib. Bu, Cəbrayıl rayonunda Tatarıstanın rəhbəri və mənim tərəfimdən açılmış «KamAZ» xidmət mərkəzidir. Yeri gəlmişkən, bu gün mənim Tatarıstan rəhbəri ilə görüşüm olacaq. Tatarıstan nümayəndə heyəti Bakıdadır. Bu, ilk investisiya, daha dəqiq desək, xarici investisiyalar üzrə birinci layihənin, həmçinin Rusiyaya

məxsus olmasıdır. Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq.

**S u a l: Çox xoşdur. Azərbaycana atom elektrik stansiyası lazımdırmı?**

**C a v a b:** Mən bizim energetika gündəliyini bir az açıqlayardım ki, tamaşaçılara bizim harada olduğumuz və nə etdiyimiz aydın olsun. Azərbaycanda təbii qazın sübut olunmuş ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir. Nəzərə alsaq ki, 30 il ərzində bizim işlətdiyimiz neft yataqları, resursların yeni qiymətləndirilməsi 500 milyon tondan 1,5 milyard tona çatıbdır, onda qaz və qaz-kondensat yataqlarımız haqqında təxminən eynisini demək olar. Yəni 2,6 trilyon 10 il əvvəlki qiymətləndirilmiş ehtiyatlardır. Aydındır ki, bu cür potensial həcmlə və 25 milyard kubmetr ixrac həcmi ilə biz əlavə enerji mənbələrinə ehtiyac duymuruq. Üstəlik, Qarabağda və Şərqi Zəngəzurda son 3 ildə təxminən 300 meqavatlıq kiçik SES-lərin yaradılması layihələrini artıq həyata keçirmişik və 2 ildən sonra bu, 500-ə çatacaq. Əlavə olaraq, külək və Günəş energetikasını xarici investisiyalar hesabına fəal şəkildə inkişaf etdiririk. Dünya Bankının qiymətləndirməsinə görə təkcə Xəzərdə külək enerjisi ehtiyatları 157 min meqavatdır. 2030-cu ilə qədər artıq imzalanmış müqavilələr və indi yerinə yetirilənlər bizə 6 min meqavat verəcək. Bu sizin bizə AES-in lazım olması ilə bağlı sualınıza cavabın bir hissəsidir. İndi başqa məsələyə keçirəm, zənnimcə, maraqlı olar. Birincisi, iqtisadiyyatın daha bir sektoru nöqteyi-nəzərindən.

**S u a l: Bu, bütövlükdə bir sahədir?**

**C a v a b:** Əlbəttə. Bu sahə potensial kadrlar deməkdir, bu bizim heç vaxt malik olmadığımız tamamilə yeni kadrlardır. İkincisi, hər halda bu, dünyada mövcud olan tendensiyadır və ondan geri qalmaq istəmirik. Ona görə də mənim tərəfimdən tapşırıq verilib ki, elmi təcrübəli strukturların, elmi məqsədlərlə kiçik reaktorların imkanları öyrənilsin ki, bunun məhz bu nöqteyi-nəzərdən bizə nə verəcəyini görə bilək.

Bunun çox bahalı iş olduğunu, Günəş, külək enerjisi layihələrinin Azərbaycanda xarici investorlar tərəfindən həyata keçirildiyini, dövlətin heç bir sərmayə qoymadığını, sadəcə, belə bir potensiala malik olacağını nəzərə alaraq, bu sahəyə daha çox investisiya layihələrində maraqlıyıq. Əgər hər hansı bir ölkədən hansısa şirkət maraq göstərərsə, biz də birgə investor ola bilərik. Zənnimcə bu, investisiyalar üçün yaxşı layihə ola bilər. Çünki indi, elə bu günlərdə, yaxın vaxtlarda, yəqin ki, həftələrdə və ya bir-iki ayda buradan, Azərbaycandan Qara dənizin dibi ilə enerji kabellərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması başa çatacaq. İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq. Onlara təmiz «yaşıl enerji» mənbələri lazım olacaq. Bu, yaxşı aparıcı qüvvə ola bilər. Həmçinin Azərbaycanda elektrik enerjisinin daxili qiymətləri elədir ki, bu sektora investisiyalar və şirkətlər üçün istehlakçılara elektrik enerjisinin satışı kommersiya nöqteyi-

nəzərindən tamamilə məqbuldur. Bu baxımdan mən bir növ, sizin sualınıza cavab verməyə çalışdım. Bu, «hə» və ya «yox» demək deyil. Bu daha çox «hə»dir, amma... Bundan sonra bizim bir növ, ev tapşırığımız başlayır.

**S u a l: Bu yaxınlarda Azərbaycan nəhəng iqlim sammitinə ev sahibliyi etdi. Hansı çətinliklərlə üzləşməli oldunuz və bu sammitin əsas nəticələri nədən ibarətdir?**

**C a v a b:** Başlıca çətinlik ondan ibarət idi ki, vaxtımız az idi. Bir qayda olaraq, ölkələrə hazırlıq üçün 2 il vaxt verilir. Bizim isə 11 ayımız var idi. Bunun səbəbi o idi ki, ötən ilin dekabrında qərar qəbul edilməsinə iki-üç gün qalmış Ermənistan hələ də Azərbaycanın namizədliyini bloklayırdı. COP29-un Bakıda keçiriləcəyi ilə bağlı konsensus olmadığına görə məsələ son günlərdə həll edildi. Ona görə də hazırlaşmaq üçün cəmi 11 ayımız var idi və bu, ən böyük çətinlik idi. Çünki 70 mindən çox insanı qəbul etmək üçün şərait yaratmalı idik. Qeydiyyatdan 76 min iştirakçı keçmişdi. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq – belə ki, bizim mehmanxana fondunda bu qədər yer yoxdur – qonaqların yerləşdirilməsi məkanlarını müəyyən etmək lazım idi. Bunun üçün müxtəlif istirahət zonaları müəyyənləşdirildi, həmçinin tikilmiş, amma hələ istifadəyə verilməmiş mənzil fondu obyektləri mehmanxana normalarına uyğun vəziyyətə gətirilməli idi. Bu çox böyük təşkilati iş idi və biz onun öhdəsindən şərəflə gəldik. Bildiyimə görə, bu konfransın keçirildiyi bü-

tün vaxt ərzində təşkilatçılıqla bağlı 10 şikayət olub, amma onlar operativ şəkildə nizamlanıb və belə demək mümkündürsə, bütün qonaqlar razı qalıb.

İkinci çətinlik, əgər onu çətinlik adlandırmaq mümkündürsə, deyərdim ki, müəyyən rahatsızlıqla bağlı olan məsələ tamamilə əsassız aqressiya hissi, bir növ, Azərbaycana qarşı paxıllıqla müşayiət olunan qərəz idi. Yəni belə bir ölkə var və birdən-birə bu cür konfransa ev sahibliyi etmək hüququ qazanıb. Müxtəlif Qərb media orqanları bizi «petrostate» adlandırmağa başladılar. Halbuki prinsipcə burada pis bir şey yoxdur. Mən açılışda çıxış edərək dedim ki, əgər bizi XIX əsrdə «petrostate» adlandırsaydılar – o dövrdə biz dünya neftinin 50 faizini tədarük edirdik – onda bu, normal olardı. Amma indi təqribən bizim 30 milyona qarşı 1 milyard ton neft hasil edən ölkənin – mən ABŞ-ı nəzərdə tuturam – bugünkü feyk xəbərlərində bizi «petrostate» adlandırırlar.

**S u a l: Otuz?**

**C a v a b:** Bəli. Bizdə neft hasilatı cəmi 30 milyon civarındadır. Bu ölkənin qonşusu – mən Kanadanı nəzərdə tuturdum – bizdəkindən 10 dəfə artıq neft hasil edirsə və bizi «petrostate» adlandırırsa, bu ədalətsizlikdir. Amma bu feyk xəbərlər qrupu – yeri gəlmişkən, bu mənim ifadəm deyil, Prezident Trampdan əxz etmişəm və bu mənim çox xoşuma gəlir – zənnimcə, çox hərtərəfli və olduqca ünvanlıdır. Onları adlandırdığımız kimi, «yalançı dördlük» – «Washington Post», «New York Times», «Figaro» və «Le Monde». Bax, bu dördlük Dövlət Departamentinin himayəsindəki müxtəlif qeyri-hökumət təşkilatla-

rı ilə birlikdə qərəzli kampaniyaya başladılar, hər gün hücum edirdilər.

Hər gün məqalələrin sayı yəqin ki, minimum 20-dən çox olurdu. Bu, çətinlik yaratmadı, amma ikrah hissi doğurdu. Əlbəttə, nəticə əldə etmək çətin idi, çünki biz bu sahədə qlobal aktor deyilik. Qlobal qaz emissiyasında Azərbaycanın payı 0,1 faizdir. Halbuki ABŞ-da bu, 12, Avropa İttifaqında daha çoxdur...

**S u a l: Həm də bunu azaldırlar?**

**C a v a b:** Bəli, dəfələrlə azaldırlar. Mən sadəcə, rəsmi rəqəmləri göstərirəm. Ona görə də biz bütün diplomatik təcrübəmizi işə saldıq, ilk növbədə, «Qoşulmama Hərəkatı»nda sədrlik təcrübəmizi. Hər halda, orada 120 ölkə var. İslam Əməkdaşlıq Təşkilatında fəal üzvlük də körpülər qurmağa və nəticə əldə etməyə kömək edir. Bu, asan olmadı. Amma hər halda, biz bu konfransı təsadüfən «Bakı dönüşü» adlandırmırıq, çünki Paris Sazişinin 6-cı maddəsini razılaşdırmaq mümkün oldu. O, 2015-ci ildən müzakirə olunurdu. Təxminən 10 il karbon bazarları məsələsi razılaşdırılmamışdı. Biz burada – Bakıda buna nail olduq və o, artıq fəaliyyət göstərəcək. Bu, ölkələrə kvotaları satmağa və bununla da qlobal emissiyanı arzuedilən həddə saxlamağa cəhd göstərməyə imkan verəcək. Bəzilərinin uğursuz adlandırdıqları ikinci bənd üzrə – amma mən hesab edirəm ki, bu uğurdur – biz iqlim mövzularına illik xərclərin məbləğini razılaşdıra bildik. Bu məbləğ 300 milyard dollardır. Məqsəd trilyon idi. Amma aydın idi ki, trilyonu verməyə hazır deyillər. Lakin onu nəzərə alsaq ki, bun-

dan əvvəlki razılaşdırılmış rəqəm 100 milyard idi, burada isə 300 oldu, bunu uğursuzluq adlandırmağa dilim gəlmir. Başqa məsələlər də var idi. Orada Azərbaycan tərəfindən 14 təşəbbüs irəli sürüldü. Ölkələrin mütləq əksəriyyəti bu təşəbbüslərə qoşuldu, Fransa və Lüksemburq kimi dövlətlər istisna olmaqla. Fransa ilə bağlı məsələ aydındır. Lüksemburqun Fransanın ardınca getməsi yəqin ki, məlumdur. Bax, bu konfransı mən təxminən belə xarakterizə edərdim. Əlbəttə, 197 ölkə, 80 dövlət və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 min iştirakçı. Həm də bu, boykot cəhdlərinin fonunda oldu. Bu bir növ, ölkənin təqdimatı idi.

**S u a l: Sözsüz ki, Azərbaycanı bu münasibətlə təbrik etmək olar. Deyilmi?**

**C a v a b:** Sağ olun.

**S u a l: Siz özünüz Fransanı misal çəkdiniz və Azərbaycana qarşı feyk xəbər hücumlarını. Fransa Prezidenti hətta BMT-nin Baş Assambleyasında Azərbaycana qarşı hücumlar etdi. Buna cavab olaraq Siz Fransanın dənizaşırı ərazilərini, onların əsl neokolonializmlə üzləşdiyini xatırlatdınız. Onda məsələyə Cozep Borrell qarışdı və Azərbaycana hücum etdi. Məgər Avropanı tənqid etmək olmaz? Bu nə məsələdir? Ümumilikdə nə baş verir?**

**C a v a b:** Onlar kiminsə onlara ədalət öyrətməsinə alışmayıblar. Öyrəşiblər ki, hamıya özləri dərs versinlər. Onlar alışıblar ki, qarşılarında baş əysinlər. Müəyyən məsələlərdə onlardan xahiş edirlər, onlarla məsləhətləşirlər, onların icazəsi olmadan heç nə etmirlər. Beləcə, keçmiş kolonial, indi isə bəzi neo-

kolonial ölkələr bu tərzdə yaşamağa və düşünməyə alışıblar. Bu onların şüurunda dərin kök salıb. Prinsipcə, bizim Fransa ilə heç vaxt problemimiz olmayıb. Hətta deyərdim ki, Fransa ilə hər hansı bir Avropa ölkəsindən daha çox əməkdaşlıq edirdik. Bu, Fransada Makronun hakimiyyətə gəlişinə qədər idi. Mənim atam 1993-cü ildə Prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya edib. Çünki birinci olaraq Fransa dəvət etmişdi. Mən Prezident olduqda, 2003-cü ildə, həmçinin ilk ölkə olaraq Fransadan dəvət aldım və birinci səfərim bu ölkəyə oldu. Sonra biz fəal əməkdaşlıq edirdik, burada çoxlu fransız şirkəti işləyirdi. Bizdə Fransanın 13 şəhəri ilə qardaşlaşmış şəhərlər var.

Amma bu əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı. Çünki İkinci Qarabağ müharibəsi başlayanda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular. Bu, ilk belə siqnal idi ki, münasibətlərimizdə heç də hər şey qaydasında deyil. Lakin onların tərəfindən verilən siqnal idi. Sonra onlar bu nəticələri hər halda, qəbul etməyə məcbur oldular, amma bununla yanaşı, əllərindən gələni etdilər ki, prosesə zərər versinlər. Bu yaxınlarda Baş Nazir vəzifəsindən qovulmuş cənab Barnye hələ 2020-ci ildə fransız siyasətçisi qismində Qarabağa qanunsuz şəkildə səfər etmişdi. Bütün bu müdaxilə cəhdləri ona gətirib çıxardı ki, münasibətlərimiz sadəcə, böhran həddinə çatdı, sonradan daha da pisləşdi. 2023-cü ilin sentyabrından sonra onlar 5 dəfə bu məsələni Təhlükəsizlik Şurasında qaldırmağa cəhd etdilər və 5 dəfə də

uğursuzluğa düçar oldular. Bizi dəstəkləyən ölkələrin sayı onlara həmin məsələni hətta iclasın gündəliyinə salmağa da imkan vermədi. Sonra onlar başqa yolla getdilər – Azərbaycana qarşı sanksiyalara cəhd etdilər. Nəyə görə? Ona görə ki, biz öz suverenliyimizi bərpa etmişik? Burada da uğursuzluğa düçar oldular. Bizə qarşı kinləri, necə deyərlər, daha çox artdıqdan sonra isə onlar indi bizi nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edirlər.

Onların kolonial keçmişinə gəldikdə, bəziləri bunu bizim cavabımız kimi qiymətləndirirlər, zənnimcə, bu məsələ ola bilər ki, daha dərin xarakter daşıyır. Əgər ən başlanğıcda haradasa, necəsə bu məsələni nəzərdən keçirmək mümkün idisə, indi bu mövzuya dərindən nüfuz etdiyimiz, fransız kolonializminin iyrənc simasını gördüyümüz, bizim nümayəndələrimizin fransız koloniyalarının sakinləri ilə fəal ünsiyyət saxladıqları vaxtda – həm onların ölkələrində, həm Bakıda, həm də digər məkanlarda –biz görürük ki, uzun illər ərzində dünya ictimaiyyətindən nələri gizlədiblər. Nə üçün? Çünki heç kim bununla maraqlanmaq istəmirdi. Heç kim başının ağrımasını istəmirdi. Çünki onlar şantaj edirlər. Hətta bizim münasibətlərimiz soyuq müharibə fazasına daxil olduqda, əvvəlcə bizə mesajlar gəlirdi ki, «unutmayın, biz böyük ölkəyik».

**S u a l: Nəyi gizlədirdilər? Siz xatırlatdınız ki, nəyisə gizlədirdilər. Bu nədən ibarətdir?**

**C a v a b:** Necə yəni nəyi? Təbii ehtiyatların amansız istismarını.

**S u a l: Siz Yeni Kaledoniyanı nəzərdə tutursunuz?**

**C a v a b:** Təkcə onu deyil. Zənnimcə, orada Yeni Kaledoniya kimi 13, yaxud 15 ölkə var. Elə bu yaxınlarda onların birində – Mayot adasında sunami baş verdi. Dünən «Euronews» xəbər verirdi: Mayot adası əhalisinin 75 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Evlərin 30 və ya 40 faizi yararsızdır. Bu ərazi hüquqi olaraq Fransaya məxsusdur. Hərçənd bu, Qəmər Adalarının bir hissəsidir. Bu, Qəmər dövlətinin adalarından biridir. Fransa onu qanunsuz olaraq saxlayır və hansı hüquqi əsasla? Onlar Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanı qətlə yetirdilər, 100-dən çoxunu yaraladılar, 1000-dən artığını həbs etdilər. Həm də etirazçıların liderlərini Fransaya apardılar, həbsxanalarda saxlayırlar. Bu, Makronun diktaturasıdır. Bu, Makron rejimidir. Mən bu barədə danışdıqda, təbii ki, qeyri-hökumət təşkilatları, yaxud media qismində öz «zəncirli köpəkləri»ni üzərimə salırlar. Biz yenidən – mən Azərbaycan ictimaiyyətini nəzərdə tuturam – bu məsələni cavab qismində gündəlikdə saxlamağa başlayandan sonra indi vəziyyət daha ciddi olub. Təbii ki, biz hüquqları olmayan bu xalqlara ürəkağrısı ilə yanaşırıq. Avropanın mərkəzində – Korsikada onlar Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman yeni Kaledoniya haqqında nə demək olar?! Bu nəyə yarayar?! Bu demokratiyadır? Bu, insan hüquqlarıdır? Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir. Ba-

xın, bir neçə misal çəkəcəyəm: Afrikada, Sahel regionunda iflas. Onlara «Əlvida!» dedilər. Niger, Burkina-Faso, Mali. Növbədə Çaddır, bu ölkə artıq onlardan çıxmağı tələb edir. Seneqal – burada Prezident dəyişdi və milli ruha malik insan gəldi. Bu hələ başlanğıcdır. Livanda uğursuzluq, Azərbaycanda tam iflas, Gürcüstanda iflas. Diqqət yetirin, daxili siyasətdə nələr baş verir? Hərc-mərclik! Yeni Baş Nazir təyin olunur. Onun əri və ya arvadı, bilmirəm, onlarda bunların hansıdır, Xarici İşlər naziri təyin edilir. Avropa Parlamentinə seçkilərdə uğursuzluqdan sonra onları «günah keçisi» edirlər. Naftalindən çıxarılmış Barnye təyin olunur və onu da qurban verirlər. İndi yenə kimisə tapırlar. Olmazmı ki, elə özündən başlasın? Əvvəllər sovet dövründə deyildiyi kimi, «özünütənqiddən başlamaq lazımdır». Baxın, «Moody`s» Fransanın reytinqini aydan-aya aşağı salır. Artıq «Triple-A»ya çatıb, orada kiçik «a» mövcuddur. Çox kiçik, güclə görünən.

**M ü x b i r:** Orada xarici borc həddən artıq yüksəkdir.

**İ l h a m  Ə l i y e v:** Bu iflasdır. Həm də uğursuzluq davam edir. Belə bir iflasın müəllifi kimdir? Cənab Makron. Azərbaycana zərər vermək əvəzinə, bax, bu barədə düşünmək lazımdır. Onların bizə batırmaq istədikləri dişləri artıq sınıb. Heç olmasa, qalanları qoruyub saxlasınlar.

**S u a l: Hazırda Gürcüstanda baş verənləri Siz necə qiymətləndirərdiniz?**

**C a v a b:** Görürəm ki, Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mü-

hüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin.Yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik bu nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir.

**S u a l: Bu, Azərbaycanın milli maraqlarına uyğundur, ya yox?**

**C a v a b:** Bəli, təbii ki. İkincisi, yardım asılılıq yaratmamalıdır. Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır: biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax, onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil.

**M ü x b i r:** O, Rusiyada qadağan olunub.

**İ l h a m  Ə l i y e v:** Bizdə hələ qadağan edilməyib, amma zənnimcə, Tramp onu qadağan edə bilər.

**M ü x b i r:** Rusiyada onu özümüz qadağan etdik.

**İ l h a m  Ə l i y e v:** Siz qadağan etdiniz və doğru iş gördünüz. Mən düşündüyümü deyirəm, o, ümumiyyətlə, sıradan çıxa bilər. Bax, onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə, maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar «Amerikanın səsi» və «Azadlıq radiosu» kimi əlaltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərində qələbəmizə kölgə salırlar. Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır. Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, Makrona olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün.

Beləliklə, Gürcüstan məsələsinə qayıdarkən deməliyəm ki, o, göründüyündən daha genişdir. Zənnimcə, bu səbəbdən nəzərdə tuturam ki, adətən, irəliyə sanksiyaları vərdişə çevirmiş ölkələri verirlər. Əgər belə demək mümkündürsə bu, Qafqaz uğrunda döyüşdür. Ermənistanın haraya getdiyi aydındır. O, mahiyyətcə KTMT-dən de-fakto çıxıb. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların de-yure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O necə olacaq, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaqmı?

Yeri gəlmişkən, Borrel haqqında danışdıq, mən ona məhəl qoymadım. Bunun ardınca ona hələ bir-iki siqnal da göndərmək istəyirəm. Hərçənd mən COP-da çıxışlarımın birində bu barədə danışmışam, hətta Borreldən sitat gətirmişəm ki, o, Avropanın çiçəklənən bağ, qalanların isə cəngəllik olduğunu bildirib.

Mən də dedim ki, əgər biz cəngəllikiksə, bizdən uzaq durun. Ümumiyyətlə, Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı Xarici İşlər naziri olardı. Onun başqa zamanda yaşamaqda bəxti gətirməyib.

**S u a l: Azərbaycan Qafqazın ən rusdilli ölkəsi sayılır. Puşkin adına Rus Dili İnstitutunun tədqiqatları da bunu təsdiq edir. Rus dili Sizin üçün xüsusi qayğı predmetidir. Siz buna necə nail olursunuz və bu, Azərbaycana nə verir?**

**C a v a b:** Çox asan. Çünki ona ictimaiyyət tərəfindən tələbat var və heç vaxt hər hansı məhdudiyyət olmayıb. Hər halda, mənim atamın dövründə və mənim dövrümdə olmayıb və olmayacaq. Əksinə, biz hər vəchlə çalışırıq ki, insanların rus dilini daha yaxşı bilmələri, ona mükəmməl yiyələnmələri üçün əlavə şərait yaradaq. Bizdə tədris rus dilində olan 320-dən artıq məktəb var. Bütövlükdə şagirdlərimizin 1 milyona yaxını rus dilində təhsil alır və ya onu ikinci dil kimi öyrənir. 800 min nəfər rus dilini ikinci dil kimi öyrənir. İki universitet – MDU və Seçenov Akademiyası fəaliyyət göstərir. Yaradıcı kollektivlər, əsasən teatrlar, demək olar ki, mütəmadi, çox tez-tez gəlirlər. Ona görə də rus dilinə tələbat var, o yaşayır, necə deyərlər, özünü yaxşı hiss edir. Bu bizə nə verir? Birincisi, sırf praktiki nöqteyi-nəzərdən hər hansı dili bilmək insanı zənginləşdirir. Dili yaxşı bilmək həm ədəbiyyata, həm də hər hansı elmi əsərlərə tam nüfuz etmək imkanı verir. Axı bizim alimlərimiz, məsələn, bir çox informasiyanı Rusiya mənbələrindən alırlar. Bu, insanlarımıza təkcə rusiyalı dostları və həmkarları ilə deyil, həm də digər MDB ölkələrində olanlarla ünsiyyət qurmağa imkan verir. Yəni bu ünsiyyət rus dili vasitəsilə aparılır. Biz bütün MDB ölkələri ilə, mən də prezidentlərlə rus dilində danışırıq. Komandalarımız rus dilində ünsiyyət qurur. Biz görüşlər zamanı rusca danışırıq. Yəni rus dili bunları verir. Əlbəttə ki, bu, Azərbaycanda rus icması üçün daha bir rahatlıq amilidir. Bu, ölkələrimiz arasında müsbət dövlətlərarası münasibətlərin amillərindən biridir. Bu onu göstərir ki, yenə danışdığımıza qayıda-

raq demək istəyirəm: rus dilinə belə münasibət Azərbaycan dilinə, bizim kimliyimizə, mədəniyyətimizə heç bir zərər vermir. Qətiyyən. Əksinə, bu, dost ab-havası yaradır. Təsadüfi deyil ki, biz təkcə bu sahədə deyil, həm də dinlərarası qarşılıqlı fəaliyyət, mədəniyyətlərarası əlaqələr məsələlərinin həyata keçirilməsində də fərqlənirik. Bakının Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumunun keçirildiyi məkana çevrilməsi də təsadüfi deyil. Yəni hər şey qarşılıqlıdır. Zənnimcə, bizim siyasətimiz haqlı olduğunu sübut etdi. Dili siyasi motivlər üzrə sıxışdırmağa cəhd edənlər isə böyük səhvə yol verirlər.

**S u a l: Siz həmçinin demişdiniz ki, Rusiyada məqsədli təxribatçı fəaliyyətə yönəlmiş emiqrant yuvasına Azərbaycanda imkan verməyəcəksiniz. Bu belə də oldu. Bunun üçün səylər tələb olundu?**

**C a v a b:** Xeyr, mənim deməyim kifayət idi. Mənə qulaq asdılar və qonşuluqdakı başqa bir istiqaməti seçdilər.

**S u a l: İlham Heydəroğlu, qarşıdan gələn ildə rusiyalılara qısaca nə arzu edərdiniz?**

**C a v a b:** İlk ağlıma gələn, əlbəttə, sülhdür, 2025-ci ildə müharibə başa çatsın, insanlar evlərinə qayıtsınlar və sülh şəraitində yaşasınlar. Əlbəttə, bir-birini başa düşməyi öyrənsinlər. Təbii ki, Rusiyaya qarşı belə sanksiya siyasətini nəzərə alaraq, rəhbərliyə öz gücünə, qətiyyətinə inam arzulayıram, Prezidentin komandasına sanksiya siyasətinin mənfi nəticələrini minimuma endirmək üçün gələcəkdə də bütün tədbirləri görməyi diləyirəm. Çünki aydındır ki, bütün bunlar fəsadsız ötüşməyəcək. Rusiya cəmiyyəti

hər hansı bir cəmiyyət kimi, ağır dövrdə birləşir və biz Rusiyada bu konsolidasiyanı görürük. Arzu edirəm ki, belə də davam etsin.

Suallardan birinə cavab verərkən artıq qismən toxunduğum daha bir məqamı qeyd etmək istərdim: ölkələrimizi, xalqlarımızı və rəhbərliklərimizi daha çox birləşdirən nədir? Bu öz milli köklərinə və ənənəvi dəyərlərinə sadiqlikdir. Bu gün bu, demək olar ki, bəzi regionlarda çox nadir haldır. Gah xarici idarəçilik, gah tam mənəvi deqradasiya, yaxud onların biri digəri ilə birlikdə. Yəni bu bizi sərfəli şəkildə fərqləndirir. Dünyada gördüyümüz tendensiyalar, o cümlədən Trampın Prezident seçilməsi məhz onu göstərən amildir ki, o, elə bizimlədir. Necə deyərlər, ənənəvi dəyərlərə münasibətdə bir qayıqdayıq. Zənnimcə, bəşəriyyət üçün fəlakətli olan tendensiyanı tərsinə çevirə biləcəyik, bax, bu pozğunluq, nümayişkaranə iblislik ki, biz onu Paris Olimpiadasının açılışında gördük. Bu halların qarşısı alınmalıdır. Bunu liderlərə inanan cəmiyyət edəcək, bunu biz edəcəyik. Mütləq. Yoxsa biz azlıqda qalacağıq. Biz isə azlıqda qala bilmərik.

Əlbəttə, Yeni ildə bütün rusiyalılara xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

**M ü x b i r:** İlham Heydəroğlu, bu ətraflı müsahibə üçün çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*19 dekabr 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.*

*Paylaşımda deyilir:* «Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, islam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir».

## QEYDLƏR

**1. Eldar Əzizov,** Eldar Əziz oğlu (d.1957) – 2000–2003-cü illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin, 2015–2018-ci illərdə Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur. 2018-ci il noyabrın 15-dən isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 5, 232.

**2. COP29** – 2024-cü ildə Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransı. COP tədbirlərinin məqsədi dünyada karbon qazının miqdarını məhdudlaşdırmaqdır. – 6, 7, 9, 10, 13, 14, 16, 27, 28, 31, 32, 67, 69, 71, 72, 75, 76, 77, 82, 84, 85, 87, 90, 94, 96, 98, 99, 100, 101, 103, 104, 105, 109, 110, 111, 112, 113, 114, 115, 116, 117, 119, 121, 125, 126, 128, 131, 132, 134, 135, 140, 146, 147, 148, 149, 151, 153, 157, 158, 161, 162, 163, 165, 166, 167, 168, 169, 171, 172, 174, 175, 176, 180, 182, 183, 184, 186, 188, 190, 192, 195, 201, 202, 204, 206, 208, 212, 214, 215, 217, 219, 220, 222, 223, 224, 227, 241, 242, 244, 245, 248, 249, 260, 263, 265, 281, 303.

**3. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə

İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 8, 70, 75, 100, 189, 305.

**4. İspaniya,** İspaniya Krallığı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km², əhalisi 48,2 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı Korteslərdir. Paytaxtı Madrid şəhəridir. – 9, 10, 117, 118.

**5. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km², əhalisi 45,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 11, 12, 164.

**6. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən

fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur. İşğaldan azad olunmuş ərazilərin bərpasına və aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılmasına daim diqqət göstərir.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və ISESCO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşki-

lat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 13, 14, 41, 46, 54, 56, 132, 274.

7. **Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 14, 15, 28, 62, 74, 96, 97, 98, 100, 105, 106, 108, 110, 111, 112, 115, 117, 119, 120, 121, 131, 132, 142, 151, 153, 159, 161, 164, 165, 183, 198, 208, 217, 240, 255, 257.

8. **Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESCO və ISESCO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək,

Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 14, 123, 201.

**9. Qarabağ** – Azərbaycan Respublikası ərazisində keçmiş muxtar vilayət. Öncə ərazisi 4161 km$^2$ olmuş, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 km$^2$-dək genişləndirilmişdi. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdi.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdılar.

Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV ərazisində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi.

Azərbaycan Ordusunun Qarabağda keçirdiyi uğurlu antiterror və hərbi əməliyyatlarından sonra Qarabağ tamamilə azad edilmişdir. – 16, 49, 51, 54, 55, 59, 85, 92, 207, 294, 297, 298, 300, 307.

**10. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Joqorku Keneşdır. Paytaxtı Bişkek şəhəridir. – 18, 20, 23, 28, 29, 31, 34.

**11. Çingiz Aytmatov,** Çingiz Torekuloviç (1928–2008) – görkəmli qırğız yazıçısı. Qırğız Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976–1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusu olmuşdur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 19, 20, 21, 22, 23, 24, 25.

**12. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev

MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilərin əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiya-

larında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ prob-

leminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 20, 21, 22, 23, 57, 58, 62, 141, 142, 159, 255, 257, 273, 274, 275, 276, 280, 285, 315, 316.

**13. Türk Dövlətləri Təşkilatı** – 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanmış «Naxçıvan» müqaviləsi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulmuş beynəlxalq təşkilat. 2019-cu ildə Özbəkistan da təşkilata üzv olmuşdur.

Təşkilatın eləcə də 3 müşahidəçi üzvü var: Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası. – 26, 29, 30, 31, 32, 33.

**14. Türkiyə,** Türkiyə Respublikası – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 85,3 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 27, 30, 31, 32, 59, 63, 115, 152, 247, 248, 265, 266, 282, 290, 291, 292, 317.

**15. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri oldu. 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Prezidentidir. İkinci Qarabağ savaşında Azərbaycana böyük mənəvi dəstək vermişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27, 31, 59, 115, 247, 248, 265, 266.

**16. Sadır Japarov** (d.1968) – qırğız siyasətçisi və dövlət xadimi. 2021-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 28, 29, 31.

**17. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 20 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Astana şəhəridir. – 29, 31, 138, 139, 140, 141, 144, 145, 204.

**18. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın siyasi və dövlət xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 29, 138, 140, 141, 145.

**19. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Ümumi sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il «Gülüstan» müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vila-

yəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 29, 45, 94.

**20. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 333,3 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 30, 35, 36, 202, 203, 204, 205, 230, 271, 293, 294, 295, 305, 312.

**21. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 37 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qaraqalpaqıstan Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 31, 32, 61, 135, 136, 137, 138, 139, 140, 142, 143, 144, 145, 204.

**22. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı

Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 31, 32, 34, 203.

**23. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın dövlət və siyasi xadimi. 2003–2016-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 32, 61, 135, 136, 138, 140, 141, 142, 145.

**24. Viktor Orban** (d.1963) – Macarıstanın siyasi və dövlət xadimi. 1998–2002-ci illərdə Macarıstanın Baş Naziri olmuşdur. 2010-cu ildən yenidən Macarıstanın Baş Naziridir. – 32, 34.

**25. İpək yolu**, böyük İpək yolu – beynəlxalq tarixi tranzit ticarət yolu. Eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans

keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 33.

**26. Donald Tramp** (d.1946) – ABŞ-ın siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017–2021-ci illərdə ABŞ Prezidenti olmuşdur, 2024-cü ildə yenidən ABŞ Prezidenti seçilmişdir. – 35, 230, 231, 304.

**27. Moldova,** Moldova Respublikası– Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min $km^2$, əhalisi 2,6 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişineu şəhəridir. – 38.

**28. Zəfər Günü** – Azərbaycan Respublikasında İkinci Qarabağ müharibəsində qazanılan Qələbə şərəfinə təsis edilən Zəfər Günü. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı «Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında» Sərəncama əsasən qeyd edilir. – 44.

**29. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamış-

dır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilmiş humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 47, 51, 100, 295, 307.

**30. Birinci Qarabağ müharibəsi** – keçən əsrin 80-ci illərinin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan

arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. Ordumuz Qarabağın bir sıra ərazilərini erməni separatçılarından azad etmişdir. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 47.

**31. Zəngəzur,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il tarixli fərmanına əsasən yaradılmış Gəncə quberniyasının tərkibinə daxil edilmişdir. – 49.

**32. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və

zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 49, 53.

**33. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 50, 95.

**34. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 $km^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyəti həyata keçirmişlər. İşğaldan azad edildikdən sonra Kəlbəcər yenidən qurulur. – 50, 229.

**35. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 ildən sonra Azərbaycan Respublikasına təhvil verilmişdir. – 50, 236.

**36. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun–17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi.

Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 57, 58.

**37. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 58.

**38. Şuşa Bəyannaməsi** – 2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa şəhərində imzalanmış Bəyannamə. – 59.

**39. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Partiya-

da Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) ümummilli lider Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 64.

**40. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 84,4 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 67.

**41. Olaf Şolts** (d.1958) – Almaniya siyasətçisi və dövlət xadimi. Almaniya Sosial-Demokrat Partiyasının üzvüdür. 8 dekabr 2021-ci ildən Almaniyanın Federal Kansleridir. – 67.

**42. «Azərkosmos» ASC** – Azərbaycanda Açıq Səhmdar Cəmiyyət. Azərbaycanın və Qafqazın ilk peyk operatorudur. Teleradio və Telekommunikasiya xidmətləri göstərir. 2010-cu ildən fəaliyyət göstərir. – 72, 163.

**43. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2023-cü illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 74, 75, 100, 161, 163, 165, 179, 213, 305.

**44. Monqolustan** – Mərkəzi Asiyada dövlət. Sahəsi 1,56 milyon km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı Prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 76, 77, 78.

**45. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli və dini zəmində yaranmış mübahisə qanlı hərbi qarşıdurmaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında Saziş imzalandı. 1995-ci ildə qüvvəyə minmiş Konstitusiyaya görə ölkədə birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yaradıldı. Sahəsi 51,2 min km$^2$,

əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 79, 80, 81, 219.

**46. İraq,** İ r a q R e s p u b l i k a s ı – Qərbi Asiyada dövlət. Şimalda Türkiyə, şərqdə İran, cənubda Səudiyyə Ərəbistanı və Küveyt, qərbdə isə Suriya və İordaniya ilə həmsərhəddir. Ərazisi 437 min $km^2$, əhalisi 46,4 milyon nəfərdir. Paytaxtı Bağdad şəhəridir. – 82, 83.

**47. Misir,** M i s i r Ə r ə b R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon $km^2$, əhalisi 106,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 84, 317.

**48. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Azərbaycan Respublikası Avropa İttifaqı ilə əməkdaşlıq edir. Təşkilatın mənzil-

qərargahı Brüsseldə yerləşir. – 87, 89, 100, 125, 204, 250, 264, 296, 305.

**49. Şarl Mişel** (d.1975) – belçikalı siyasətçi. 2014–2019-cu illərdə Belçikanın Baş Naziri, 2019–2024-cü illərdə isə Avropa İttifaqı Şurasının Prezidenti olmuşdur. – 87, 296.

**50. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Avropanın şimalında Baltik dənizi sahilində dövlət. Sahəsi 338 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Finlandiya inzibati cəhətdən 12 ərazi vahidinə (lyaniya) bölünür. Finlandiya parlamentli respublikadır. Paytaxtı Helsinki şəhəridir. – 88, 263.

**51. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi olmuşdur. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzalamışlar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 88.

**52. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,4 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 89, 90.

**53. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 mil-

yon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 91, 203, 277, 310, 311, 312, 313.

**54. İrakli Kobaxidze** (d.1978) – Gürcüstan siyasətçisi və dövlət xadimi. 2016–2019-cu illərdə Gürcüstan Parlamentinin Sədri olmuşdur. 8 fevral 2024-cü ildən Gürcüstanın Baş Naziridir. – 91.

**55. Slovakiya,** Slovak Respublikası – Mərkəzi Avropada dövlət. Şimalda Polşa, şərqdə Ukrayna, cənubda Macarıstan, cənub-qərbdə Avstriya, şimal-qərbdə Çexiya ilə həmsərhəddir. Paytaxtı Bratislava şəhəridir. Sahəsi 49 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. Slovakiya parlamentli respublikadır. – 92.

**56. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka və İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olan ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının ses-

siyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 92, 288, 289, 290, 296, 297.

**57. Serbiya,** Serbiya Respublikası – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km², əhalisi 7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 93.

**58. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidentidir. – 93.

**59. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km², əhalisi 9,2 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 94, 95.

**60. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun siyasi və dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 94.

**61. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət və siyasi xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların işi üzrə baş komissar olmuşdur. 2017-ci ildən

BMT-nin Baş katibidir. – 96, 98, 105, 110, 165, 166, 167.

**62. Birləşmiş Ərəb Əmirlikləri** (BƏƏ) – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 99, 101, 259, 260.

**63. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMT TŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 100.

**64.** ***bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 101, 129.

**65. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları –** 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azər-

baycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilmişdir. – 102.

**66. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarları, sədr, sədrin 2 müavini və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 104, 165, 250.

**67. Muxtar Babayev,** M u x t a r  B a h a d u r  o ğ l u (d.1967) – diplomat. 2018-ci il aprelin 23-dən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziridir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni və «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 105, 110, 168.

**68. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfək-

kiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 112, 113, 174.

**69. NASA,** «Milli Aeronavtika və Kosmos İdarəsi» –ABŞ-ın mülki kosmik proqramlarını həyata keçirmək üçün yaradılmış icraedici dövlət agentliyi. NASA-nın həyata keçirdiyi elmi tədqiqatlar əsasən Yer Müşahidə Sistemi vasitəsi ilə Yer planetini daha yaxşı tədqiq etmək, heliofizika və astrofizika elmlərini daha dərindən öyrənmək, eləcə də avtomatlaşdırılmış sistemlər vasitəsilə Günəş sisteminə daxil olan fəza cisimlərini kəşf etmək işlərini əhatə edir. – 114.

**70. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 11,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 119.

**71. Fələstin,** F ə l ə s t i n   D ö v l ə t i – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən, Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin Ərəb Dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin Muxtariyyəti yaradıldı. Sahəsi 6 min km$^2$, əhalisi 5,2 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir. – 119, 198.

**72. Küveyt,** K ü v e y t   D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Qanunverici orqan və hökumət Əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı Əl-Küveyt şəhəridir. – 120.

**73. Vatikan,** V a t i k a n   Ş ə h ə r - D ö v l ə t i – İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsində Monte-Vatikano adlanan təpə üzərində yerləşən mikrodövlət. Sahəsi 0,49 km$^2$, əhalisi 825 nəfərdir. Şəhər-dövlətin sərhədlərinin ümumi uzunluğu 2600 metrdir. Vatikan həm ərazisi, həm də əhalisinin sayına görə dünya dövlətlərinin ən kiçik, eyni zamanda, müstəqil və suveren ölkəsidir. Roma Papası tərəfindən idarə edilən teokratik monarxiya olan Vatikan 11 fevral 1929-cu il tarixində Roma Katolik kilsəsi və İtaliya

rəhbərliyi arasında imzalanmış Lüteran Sazişi əsasında yaradılıb. – 123, 124, 279.

**74. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 125.

**75. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 125.

**76. Çex,** Çexiya Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 126, 127.

**77. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük

Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 128, 129.

**78. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 129, 300.

**79. Albaniya,** Albaniya Respublikası – Balkan yarımadasının cənub-qərbində yerləşən ölkə. Adriatik və İon dənizləri sahilində yerləşir və şimal-qərbdən Monteneqro, şimal-şərqdən Kosovo, şərqdən Şimali Makedoniya və cənubdan Yunanıstan ilə həmsərhəddir. Ərazisi 28,7 min $km^2$, əhalisi 2,8 milyon nəfərdir.

Albaniya parlamentli respublikadır. Paytaxtı Tirana şəhəridir. – 131, 225, 226.

**80. Edi Rama** – Albaniya siyasətçisi, yazıçı, publisist, pedaqoq və keçmiş basketbolçu. Albaniyanın 33-cü Baş Naziridir. – 131.

**81. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq-enerji kompleksinin inkişafını təmin edən şirkət. Res-

publikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 131, 146.

**82. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, həmçinin MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1991-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 71 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 133, 134.

**83. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 136, 140.

**84. Mirzə Uluqbəy**, Uluqbəy Məhəmməd Tarağay (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilmiş ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 140.

**85. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 34,2 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin və həm də ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanında yerləşir. Paytaxtı Ər-Riyad şəhəridir. – 140, 142, 143, 144, 145.

**86. Rumen Radev** (d.1963) – Bolqarıstanın hərbi və siyasi xadimi, general-mayor. 2017-ci ildən Bolqarıstan Respublikasının Prezidentidir. – 146, 147.

**87. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 6,8 milyon nəfərdir. İnzi-

bati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 146.

**88. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 176, 306.

**89. Monteneqro** – Cənub-Şərqi Avropada dövlət. Monteneqro Balkan yarımadasında yerləşir. Sahəsi 13,8 $km^2$, əhalisi 633 min nəfərdir. Dövlət quruluşu parlamentli respublikadır. Paytaxtı Podqoritsa şəhəridir. – 178, 179.

**90. ISESCO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan ISESCO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 201.

**91. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay

şəklində bölüşdürülməsi haqqında» dünyanın 13 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 203.

**92. Rumıniya** – Cənub-Şərqi Avropada dövlət. Dövlət başçısı Prezident, qanunverici orqan isə ikipalatalı parlamentdir. Ərazisi 238,3 min km$^2$, əhalisi 19 milyon nəfərdir. Paytaxtı Buxarest şəhəridir. – 203, 235.

**93. İsrail,** İ s r a i l D ö v l ə t i – Yaxın Şərqdə dövlət. Sahəsi 20,7 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 222, 271.

**94. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin dövlət və siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı olmuşdur. 2014–2023-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər naziri olmuşdur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 247, 248.

**95. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayət və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 249.

**96. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın dövlət və siyasi xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir.

Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 249.

**97. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası

Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 249, 314.

**98. UNESCO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESCO-nun üzvüdür. – 252, 253.

**99. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Ərazisi 802 $km^2$, əhalisi 40,2 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 267, 268.

**100. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, peşə, xüsusilə kimya və elektron sə-

nayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək-ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 274.

**101. Əziz Əliyev,** Əziz Məmməd Kərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin üzvü olmuşdur. – 274.

**102. Tamerlan Əliyev,** Tamerlan Əziz oğlu (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 274.

**103. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 292.

## Şəxsi adlar göstəricisi


**Abbas Mahmud** – 198
**Abdulla Şaiq** – 42
**Akufo-Addo Nana Addo Dankua** – 121
**Al Səid Heytəm** – 210
**Al Səud Salman** – 145
**Alkmin Jeraldu** – 184
**Aşurbəyova Nabat** – 42
**Aytmatov Çingiz** – 19, 20, 21, 22, 23, 24, 25
**Aytmatov Eldar** – 19, 20, 21, 25
**Aytmatova Mariya** – 19
**Babayev Muxtar** – 105, 110, 168
**Babuşkin İqor** – 267, 268, 269
**Beçiroviç Denis** – 79–81
**Belousov Andrey** – 289
**Beqay Bayram** – 225
**Berse Alen** – 188, 189
**Borrell Cozep** – 165, 306, 313
**Conson Mayk** – 203
**Cozef Ovono Berr** – 157
**Çandra Ram** – 182, 183
**Çavuşoğlu Mövlud** – 247, 248
**De Kro Aleksandr** – 89

**Duda Andjey** – 125
**Əl-Alimi Abdulla** – 190
**Əl-Alimi Rəşad** – 244
**Əl-Bekaye Hamadi Əhməd** – 240, 241
**Əl-Casir Məhəmməd** – 194, 195
**Ələkbərov Anar** – 13
**Əl-Hüseyn Abdullah** – 119
**Əli Abiy** – 186
**Əliyev Əziz** – 274
**Əliyev Heydər** – 20–23, 57, 58, 62, 141, 142, 159, 255, 257, 273–276, 280, 285, 315, 316
**Əliyev Tamerlan** – 274
**Əliyeva Dilarə** – 5
**Əliyeva Leyla** – 201
**Əliyeva Mehriban** – 13, 14, 41, 46, 54, 56, 132, 274
**Əliyeva Zərifə** – 274
**Əl-Maliki Məhəmməd** – 201
**Əl-Nəhyan Zaid** – 99, 259
**Əl-Qazuani Məhəmməd** – 227, 241
**Əl-Sabah Xalid** – 120
**Əl-Tayyib Əhməd** – 84, 85, 200
**Əl-Xəlifə Həməd** – 278
**Ənsari Şina** – 155
**Ərdoğan Rəcəb Tayyib** – 27, 31, 59, 115, 247, 248, 265, 266
**Əzizov Eldar** – 5, 232

**Embalo Umaru** – 75, 237
**Fathudin Ali** – 7
**Fiala Petr** – 126
**Georgiyeva Kristalina** – 172, 173
**Hersoq İshaq** – 222
**Heyq Nik** – 114
**Xurelsux Uxnaaqiyn** – 76, 77
**II İohann Pavel** – 279
**İnfantino Canni** – 116
**Japarov Akılbek** – 18, 34
**Japarov Sadır** – 28, 29, 31
**Kalderon Enrike** – 242, 243
**Kaminetski Bernard** – 271, 272
**Kaqame Pol** – 153, 154
**Kassama Viriato** – 237
**Kavelaşvili Mixeil** – 277
**Kıonq Lıonq** – 37
**Kiselyov Dmitri** – 286
**Kobaxidze İrakli** – 91
**Konetsko Tomas** – 206
**Koşta Antonio** – 264
**Qallager Paul** – 279, 280, 282
**Qnassinqbe For Essozimna** – 148
**Quterreş Antonio** – 96, 98, 105, 110, 165–167
**Latore Kristina** – 9
**Lukaşenko Aleksandr** – 94
**Lyayen Ursula** – 250
**Məmmədov Saleh** – 39

**Milatoviç Yakov** – 178
**Minnixanov Rüstəm** – 284, 285
**Mirziyoyev Şavkat** – 32, 61, 135, 136, 138, 140, 141, 142, 145
**Mişel Şarl** – 87, 296
**Mişustin Mixail** – 158, 159, 160, 199
**Mitsotakis Kiriakos** – 171
**Mohd Şərif Maimuna** – 208
**Muizzu Məhəmməd** – 192, 193
**Mustafa Kamal Atatürk** – 63
**Mnanqaqva Emmerson Dambudzo** – 73
**Nizami Gəncəvi** – 112, 113, 174
**Odil Reno-Basso** – 133
**Orban Viktor** – 32, 34
**Ömüralıyev Kubanıçbek** – 32
**Özəl Özgür** – 63
**Parolin Pietro** – 123
**Pelleqrini Peter** – 92
**Pezeşkian Məsud** – 155
**Pflüger Avqust** – 202, 203
**Pinto Karlos** – 237, 238
**Putin Vladimir** – 158–160, 199, 286, 287, 289
**Radev Rumen** – 146, 147
**Rama Edi** – 131
**Ramuş-Horta Joze** – 228
**Rəhmon Emoməli** – 249

**Reqev Miri** – 222
**Rəşid Camal** – 82
**Riçard Paul** – 279, 280, 282
**Rollan Jan** – 206
**Saleh Əhməd** – 244, 245
**Samoi Ruto** – 270
**Sançez Pedro** – 9, 117
**Sandu Maya** – 38
**Santoxi Çandrikapersad** – 69, 220
**Sassu-Nqesso Deni** – 149
**Selassiye Taye Atske** – 186
**Sihamoni Norodom** – 66
**Siluanov Anton** – 211
**Silyanovska-Davkova Qordana** – 180
**Sisoku Embalo** – 75
**Sisulit Thonqlun** – 261
**Skotland Patrisia Canet** – 161, 167, 212, 213
**Slutski Leonid** – 211
**Starmer Kir** – 128
**Stubb Aleksandr** – 88, 263
**Süesən Din** – 169
**Şərif Şahbaz** – 151
**Şerm Klaudio** – 206
**Şoltz Olaf** – 67
**Tağızadə Süleyman** – 42
**Tatar Ersin** – 32
**Tebbun Abdelmacid** – 11
**Tokayev Kasım-Jomart** – 29, 138, 140, 141, 145

**Tramp Donald** – 35, 230, 231, 304
**Trovoada Patris Emeri** – 71
**Tsviyanoviç Jelka** – 219
**Tuçin Maykl** – 271, 272
**Uipps Surangel** – 214
**Uluqbəy Mirzə** – 140
**Verner Klaus** – 235
**Vilyams Sunita** – 114
**Vuçiç Aleksandr** – 93
**Yanq Filemon** – 176
**Yunus Məhəmməd** – 174

## Coğrafi adlar göstəricisi


**Afrika** – 148, 187
**Almaniya** – 67
**Asiya** – 30, 139, 140, 197, 204, 216
**Avrasiya** – 99
**Avropa** – 35, 89, 101, 104, 127, 139, 140, 141, 143, 306, 309
**Albaniya** – 131, 225, 226
**Amerika Birləşmiş Ştatları** – 30, 35, 36, 202, 203, 204, 205, 230, 271, 293, 294, 295, 305, 312
**Ağdam** – 50, 95
**Balaxanı** – 39
**Banqladeş** – 174, 175, 317
**Belarus** – 94, 95
**Belçika** – 89, 90
**Bəhreyn** – 86, 278
**Bişkek** – 18, 19, 26, 27, 28, 34
**Bolqarıstan** – 146
**Bosniya və Herseqovina** – 79, 80, 81, 219
**Böyük Britaniya** – 128, 129
**Braziliya** – 184

**Birləşmiş Ərəb Əmirlikləri** – 99, 101, 259, 260
**Cəbrayıl** – 129, 300
**Çex Respublikası** – 126, 127
**Çin** – 169, 170
**Digah** – 39
**Dubay** – 99, 111
**Efiopiya** – 186, 187
**El-Salvador** – 242, 243
**Əlcəzair** – 11, 12, 164
**Fələstin** – 119, 198
**Finlandiya** – 88, 263
**Fransa** – 164, 293, 294, 296, 306, 307, 309
**Füzuli** – 136, 140
**Gəncə** – 133
**Gürcüstan** – 91, 203, 277, 310, 311, 312, 313
**Həştərxan** – 267, 268
**Xankəndi** – 48, 57, 136
**İordaniya** – 119
**İraq** – 82, 83
**İran** – 155, 156, 317
**İspaniya** – 9, 10, 117, 118
**Keniya** – 270
**Kəlbəcər** – 50, 229
**Komboca** – 66
**Konqo** – 149
**Korça** – 131

**Korsika** – 164
**Kuala-Lumpur** – 111, 208, 209
**Kürdəxanı** – 39
**Küveyt** – 120
**Qabon** – 157
**Qafqaz** – 31, 32, 36, 51, 81, 139, 159, 217, 265, 282, 287, 292, 293
**Qana** – 121, 122
**Qarabağ** – 16, 49, 51, 54, 55, 59, 85, 92, 207, 294, 297, 298, 300, 307
**Qazax** – 51
**Qazaxıstan** – 29, 31, 138, 139, 140, 141, 144, 145, 204
**Qətər** – 283
**Qırğız Respublikası** – 18, 20, 23, 28, 29, 31, 34
**Quba** – 271
**Qubadlı** – 267, 268
**Qvadelupa** – 164
**Qvineya-Bisau** – 75, 237, 238, 239
**Laçın** – 50, 236
**Laos** – 261
**Macarıstan** – 31, 32, 34, 203
**Malayziya** – 111, 208, 209, 317
**Maldiv** – 192, 193
**Martinika** – 164
**Mavritaniya** – 227, 240, 241

| | |
|---|---|
| **Məmmədli** | – 39 |
| **Misir** | – 84, 317 |
| **Moldova** | – 38 |
| **Monqolustan** | – 76, 77, 78 |
| **Monteneqro** | – 178, 179 |
| **Moskva** | – 286, 290 |
| **Naxçıvan** | – 102 |
| **Naxçıvan Muxtar Respublikası** | – 58 |
| **Nepal** | – 182, 183 |
| **Niderland** | – 164 |
| **Nyu York** | – 109 |
| **Oman** | – 210 |
| **Özbəkistan** | – 31, 32, 61, 135–140, 142–145, 204 |
| **Pakistan** | – 151, 152, 317 |
| **Palau** | – 214, 215 |
| **Pirşağı** | – 39, 40 |
| **Polşa** | – 125 |
| **Renyon** | – 164 |
| **Ruanda** | – 153, 154 |
| **Rumıniya** | – 203, 235 |
| **Rusiya** | – 156, 158, 199, 211, 267, 268, 284–293, 300, 315, 316 |
| **Sarayevo** | – 81 |
| **Serbiya** | – 93 |
| **Səudiyyə Ərəbistanı** | – 140, 142, 143, 144, 145 |
| **Slovakiya** | – 92 |

**Somali** – 7
**Surinam** – 69, 70, 220
**Suriya** – 266, 282
**Şimali Kipr Türk Respublikası** – 32
**Şimali Makedoniya** – 180, 181
**Şuşa** – 29, 45, 94
**Tacikistan** – 249
**Tayland** – 262
**Tatarıstan** – 284, 285, 300
**Timor-Leste** – 228
**Toqo** – 148
**Tonqa** – 163
**Türkiyə** – 27, 30, 31, 32, 59, 63, 115, 152, 247, 248, 265, 266, 282, 290–292, 317
**Ukrayna** – 291
**Valensiya** – 9
**Vaşinqton** – 290
**Vatikan** – 123, 124, 279
**Vyetnam** – 37
**Yəmən** – 190, 191, 244, 245, 246
**Yunanıstan** – 171
**Zəngəzur** – 49
**Zimbabve** – 73

# MÜNDƏRİCAT

BAKI DƏMİRYOL VAĞZALININ VƏ METRONUN «28 MAY» STANSİYASININ QARŞISINDAKI ƏRAZİDƏ APARILMIŞ ABADLIQ VƏ YENİDƏN QURULMA İŞLƏRİNDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 noyabr 2024-cü il ............................................................ 5*

SOMALİ FEDERATİV RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FATHUDİN ALİ MƏHƏMMƏD İLƏ GÖRÜŞ

*1 noyabr 2024-cü il ............................................................ 7*

İSPANİYA KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KRİSTİNA LATORE SANÇO İLƏ GÖRÜŞ

*1 noyabr 2024-cü il ............................................................ 9*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDELMACİD TEBBUNA

*1 noyabr 2024-cü il .......................................................... 11*

BAKI OLİMPİYA STADİONUNUN ƏRAZİSİNDƏ COP29-la BAĞLI YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*4 noyabr 2024-cü il* ........................................................ *13*

BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR KONFRANSININ 29-cu SESSİYASI (COP29) ÇƏRÇİVƏSİNDƏ «DÜNYA DİNLƏRİ YAŞIL PLANET UĞRUNDA» ŞÜARI ALTINDA KEÇİRİLMİŞ DİNİ LİDERLƏRİN QLOBAL SAMMİTİNİN İŞTİRAKÇILARINA

*5 noyabr 2024-cü il* ........................................................ *15*

QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*5 noyabr 2024-cü il* ........................................................ *18*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ «ÇİNGİZ AYTMATOV» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*5 noyabr 2024-cü il* ........................................................ *19*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*5 noyabr 2024-cü il* ........................................................ *26*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*6 noyabr 2024-cü il* ........................................................ *27*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI DÖVLƏT BAŞÇILARININ 11-ci ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*6 noyabr 2024-cü il* ........................................................ *28*

MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBANIN TÜRK DÜNYASININ ALİ ORDENİ İLƏ TƏLTİF OLUNMASI MƏRASİMİNDƏ İŞTİRAK

*6 noyabr 2024-cü il* ........................................................ *34*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

*6 noyabr 2024-cü il* ........................................................ *35*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LIONQ KIONQA

*7 noyabr 2024-cü il* ........................................................ *37*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ XANIM MAYA SANDUYA

*7 noyabr 2024-cü il* ........................................................ *38*

BÖYÜKŞOR–PİRŞAĞI YENİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*7 noyabr 2024-cü il* ........................................................ *39*

BAKIDA MƏRKƏZİ PARKIN ÜÇÜNCÜ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*7 noyabr 2024-cü il* ........................................................ *41*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*7 noyabr 2024-cü il* ........................................................ *44*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*8 noyabr 2024-cü il* ........................................................ *45*

BAKIDA ZƏFƏR PARKININ AÇILIŞI MƏRASİMİNDƏN AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*8 noyabr 2024-cü il* ........................................................ *46*

DÖVLƏT BAYRAĞI MEYDANINDA ÜÇRƏNGLİ BAYRAĞIN UCALDILMASI MƏRASİMİ

*8 noyabr 2024-cü il* ........................................................ *56*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANDAN

*8 noyabr 2024-cü il* ........................................................ *59*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVDƏN

*8 noyabr 2024-cü il* ........................................................ *61*

TÜRKİYƏNİN CÜMHURİYYƏT XALQ PARTİYASININ SƏDRİ ÖZGÜR ÖZƏL AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*8 noyabr 2024-cü il* ........................................................ *63*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*9 noyabr 2024-cü il* ........................................................ *65*

KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

*9 noyabr 2024-cü il* ........................................................ *66*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ OLAF ŞOLTZ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*9 noyabr 2024-cü il* ........................................................ *67*

SURİNAM RESPUBLİKASININ PREZİDENTİ ÇANDRİKAPERSAD SANTOXİ İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il* ...................................................... *69*

SAN-TOME VƏ PRİNSİPİ DEMOKRATİK RESPUBLİKASININ BAŞ NAZİRİ PATRİS EMERİ TROVOADA İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il........................................................... 71*

ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ EMMERSON DAMBUDZO MNANQAQVA İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il........................................................... 73*

QVİNEYA-BİSAU RESPUBLİKASININ PREZİDENTİ UMARU SİSOKU EMBALO İLƏ GÖRÜŞ

*10 noyabr 2024-cü il........................................................... 75*

MONQOLUSTAN PREZİDENTİ UXNAAQİYN XURELSUX İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il........................................................... 76*

BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ DENİS BEÇİROVİÇ VƏ ÜZVÜ JELKA TSVİYANOVİÇ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il........................................................... 79*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ ƏBDÜLLƏTİF CAMAL RƏŞİD İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il........................................................... 82*

ƏL-ƏZHƏRİ ŞƏRİFİN ŞEYXİ, BÖYÜK İMAM ƏHMƏD MƏHƏMMƏD ƏHMƏD ƏL-TAYYİB İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il........................................................... 84*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 87*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR STUBB İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 88*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ ALEKSANDR DE KRO İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 89*

GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ KOBAXİDZE İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 91*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ PETER PELLEQRİNİ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 92*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 93*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il.......................................................... 94*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ANTONİO QUTERREŞ İLƏ GÖRÜŞ

*11 noyabr 2024-cü il........................................................... 96*

BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ 29-cu SESSİYASININ LİDERLƏR SAMMİTİNİN AÇILIŞI MƏRASİMİ

*12 noyabr 2024-cü il........................................................... 98*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il......................................................... 115*

FIFA-nın PREZİDENTİ CANNİ İNFANTİNO İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il......................................................... 116*

İSPANİYA KRALLIĞI HÖKUMƏTİNİN SƏDRİ PEDRO SANÇEZ İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il......................................................... 117*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ VƏLİƏHDİ ŞAHZADƏ II ƏL-HÜSEYN BİN ABDULLAH İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il......................................................... 119*

KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ŞEYX SABAH XALİD ƏL-HƏMƏD ƏL-SABAH İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il......................................................... 120*

QANA RESPUBLİKASININ PREZİDENTİ
NANA ADDO DANKUA AKUFO-ADDO
İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il* ........................................................ *121*

MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ
KARDİNAL PİETRO PAROLİN İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il* ........................................................ *123*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ANDJEY DUDA İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il* ........................................................ *125*

ÇEX RESPUBLİKASININ BAŞ
NAZİRİ PETR FİALA İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il* ........................................................ *126*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ
İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ
BAŞ NAZİRİ KİR STARMER İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il* ........................................................ *128*

ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
EDİ RAMA İLƏ GÖRÜŞ

*12 noyabr 2024-cü il* ........................................................ *131*

BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ
ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR
KONFRANSININ 29-cu SESSİYASININ
LİDERLƏR SAMMİTİNİN AÇILIŞI

MƏRASİMİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*12 noyabr 2024-cü il*......................................................... *132*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ ODİL RENO-BASSO İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*......................................................... *133*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*......................................................... *135*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV VƏ ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ ÜÇTƏRƏFLİ GÖRÜŞ

*13 noyabr 2024-cü il*......................................................... *138*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUMEN RADEV İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*......................................................... *146*

TOQO RESPUBLİKASININ PREZİDENTİ FOR ESSOZİMNA QNASSİNQBE İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il*......................................................... *148*

KONQO RESPUBLİKASININ PREZİDENTİ DENİ SASSU-NQESSO İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il......................................................... 149*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD ŞAHBAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il......................................................... 151*

RUANDA RESPUBLİKASININ PREZİDENTİ POL KAQAME İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il......................................................... 153*

İRAN İSLAM RESPUBLİKASININ VİTSE-PREZİDENTİ, İRANIN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ TƏŞKİLATININ SƏDRİ XANIM ŞİNA ƏNSARİ İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il ........................................................ 155*

QABON RESPUBLİKASININ VİTSE-PREZİDENTİ COZEF OVONO BERR İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il ........................................................ 157*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİN İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il ........................................................ 158*

COP29 ÇƏRÇİVƏSİNDƏ İNKİŞAF ETMƏKDƏ OLAN KİÇİK ADA DÖVLƏTLƏRİNİN SAMMİTİNDƏ İŞTİRAK

*13 noyabr 2024-cü il......................................................... 161*

ÇİN XALQ RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ DİN SÜESƏN İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il......................................................... 169*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ KİRİAKOS MİTSOTAKİS İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il......................................................... 171*

BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU KRİSTALİNA GEORGİYEVA İLƏ GÖRÜŞ

*13 noyabr 2024-cü il......................................................... 172*

BANQLADEŞ XALQ RESPUBLİKASI MÜVƏQQƏTİ HÖKUMƏTİNİN BAŞ MÜŞAVİRİ MƏHƏMMƏD YUNUS İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il......................................................... 174*

BMT BAŞ ASSAMBLEYASININ 79-cu SESSİYASININ PREZİDENTİ FİLEMON YANQ İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il......................................................... 176*

MONTENEQRO PREZİDENTİ YAKOV MİLATOVİÇ İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il......................................................... 178*

ŞİMALİ MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM QORDANA SİLYANOVSKA-DAVKOVA İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 180*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ RAM ÇANDRA PAUDEL İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 182*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ VİTSE-PREZİDENTİ JERALDU ALKMİN İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 184*

EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ TAYE ATSKE SELASSİYE İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 186*

AVROPA ŞURASININ BAŞ KATİBİ ALEN BERSE İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 188*

YƏMƏN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ ABDULLA ƏL-ALİMİ İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 190*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD MUİZZU İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il........................................................ 192*

İSLAM İNKİŞAF BANKININ PREZİDENTİ MƏHƏMMƏD ƏL-CASİR İLƏ GÖRÜŞ

*14 noyabr 2024-cü il......................................................... 194*

İŞA XEYRİYYƏ FONDUNUN TƏSİSÇİSİ SADHQURUDAN

*14 noyabr 2024-cü il......................................................... 196*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*14 noyabr 2024-cü il......................................................... 198*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*15 noyabr 2024-cü il......................................................... 199*

ƏL-ƏZHƏRİN ŞEYXİ, MÜSƏLMAN AĞSAQQALLARI ŞURASININ SƏDRİ ƏHMƏD ƏL-TAYYİB HƏZRƏTLƏRİNƏ

*16 noyabr 2024-cü il......................................................... 200*

ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKİ İLƏ GÖRÜŞ

*16 noyabr 2024-cü il......................................................... 201*

ABŞ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVÜ AVQUST PFLÜGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 noyabr 2024-cü il......................................................... 202*

BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ TOMAS KONETSKO, BEYNƏLXALQ AVARÇƏKMƏ FEDERASİYASININ PREZİDENTİ JAN KRİSTOF ROLLAN VƏ BEYNƏLXALQ DRAQON QAYIQLARI FEDERASİYASININ PREZİDENTİ KLAUDİO ŞERMİ İLƏ GÖRÜŞ

*17 noyabr 2024-cü il......................................................... 206*

MALAYZİYANIN PAYTAXTI KUALA-LUMPUR ŞƏHƏRİNİN MERİ, BMT-nin MƏSKUNLAŞMA PROQRAMININ SABİQ İCRAÇI DİREKTORU XANIM MAİMUNA MOHD ŞƏRİF İLƏ GÖRÜŞ

*17 noyabr 2024-cü il......................................................... 208*

OMAN SULTANI ƏLAHƏZRƏT HEYTƏM BİN TARİQ AL SƏİDƏ

*18 noyabr 2024-cü il......................................................... 210*

RUSİYA FEDERASİYASININ MALİYYƏ NAZİRİ ANTON SİLUANOV VƏ DÖVLƏT DUMASINDA RUSİYA LİBERAL DEMOKRAT PARTİYASI FRAKSİYASININ RƏHBƏRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*18 noyabr 2024-cü il......................................................... 211*

MİLLƏTLƏR BİRLİYİ TƏŞKİLATININ BAŞ KATİBİ PATRİSİA CANET SKOTLAND İLƏ GÖRÜŞ

*18 noyabr 2024-cü il......................................................... 212*

PALAU RESPUBLİKASININ PREZİDENTİ SURANGEL UİPPS İLƏ GÖRÜŞ

*18 noyabr 2024-cü il*........................................................ *214*

ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSI 12-ci BAŞ ASSAMBLEYASININ İŞTİRAKÇILARINA

*19 noyabr 2024-cü il*........................................................ *216*

BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ XANIM JELKA TSVİYANOVİÇƏ

*22 noyabr 2024-cü il*........................................................ *219*

SURİNAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇANDRİKAPERSAD SANTOXİYƏ

*22 noyabr 2024-cü il*........................................................ *220*

İSRAİL DÖVLƏTİNİN NƏQLİYYAT VƏ YOL TƏHLÜKƏSİZLİYİ NAZİRİ MİRİ REQEV İLƏ GÖRÜŞ

*22 noyabr 2024-cü il*........................................................ *222*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*24 noyabr 2024-cü il*........................................................ *223*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BAYRAM BEQAYA

*25 noyabr 2024-cü il*........................................................ *225*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ŞEYX ƏL-QAZUANİYƏ

*25 noyabr 2024-cü il......................................................... 227*

TİMOR-LESTE DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE RAMUŞ-HORTAYA

*25 noyabr 2024-cü il......................................................... 228*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*25 noyabr 2024-cü il......................................................... 229*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ DONALD TRAMP İLƏ TELEFON DANIŞIĞI

*25 noyabr 2024-cü il......................................................... 230*

BAKIDA ABADLIQ, ƏSASLI YENİDƏN QURULMA, TİKİNTİ VƏ GENİŞLƏNDİRMƏ İŞLƏRİNDƏN SONRA MƏRKƏZİ NƏBATAT BAĞININ AÇILIŞI MƏRASİMİ

*28 noyabr 2024-cü il......................................................... 232*

RUMINİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS VERNER İOHANNİSƏ

*1 dekabr 2024-cü il........................................................... 235*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*1 dekabr 2024-cü il.......................................................... 236*

QVİNEYA-BİSAU RESPUBLİKASININ XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏK-DAŞLIQ VƏ XARİCDƏKİ İCMALAR NAZİRİ KARLOS PİNTO PEREYRANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2024-cü il.......................................................... 237*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ SİD ƏHMƏD ƏL-BEKAYE HAMADİ İLƏ GÖRÜŞ

*3 dekabr 2024-cü il.......................................................... 240*

EL-SALVADOR RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ENRİKE HAYME KALDERON İLƏ GÖRÜŞ

*3 dekabr 2024-cü il.......................................................... 242*

YƏMƏN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MƏHƏMMƏD SALEH ƏHMƏD TURİQ İLƏ GÖRÜŞ

*3 dekabr 2024-cü il.......................................................... 244*

TÜRKİYƏNİN SABİQ XARİCİ İŞLƏR NAZİRİ, TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVÜ VƏ NATO PARLAMENT ASSAMBLEYASINDAKI NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*4 dekabr 2024-cü il........................................................... 247*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ TELEFONLA ZƏNG EDİB

*4 dekabr 2024-cü il........................................................... 249*

AVROPA KOMİSSİYASININ PREZİDENTİ XANIM URSULA FON DER LYAYENƏ

*5 dekabr 2024-cü il........................................................... 250*

«QAYIDIŞ HÜQUQU: ERMƏNİSTANDAN ZORLA ÇIXARILMIŞ AZƏRBAYCANLILAR ÜÇÜN ƏDALƏTİN TƏMİN EDİLMƏSİ» MÖVZUSUNDA II BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*5 dekabr 2024-cü il........................................................... 251*

AZƏRBAYCAN UŞAQLARININ VI ÜMUMRESPUBLİKA FORUMUNUN İŞTİRAKÇILARINA

*5 dekabr 2024-cü il........................................................... 255*

AZƏRBAYCAN KÖNÜLLÜLƏRİNİN VII HƏMRƏYLİK FORUMUNUN İŞTİRAKÇILARINA

*5 dekabr 2024-cü il........................................................... 257*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYANA

*5 dekabr 2024-cü il.......................................................... 259*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THONQLUN SİSULİTƏ

*5 dekabr 2024-cü il.......................................................... 261*

TAYLAND KRALI ƏLAHƏZRƏT MAHA VAÇİRALONGKORN PHRA VAÇİRAKLAOCHAYUHUAYA

*5 dekabr 2024-cü il.......................................................... 262*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR STUBBA

*5 dekabr 2024-cü il.......................................................... 263*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANTONİO KOŞTAYA

*6 dekabr 2024-cü il.......................................................... 264*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFON DANIŞIĞI

*10 dekabr 2024-cü il........................................................ 265*

RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİN İLƏ GÖRÜŞ

*10 dekabr 2024-cü il*........................................................ *267*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UİLYAM SAMOİ RUTOYA

*11 dekabr 2024-cü il*........................................................ *270*

AMERİKA–İSRAİL İCTİMAİ ƏLAQƏLƏR KOMİTƏSİNİN (AIPAC) PREZİDENTİ MAYKL TUÇİN VƏ KOMİTƏNİN YENİ SEÇİLMİŞ PREZİDENTİ BERNARD KAMİNETSKİ İLƏ GÖRÜŞ

*11 dekabr 2024-cü il*........................................................ *271*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*11 dekabr 2024-cü il*........................................................ *273*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2024-cü il*........................................................ *274*

GÜRCÜSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL KAVELAŞVİLİYƏ

*13 dekabr 2024-cü il*........................................................ *277*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX
HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*14 dekabr 2024-cü il........................................................ 278*

MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏTLƏR
VƏ BEYNƏLXALQ TƏŞKİLATLARLA
ƏLAQƏLƏR ÜZRƏ KATİBİ ARXİYEPİSKOP
PAUL RİÇARD QALLAGER İLƏ GÖRÜŞ

*16 dekabr 2024-cü il........................................................ 279*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX TƏMİM BİN HƏMƏD AL TANİYƏ

*16 dekabr 2024-cü il........................................................ 283*

RUSİYA FEDERASİYASI TATARISTAN
RESPUBLİKASININ RƏİSİ RÜSTƏM
MİNNİXANOV İLƏ GÖRÜŞ

*17 dekabr 2024-cü il........................................................ 284*

ÜMUMRUSİYA DÖVLƏT TELEVİZİYA
VƏ RADİO YAYIMI ŞİRKƏTİ VƏ RUSİYA-
NIN «RİA NOVOSTİ» AGENTLİYİ ÜÇÜN
«ROSSİYA SEQODNYA» BEYNƏLXALQ
İNFORMASİYA AGENTLİYİNİN BAŞ
DİREKTORU, «ROSSİYA-1» TELEVİZİYA
KANALINDA YAYIMLANAN «VESTİ
NEDELİ» PROQRAMININ MÜƏLLİFİ
VƏ APARICISI DMİTRİ KİSELYOVA
MÜSAHİBƏ

*17 dekabr 2024-cü il........................................................ 286*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*19 dekabr 2024-cü il* ............................................................... *317*

QEYDLƏR ................................................................... *318*

*Şəxsi adlar göstəricisi*........................................................ *357*

*Coğrafi adlar göstəricisi*.................................................... *363*

**Redaksiya heyəti:**

***Əlövsət Ağalarov***
***Sevinc Əzizova***
***Rəsmiyə Qarayeva***
***İradə Məmmədova***
***Aysel İsmayılova***

**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Texniki redaktor** ***Zoya Nəcəfova***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,0. Uçot nəşr vərəqi 24,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı, Mehdi Hüseyn küç., 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.